RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 104 (8983) CÜMƏ AXŞAMI, 19 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Azərbaycan-Litva münasibətlərində yeni mərhələ



Rəsmi qarşılanma mərasimi

Mətbuata bəyanatlar

Prezidentlərin görüşü

Ali qonağın şərəfinə

Geniş tərkibdə görüş

Biznes forum

## Litva Respublikasının Prezidenti Gitanas Nausedanın Azərbaycan Respublikasına rəsmi səfəri

(2-5)

## Bakıda 15-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgisi keçirilir

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, kənd təsərrüfatı naziri İnam Kərimov, Türkiyənin kənd təsərrüfatı və meşə naziri Vahid Kirişçi, İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forer, Gürcüstanın ətraf mühit və kənd təsərrüfatı nazirinin müavini George Xanişvili və digər ölkələrin rəsmi şəxsləri "Caspian Agro-2022" və "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar.

Baş nazirə məlumat verilib ki, "Caspian Agro" Azərbaycanda kənd təsərrüfatı sahəsində ən böyük beynəlxalq sərgidir. Rekord sayda milli və regional stendlərin nümayiş olunduğu builki sərgilərdə 101-i yerli, 348-i xarici şirkət olmaqla ümumilikdə 24 ölkədən 449 şirkət iştirak edir. Sərgi Azərbaycan Respublikasının aqrar-sənaye kompleksində mütərəqqi texnologiyaların tətbiqi, kənd təsərrüfatı sahəsinin yerli və xarici mütəxəssisləri arasında təcrübə mübadiləsi, qarşılıqlı faydalı işgüzar əlaqələrin gücləndirilməsi üçün bazarda praktiki vasitə kimi özünü doğruldub. Sərgi kənd təsərrüfatı sektorunun ən əsas iştirakçılarını, yerli və xarici mütəxəssisləri, aralarında idxalçılar, ixracatçılar, distribütorlar, topdan və pərakəndə satış təmsilçiləri, eləcə də fermerlərin yer aldığı minlərlə peşəkar ziyarətçini bir araya gətirib.

6

## Şuşada İƏT zirvəsi

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisin Sədri Sahibə Qafarova və digər rəsmi şəxslər müşayiət ediblər. Şuşaya səfər çərçivəsində qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Onlara Prezident İlham Əliyevin sərəncamı ilə qısa müddətdə tikilərək istifadəyə verilmiş bu hava limanının texniki imkanları barədə məlumat verilib. Bildirilib ki, Qarabağın "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub və hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var.

Parlament nümayəndələri Füzuli Beynəlxalq Hava Limanının və tikilməkdə olan Laçın hava limanının maketləri ilə də tanış olublar.

Sonra qonaqlar Füzulidən Şuşaya yola düşüblər. Şuşada parlament nümayəndələrini Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qarşılayaraq onlara Şuşanın Qala divarları, şəhərin tarixi, işğal dövründəki vəziyyəti və bu gün Şuşada aparılan quruculuq işləri barədə danışıb. Parlament nümayəndələrinin diqqətinə çatdırılıb ki, şəhərdəki tarixi abidələr və məscidlər Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında bərpa olunur. Qonaqlara şəhərdə bərpa olunmuş tarixi abidələr, tikiləcək yeni yaşayış binaları barədə də məlumat verilib.

7

Ombudsman İnsan Hüquqları Aylığı ilə bağlı müraciət yayıb 13

Azərbaycan Ordusunun rabitə hissə və bölmələri ilə kompleks məşqlər keçirilir 9

DOST mərkəzləri "Avropa İttifaqı Biznes Mühiti Hesabatı-2021"də təkmil islahat kimi dəyərləndirilib 11

## Can payı



Ölkəmizdə orqan transplantasiyası prosesi ciddi problemlərlə üzləşib

12

Külli miqdarda narkotik vasitənin dövlət sərhədindən keçirilməsi cəhdlərinin qarşısı alınıb 16

Polis bu dəfə vitse-spikeri döydü 12

Hava zəhərə çevriləndə... 12

# Azərbaycan-Litva münasibətlərində yeni mərhələ

## Rəsmi qarşılanma mərasimi

**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Litva Respublikasının Prezidenti Gitanas Nausedanın mayın 18-də rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Litva Respublikasının Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Litva Respublikasının Prezidenti Gitanas Nausedanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Litva Respublikasının Prezidentinə raport verdi.

Prezident Gitanas Nauseda Azərbaycan əsgərlərini salamladı.

Prezident İlham Əliyev və Prezident Gitanas Nauseda fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Litva Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Gitanas Nausedanın qarşısından keçdi.

Azərbaycan nümayəndə heyəti Litva Prezidentinə, Litva nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.









## Prezidentlərin görüşü



Mayın 18-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Litva Prezidentini salamlayan Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizi görməyimə çox şadam və ölkəmizdə xoş vaxt keçirməyinizi arzu edirəm. Əminəm ki, səfəriniz ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verəcəkdir. Biz əməkdaşlığımızın səviyyəsindən məmnunuq. Səfəriniz çərçivəsində bir sıra tədbirlər baş tutacaq ki, onların arasında biznes forum da var. İşgüzar dairələrimiz arasında praktiki fəaliyyətlə bağlı qarşılıqlı böyük maraq var.

Əlbəttə siyasi əlaqələrimiz, siyasi dialoq və regional vəziyyət bu gün müzakirə edəcəyimiz məsələlər sırasındadır və mən həqiqətən də şadam ki, biz Bakıda görüşmək imkanı əldə etmişik. İki il bundan öncə bizim videokonfrans vasitəsilə görüşümüz oldu. Mən bu təşəbbüsə görə minnətdaram, bu, bizim ilk tanışlığımız idi. Bu gün isə Sizi qəbul etməyimdən məmnunam. Əminəm ki, özünüzü Azərbaycanda evinizdəki kimi hiss edəcəksiniz və buradan xoş xatirələrlə ayrılacaqsınız. Bir daha xoş gəlmisiniz, səfərinizin xoş keçməyini arzu edirəm.

Litva Prezidenti **Gitanas Nauseda** dedi:

- Sağ olun, qonaqpərvərliyinizə görə təşəkkür edirəm. Bu, ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına əlavə təkan vermək üçün çox yaxşı fürsətdir. Mən ümidvaram ki, biz bu potensialı müəyyənləşdirərək ondan istifadə edəcəyik. Buraya bizneslə yanaşı, ictimai həyatın müxtəlif sahələri də daxildir. Əlbəttə, regional təhlükəsizlik və Avropa İttifaqı ilə münasibətlər mühüm əhəmiyyət kəsb edən məsələlər sırasındadır. Litva hər zaman Qafqaz ölkələri ilə Avropa İttifaqı arasında daha sıx dialoqu dəstəkləyib. Biz Şərq Tərəfdaşlığı layihəsini də güclü şəkildə dəstəkləyirik və bu məsələni də Sizinlə müzakirə etmək arzusundayıq.

İkitərəfli münasibətlərimiz və iqtisadi əlaqələrimiz əhəmiyyətlidir və şadam ki, məni işgüzar dairələri təmsil edən nümayəndə heyəti müşayiət edir. Onlar xüsusi tədbirdə iştirak edərək mümkün iqtisadi əməkdaşlıq məsələlərini nəzərdən keçirəcəklər. Düzgün bilirəmsə, biz də orada açılış nitqi ilə çıxış edəcəyik.

Əlbəttə, mədəniyyət və təhsil sahələri də vacibdir. Bizim iki universitetimizin rektoru və digər universitetləri təmsil edən nümayəndələr də Azərbaycanda səfərdədirlər. Onlar müştərək proqramları müzakirə edəcəklər ki, bu sahədə də əlaqələr daha yüksək səviyyəyə qalxsın.

Zənnimcə, ölkələrimiz arasında müəyyən coğrafi məsafə olsa da, xalqlarımız 1990-cı illərdən bəri mədəni əlaqələri yaxşı xatırlayır. Bu baxımdan, bu sahəyə də təkan verilməsi mühüm əhəmiyyət kəsb edir.

## Geniş tərkibdə görüş



Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Cənab Prezident, nümayəndə heyətinin üzvləri, bir daha Azərbaycana xoş gəlmisiniz. Bir qədər əvvəl biz cənab Prezidentlə ikitərəfli əməkdaşlığımızın müxtəlif mühüm məsələləri, eləcə də regional inkişaf, sözsüz ki, Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı ilə bağlı çox yaxşı və geniş müzakirələr apardıq. Biz baxışlarımızda çox oxşarlıq olduğunu görürük.

İkitərəfli əlaqələrin inkişafına gəlincə, biz çox nikbin fikirdəyik. Biz cənab Prezidentlə iqtisadi sektorda ümidverici olduğunu düşündüyümüz sahələri müzakirə etdik. Düşünürəm ki, bu gün nümayəndə heyətlərinin üzvləri artıq təmaslara başlayıb və bunu davam etdirəcəklər. Çünki müxtəlif sahələrə məsul olan şəxslər arasında birbaşa şəxsi təmaslar qurmaq vacibdir. Əlbəttə ki, biznes forum çox ümidvericidir. Bilirəm ki, sənədlər imzalanacaq, həmçinin mühüm olan odur ki, biznes dairələrimiz arasında birbaşa təmaslar qurulacaq. Cənab Prezidentlə müzakirə etdiyimiz kimi, potensial əməkdaşlıq sahələri, - informasiya texnologiyalarından başlayaraq kənd təsərrüfatı, turizm, enerji, bərpaolunan enerji mənbələri, nəqliyyata qədər, - həqiqətən də çox genişdir. Düşünürəm ki, biz çox yaxşı nəticələrə nail ola bilərik. Çünki bizim münasibətlərimizin çox yaxşı siyasi təməli var və Prezidentin rəsmi səfəri ikitərəfli əlaqələrdə mühüm amildir.

Həmçinin Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi yolları ilə bağlı qarşılıqlı anlaşma var. Biz Avropa İttifaqı ilə sıx əlaqələrə dair Azərbaycanın planlarını dəstəklədiyinə görə Litvaya, onun hökumətinə, Prezidentinə minnətdarıq. Əlbəttə ki, bu yaxşı fürsətdən istifadə edərək ikitərəfli əlaqələri gücləndirməliyik. Həmçinin biz regional vəziyyəti, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini geniş müzakirə etdik. Bilirəm ki, Azərbaycandan sonra Prezident Ermənistana səfər edəcək. Beləliklə, əminəm ki, bu səfər başa çatandan sonra onda tam təsəvvür formalaşacaq. Amma bizim mövqeyimiz çox açıqdır. Biz Ermənistanla sülh sazişi imzalamaq istəyirik. Biz münasibətləri normallaşdırmaq və düşmənçilik səhifəsini çevirmək istəyirik. Beləliklə, cənab Prezident, nümayəndə heyətlərinin üzvləri arasında müzakirə olunmalı çox məsələlər var.

Bir daha xoş gəlmisiniz və Azərbaycana səfər etdiyiniz üçün Sizə təşəkkür edirik.

Litva Prezidenti **Gitanas Nauseda** dedi:

- Təşəkkür edirəm, cənab Prezident. Siz bizim müzakirə etmək imkanımızın olduğu məsələləri artıq qeyd etdiniz. Onların arasında regionda təhlükəsizliklə bağlı vəziyyət və ümumilikdə bir çox sahələrdə əməkdaşlığımız və iqtisadi əməkdaşlıq xüsusilə mühüm əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən nazir müavinlərindən ibarət nümayəndə heyəti, iqtisadiyyat, nəqliyyat, təhsil, kənd təsərrüfatı nazirlərinin müavinləri mənimlə birlikdədirlər. Biz artıq çox ümidverici ola biləcək sahələri müzakirə etdik, xüsusilə ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasına nail olmağa çalışırıq. Mən artıq Azərbaycandan idxalın bir neçə dəfə artdığının şahidi oldum. Əfsuslar olsun ki, bizim ixracımızla bağlı vəziyyət bu cür deyil. İstənilən halda şadıq ki, sizin işləriniz yaxşı gedir. Mən Litva üçün əhəmiyyəti getdikcə artan sahələrdə əməkdaşlıq üzrə böyük potensial görürəm. Bunlar yüksək əlavə dəyərə malik sektorlardır. Maliyyə texnologiyası, İKT, biotexnologiyalar, lakin, əlbəttə ki, ənənəvi sahələr də, ərzaq məhsulları mühüm əhəmiyyət kəsb edir. Litva ənənəvi olaraq ərzaq məhsullarının ixracında çox güclü olub. İxracımızın ən böyük hissəsi Avropa İttifaqı bazarının payına düşür. Bilirsiniz ki, Avropa İttifaqı bazarının tələbləri çox yüksəkdir.

# Azərbaycan-Litva münasibətlərində yeni mərhələ

## Mətbuata bəyanatlar

Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda mətbuata bəyanatlarla çıxış ediblər.







### Prezident İlham Əliyevin bəyanatı

- Cənab Prezident.

Xanımlar və cənablar.

Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz. Mən Sizi bizim ölkədə qəbul etməkdən çox məmnunam. Azərbaycana rəsmi səfər etdiyiniz üçün çox sağ olun. Biz bunu dostluq və tərəfdaşlıq əlaməti hesab edirik. Litva ilə Azərbaycan uzun illərdir ki, strateji tərəfdaşdırlar. Aramızda imzalanmış Strateji Tərəfdaşlıq üzrə Bəyannamə həqiqətən əməkdaşlığımızın mahiyyətini əks etdirir. Bu gün cənab Prezidentin səfəri bir daha əməkdaşlığımızın strateji mahiyyətini təsdiq edir.

Biz bir çox məsələləri müzakirə etdik. Əlbəttə ki, biz məmnuniyyətlə ölkələrimiz arasındakı güclü siyasi əlaqələri, ikitərəfli gündəliyə aid müxtəlif məsələlərin həllinə kömək edən siyasi dialoqu vurğuladıq. İki il öncə cənab Prezident ilə videokonfrans vasitəsilə danışmaq imkanımız olub, çox konstruktiv və məhsuldar müzakirələr aparılıb. İndi də canlı olaraq ikitərəfli gündəliyə dair çoxlu vacib məsələlər haqqında danışmaq imkanımız oldu.

Bildiyiniz kimi, bu gün biz ölkələrimizin işgüzar dairələri qarşısında çıxış edəcəyik. Bilirəm ki, iş qurmaqda böyük qarşılıqlı maraq var. Bu gün biz həm ikitərəfli, həm də geniş tərkibdə görüşlərimiz zamanı iqtisadi, ticarət, nəqliyyat, kənd təsərrüfatı, təhsil, enerji, idman və başqa sahələrdə əməkdaşlığın müxtəlif aspektlərini geniş müzakirə etdik.

Əlbəttə ki, biz bu gün Cənubi Qafqazda münaqişədən sonrakı vəziyyəti də müzakirə etdik. Mən bir daha Azərbaycanın mövqeyini ifadə etdim ki, biz Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsi kimi görmək istəyirik. Düşünürəm ki, İkinci Qarabağ müharibəsindən sonra bu əməkdaşlıq formatını yaratmaq üçün imkan var. Biz, həmçinin gürcüstanlı həmkarlarımız ilə bu barədə fikir mübadiləsi apardıq və onlar da bu seçimi çox müsbət qiymətləndirdilər. Lakin təəssüf ki, Ermənistan indiyə qədər Cənubi Qafqazda üçtərəfli qarşılıqlı fəaliyyət formatının ilkin olaraq başlanmasına həvəs göstərmir. Düşünürəm ki, imkanlar əldən verilməli deyil. Çünki indi Cənubi Qafqaz üçün sülhə, təhlükəsizliyə və sabitliyə sadiqlik nümayiş etdirməyin vaxtıdır. Postmünaqişə vəziyyətinə gəldikdə, bizdə müəyyən nikbinlik var. O fakta əsaslanaraq ki, Ermənistan rəsmi olaraq sülh müqaviləsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülən beş əsas prinsipi qəbul etmişdir. Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsi qurtaran kimi Azərbaycan açıq şəkildə sülh müqaviləsinin bağlanmasını və sərhədlərin delimitasiyasına dair birgə komissiyanın yaradılmasını dəstəkləməyə başlamışdır. Bu, Ermənistan tərəfindən müsbət qarşılanmamışdır. Sonra biz mövqeyimizi, bu yaxşı məlum olan beş prinsipi dəqiqləşdirdik, hansı ki bunlar beynəlxalq hüququn əsas prinsipləridir, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və yaxşı beynəlxalq təcrübə və davranışlara uyğundur. Ümid edirik ki, Ermənistan həmin prinsipləri qəbul etdiyini ehtiva edən ilkin mövqeyinə sadiq qalacaq və bu, sülh sazişi üçün əsas olacaq.

Eyni zamanda, biz Ermənistanı sərhədlərin delimitasiyasına başlamağa dəvət etdik. Çünki təxminən 30 il ərzində Ermənistanla dövlət sərhədimiz, o cümlədən Azərbaycanın 20 faiz ərazisini təşkil edən digər rayonları işğal altında olub. Buna görə sərhədlərin delimitasiyası zərurəti aydındır. Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə aprelin 6-da Brüsseldə keçirilmiş görüş zamanı razılaşdırılmışdır ki, aprelin sonuna qədər hər iki tərəf işçi qrup yaradacaq və onlar artıq öz fəaliyyətinə başlayacaqlar.

Azərbaycan işçi qrupunu vaxtında yaratmışdır və nümayəndə heyətini ezam etməyə hazır idi. Bu, erməni tərəfi ilə razılaşdırılmışdır. Yeri gəlmişkən, sərhədlə bağlı ilk görüşün keçirilməsini təklif edən Ermənistanın Xarici İşlər Nazirliyi olmuşdur. Azərbaycan həmin təklifi qəbul etmişdir və biz nümayəndə heyətini göndərməyə hazır idik. Lakin sonuncu gün - aprelin 29-da Ermənistan artıq razılaşdırılmış görüşü ləğv etdi. Bu, çox məyusedici məsələdir. Daha məyusedici isə, yenə də Ermənistanın ilkin təklifindən irəli gələrək 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsi təklifimizdən də Ermənistanın imtina etməsi oldu. Beləliklə, indiyədək biz Ermənistandan hər hansı yeni tarixləri gözləyirik ki, işə başlayaq. Çünki bu cür məsuliyyətsiz mövqe, əlbəttə ki, narahatlıq doğurur.

Azərbaycan hər zaman öhdəliklərə sadiq olub. Aprelin sonuna qədər görüşə hazır olduğumuzla bağlı Avropa İttifaqı Şurasının prezidentinin iştirakı ilə söz vermişdiksə, biz buna sadiq idik. Lakin biz eyni məsuliyyəti Ermənistan tərəfindən də görməliyik. Başqa sözlə, bizdə müəyyən nikbinlik olsa belə, Ermənistan hökumətinin bu cür manevrləri və çox qəribə addımları, əslində, yaranan müəyyən etimadı pozur.

İkinci Qarabağ müharibəsinə gəldikdə bildirmək istərdim ki, Azərbaycan BMT Nizamnaməsinin bizə verdiyi hüquqdan, özünü müdafiə hüququndan tam yararlandı. Biz təxminən 30 il danışıqlara sadiq qaldıq, lakin onlar sıfır nəticə verdi. Uzun müddət ərzində mən şəxsən hər zaman Ermənistana qarşı beynəlxalq ictimaiyyət tərəfindən sanksiyaların tətbiq edilməsinə çağırırdım. Əgər sanksiyalar, özü də, ciddi sanksiyalar tətbiq edilsəydi, onda, ola bilsin, heç müharibə olmazdı. Lakin əfsuslar olsun ki, Ermənistan çox xüsusi münasibətdən yararlandı və beynəlxalq hüququ kobud şəkildə pozduğuna, digər ölkənin ərazisini işğal etdiyinə baxmayaraq, Ermənistana heç bir sanksiya tətbiq edilmədi.

Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla özü bərpa etməli oldu. BMT-nin Təhlükəsizlik Şurasının Ermənistanın qoşunlarının dərhal çıxarılmasını tələb edən qətnamələrini özü icra etməli oldu. Nəhayət, döyüş meydanında və danışıqlar masasında Azərbaycanın ərazi bütövlüyü bərpa olunmuşdur.

İndi isə biz ərazilərin yenidən qurulması və canlandırılması məsələsi ilə üzüzəyik. Çünki hər şey dağıdılmışdır və yerləyeksan edilmişdir. Beynəlxalq ekspertlər azad edilmiş şəhərlərdən biri olan Ağdamı "Qafqazın Hirosiması" adlandırırlar. Lakin Hirosimada olduğu kimi, burada dağıntılar atom bombasına görə olmamışdır, işğal zamanı barbar və vandallar tərəfindən həyata keçirilmişdir. İndi isə yenidən demək istəyirəm ki, biz sülhə sadiqik və ona mümkün ən tez bir zamanda nail olmaq istəyirik.

Bu gün biz cənab Prezident ilə Avropa İttifaqı-Azərbaycan əməkdaşlığını geniş şəkildə müzakirə etdik, hansı ki çox uğurla inkişaf edir. Həmçinin yeni saziş üzrə danışıqların yekunlaşdırılması perspektivlərini, enerji, nəqliyyat təhlükəsizliyi məsələlərini, ticarət münasibətlərini müzakirə etdik. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Avropaya təbii qazın ixracına başlamağımızı və neft-qaz qiymətlərinin artmaqda olduğu faktını nəzərə alaraq, bu il bizim Avropa İttifaqı ilə ticarət dövriyyəsinin həcmi, əlbəttə ki, artmaqdadır. Biz Litvaya Azərbaycan-Avropa İttifaqı yaxınlaşmasını dəstəklədiyinə görə minnətdarıq. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan artıq strateji tərəfdaşlıq haqqında bəyanatlar imzalayıb. Bu, üzv dövlətlərin üçdə biridir. Bu, onu göstərir ki, Avropa İttifaqı da bizim kimi əməkdaşlıqda maraqlıdır. Bir daha, cənab Prezident, bizimlə olduğunuz üçün təşəkkür edirəm. Mən bizim dialoqun davamını və yaxşı nəticələri gözləyirəm. Əminəm ki, belə də olacaq. Bir daha xoş gəlmisiniz.

### Prezident Gitanas Nausedanın bəyanatı

- Salam, zati-aliləri Prezident Əliyev. Nümayəndə heyətimlə birgə Azərbaycana səfərə gəlmək çox xoşdur. Bizi öz gözəl ölkənizdə qəbul etdiyinizə görə təşəkkür edirəm. Mən artıq Bakının necə də gözəl və bənzərsiz olduğuna fikir verdim və bu səfər zamanı onunla daha da yaxından tanış olacağıma ümid edirəm.

Azərbaycan Qafqaz regionunda Litvanın çox önəmli tərəfdaşıdır. İkitərəfli münasibətlərin, cənab Prezident, Sizin qeyd etdiyiniz 2007-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq üzrə Birgə Bəyanatın ruhuna uyğun şəkildə daha da inkişaf etdirilməsi bizim marağımızdadır. Mən tam inanıram ki, bizim iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün böyük potensial var. Bu səbəbdən mən özümlə Azərbaycana bir çox biznes nümayəndələrini gətirmişəm. Biz bazar imkanlarını araşdırmaqda və ikitərəfli ticarət həcmlərini artırmaqda maraqlıyıq. Mən, həmçinin Azərbaycan biznes missiyasını bu ilin sonlarında Litvaya səfərə dəvət edirəm.

Biz Avropa və onun təhlükəsizlik arxitekturası üçün önəmli dönəmdəyik. Biz indi danışdığımız zaman Ukrayna öz suverenliyini və ərazi bütövlüyünü müdafiə edir. O, həmçinin qaydalara əsaslanan beynəlxalq nizamı müdafiə edir. İndi bütün mövcud praktiki vasitələrlə Ukraynanı dəstəkləmək vacibdir.

Litva Avropa İttifaqı ilə Azərbaycan arasında daha fəal əməkdaşlığın tərəfdarıdır. Azərbaycan Avropa İttifaqının Şərq Tərəfdaşlığı platforması kontekstində çox önəmli ölkədir və strateji enerji tərəfdaşıdır. Biz Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə irəliləyişi dəstəkləməkdə davam edirik. Ukraynadakı müharibə öz enerji resursları mənbələrini şaxələndirmək üçün Avropaya bir xəbərdarlıq idi. Avropa İttifaqı öz enerji resursları mənbələrinin şaxələndirilməsini və özünün yanacaq məhsullarında Rusiyadan asılılığına son qoymaq istəyir. Avropa İttifaqında enerji ixrac edən alternativ ölkələrlə, o cümlədən təbii qaz sahəsində Azərbaycanla əməkdaşlığın gücləndirilməsinə böyük maraq var. Azərbaycan enerji sektorunda Avropa İttifaqının etibarlı tərəfdaşıdır.

Biz ölkələrimiz arasında Avropa və digər beynəlxalq inkişaf alətləri vasitəsilə əməkdaşlıq potensialını görürük. Biz öz uğurlarımızla və islahatlar sahəsindəki təcrübəmizlə bölüşməkdə maraqlıyıq. Ən yaxşı misallardan biri Avropa İttifaqının Tvinninq proqramıdır. Azərbaycan və Litva bu proqramda etibarlı tərəfdaşlardır və mən bilirəm ki, biz artıq bir çox Tvinninq layihələrini sona çatdırmışıq, bəziləri isə davam etməkdədir.

Mən bilirəm ki, Azərbaycan öz qarşısına ümumi enerji sahəsində bərpaolunan enerji mənbələrinin həcminin artırılması məqsədini qoyub. Litva bərpaolunan enerji sektorunda, xüsusilə günəş enerjisi sahəsində güclü mövqeyə malikdir. Litva şirkətləri yüksək keyfiyyətə və davamlılığa malik günəş enerjisi modulları təqdim edə bilər. Litva Azərbaycana çox sayda fərqli qida məhsulları təqdim edə bilər, hansının ki, əsas ixrac bazarı Avropa İttifaqıdır. O bazar, hansı ki yüksək səviyyəli qida keyfiyyəti tələb edir.

Ölkələrimiz arasında nəqliyyat və logistika sahəsində əməkdaşlıq da böyük potensiala malikdir. Litva yaxşı inkişaf etmiş avtomobil yolu, dəmir yolu, intermodal və dəniz limanları infrastrukturu və xidmətlərinə sahibdir. Biz Avropa bazarına sərfəli logistik çıxış imkanı təklif edə bilərik. Biz Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin potensialını araşdırmaqda maraqlıyıq.

Təhsil sahəsi üzrə nümayəndə heyəti də Azərbaycana gəlib. Litva universitetlərinin rektorları ali təhsil sahəsində əməkdaşlığı gücləndirmək istəyirlər. Əsas məqsəd Azərbaycan universitetləri ilə birgə ikili diplom - təhsil proqramlarının qurulmasıdır. Bu kontekstdə demək istəyirəm ki, həyat yoldaşım Diana Azərbaycan Dövlət İqtisad Universitetində auditoriyanın açılış mərasimindədir. Auditoriya litvalı yazıçı Vincas Kreve-Mickevicisun adını daşıyır. Vincas Kreve görkəmli və müstəsna bir şəxsiyyət idi. Yüz il öncə, 1919-cu ildə o, müstəqil Azərbaycan Respublikasında Litvanın konsulu kimi çalışmışdır. O, Litva sənədləri verməklə minlərlə insanı bolşeviklərin qırmızı terrorundan xilas etmişdir. Cənab Prezident, bizi Bakıda səmimi qarşıladığınıza görə təşəkkür edirəm və Sizi Vilnüsə səfərə dəvət edirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.



## Ali qonağın şərəfinə

**Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausedienenin şərəfinə rəsmi ziyafət verilib.**



# Azərbaycan-Litva münasibətlərində yeni mərhələ

## Biznes forum







**Mayın 18-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Litva biznes forumu keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda biznes forumun açılışında iştirak ediblər.**

Dövlət başçıları biznes forumda çıxış ediblər.

### Prezident İlham Əliyevin çıxışı

- Cənab Prezident.

Əziz qonaqlar, xanımlar və cənablar.

Bu gün Litva Prezidentinin rəsmi səfəri zamanı biz biznes forumda iştirak etməyə və işgüzar dairələrimizə öz məsləhətlərimizi verməyə, bu fürsətdən istifadə edərək çox fəal dialoqa qatılmaq və yaxşı nəticələr əldə etməyə gəldik. Mən bilirəm ki, bu gün bir sıra sənədlər imzalanacaqdır. Mən ümid edirəm ki, bu sənədlər iş qurmaq üçün yeni imkanlar yaradacaqdır.

Ölkələrimiz arasındakı güclü siyasi münasibətləri nəzərə alaraq, uzun illərdir ki, biz artıq strateji tərəfdaşlarıq və Prezidentin hazırkı səfəri fəal siyasi dialoqun olduğunu bir daha nümayiş etdirir. Düşünürəm ki, iqtisadiyyat, ticarət, investisiya və digər sahələrdə fəal qarşılıqlı əlaqədə olmaq üçün əsl vaxtdır.

Əlbəttə ki, biznes forum planlarımız, ölkəmizdəki biznes mühiti, sərmayə də daxil olmaqla imkanlar haqqında bir-birimizi məlumatlandırmaq, həmçinin işgüzar əlaqələr qurmaq üçün yaxşı fürsətdir. Fikrimcə, yaxın zamanlarda bir araya gələcək birgə hökumətlərarası komissiya bizim işgüzar dairələrin səylərini əlaqələndirəcək, eyni zamanda, hər iki ölkədə iş qurmaq üçün çoxlu imkanlar yaradacaqdır. Bu gün nümayəndə heyətlərinin müzakirə edəcəyi məsələlər arasında ticarət, investisiya, kənd təsərrüfatı, informasiya texnologiyalarının inkişaf etdirilməsi, nəqliyyat, enerji, təhsil ilə bağlı məsələlər vardır. Müzakirə etdiyimiz bütün məsələlərə dair bizdə ümumi anlayış vardır. Həmçinin həmin məsələlərə dair praktiki nəticələr əldə etməyə və əməkdaşlığı inkişaf etdirmək üçün başqa nə etməyi müəyyənləşdirməyə ehtiyacımız vardır.

Düşünürəm ki, Azərbaycanda biznes mühiti investorlar üçün əlverişlidir. Biz 10 milyardlarla birbaşa xarici investisiyadan məmnunuq. Xarici şirkətlərin sərmayə portfelinin şaxələndirilməsi də çox vacibdir. İnvestisiya proqramlarımızın ilkin vaxtlarında əsasən neft-qaz sektoruna investisiya qoyulurdusa, indi biz bərpaolunan enerji sahəsində birbaşa xarici investisiyaları görürük. Bu ilin əvvəlində xarici investorlar ilə 470 meqavat gücündə günəş və külək elektrik stansiyaları tikmək üçün iki böyük müqavilə imzalanmışdır ki, bu da əlverişli investisiya mühitinin olmasının göstəricisidir.

Ümumilikdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi bizim əsas prioritetdir. Təbii ki, ənənəvi olaraq enerji sektoru bizim iqtisadiyyatda aparıcı sektor olub və bu, davam edəcəkdir. Xüsusilə biz indi Azərbaycan qazını ilk dəfə 2021-ci ilin yanvarından başlayaraq Avropa İttifaqı da daxil olmaqla müxtəlif məntəqələrə nəql edən "Cənub qaz dəhlizi"nin tikintisini, 3500 kilometr uzunluğunda birləşdirilmiş çoxsaylı boru kəməri sistemini yekunlaşdırmışıq. Əlbəttə ki, bizim iqtisadiyyatın ənənəvi sahəsi olan neft sektorunun inkişaf etdirilməsi yerli məqsədlər və bir çox ölkələrin enerji təhlükəsizliyi üçün vacib rol oynamaqda davam edir. Bununla belə, şaxələndirmə bizim əsas hədəfdir. Çünki biz başa düşürük ki, şaxələndirmə olmadan davamlı iqtisadiyyat yaratmaq üçün bizim planlar yerinə yetirilməyəcəkdir. Biz bu xüsusda yaxşı nəticələr görürük. Sizə deyə bilərəm ki, bu ilin dörd ayının nəticələri ümumi olaraq perspektivlidir. Bizim iqtisadiyyat 7,2 faiz artmışdır. Pandemiyadan sonrakı dövrü düşünsək, bu, çox yaxşı rəqəmdir. Qeyri-neft sektoru ilə bağlı daha yaxşı rəqəmlər vardır, hansı ki burada artım 11,4 faizdir. Bizim çox az xarici borcumuz vardır - ümumi daxili məhsulun yalnız 12,5 faizi həcmində. Hədəf onu ümumi daxili məhsulun 10 faizi həcminə qədər azaltmaqdır.

Bizim ixrac potensialımız artır, həm beynəlxalq bazarlara qaz ixracının artmasına, həm də qeyri-enerji sahəsində islahatlara görə. Bu il ixrac 85 faiz artıb, qeyri-neft ixracı isə 40 faizə yaxın artıb. Mən düşünürəm ki, bu, ölkənin dayanıqlı inkişafını göstərir. Çünki enerji potensialı təbii sərvətlərimizə əsaslanır və Azərbaycan xalqının, dost və qonşularımızın rifahına xidmət edir. Eyni zamanda, qeyri-enerji sahəsində artım da iqtisadiyyatımızda islahat aparmaq üçün hökumətimizin istəyini və bacarığını nümayiş etdirir. Azərbaycandakı müsbət demoqrafik vəziyyəti nəzərə alaraq, biz daim işsizliklə bağlı məsələlərə diqqət yetirməliyik. Biz işsizlik səviyyəsini 5-6 faizə qədər azaltmağa nail olmuşuq. Lakin bunu aşağı səviyyədə saxlamaq üçün biz hər il yeni iş yerləri açmalıyıq. Çünki Azərbaycanın əhalisinin sayı, 30 il əvvəl müstəqilliyimiz əldə olunandan bu günə qədər 7 milyondan 10 milyona qədər artmışdır və indi də artmaqdadır. Bu səbəbdən biz daha çox insan üçün iş yerlərinə sahib olmalıyıq. Xüsusilə də indi - dördüncü sənaye inqilabının nəticəsində bir çox işlərin artıq mövcud olmayacağı dövrdə biz özümüzü yeni iş sahələrinə hazırlamalıyıq. Yeri gəlmişkən, bu məsələ bizim bugünkü müzakirələrin mövzusu olmuşdur. Biz, həmçinin təhsil sahəsində əməkdaşlıqdan da danışdıq, xüsusilə də ölkələrimizin inkişaf ehtiyaclarına yönələn təhsil barəsində.

Biz həmçinin nəqliyyat sektorunda əməkdaşlıq məsələlərini də müzakirə etdik. Mən düşünürəm ki, biznes dairələri üçün və bir-birinə o qədər də yaxın yerləşməyən ölkələrimiz arasında əməkdaşlıq üçün bu dayanıqlı nəqliyyat yollarının olması çox önəmlidir. Biz Azərbaycanda bunun üzərində uzun illər işləmişik və nəqliyyat şəbəkəsinin şaxələndirilmiş zəncirini yaratmışıq. Mən bunu regionun yeni nəqliyyat xəritəsi adlandırardım, Qafqazlarda, həmçinin Xəzər dənizi boyu və Asiyada. Coğrafi yerləşmənin üstünlüklərindən faydalanaraq biz müasir infrastruktur - dəniz limanı, dəmir yolu bağlantıları, bir neçə beynəlxalq hava limanları, avtomobil yolları yaratdıq. Biz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzərində yerləşirik. Həmçinin sizə deyə bilərəm ki, Azərbaycan şimaldan qərbə gedən yükləri də ötürür. Biz infrastruktura yatırımlar etdik. Lakin aydındır ki, qonşu ölkələrlə yaxşı işçi münasibətlər olmadan heç bir ölkə, xüsusilə də Azərbaycan kimi açıq dənizə çıxışı olmayan ölkə tranzit ölkəyə çevrilə bilməz. Açıq dənizə çıxışı olmayan ölkə olmasına baxmayaraq, biz Azərbaycanı önəmli nəqliyyat mərkəzinə çevirdik. Azərbaycanın rolu mütləq şəkildə artacaq. Çünki bu yaxınlarda nəqliyyat infrastrukturumuzun necə istifadə edilməsi ilə bağlı qonşularımızdan çox sayda yeni təkliflər almışıq. Əlbəttə, əvvəlcə dediyim kimi, bu, Litva və Azərbaycandan olan biznes dairələrinin əməkdaşlığı və kommunikasiyanın ən yaxşı yollarının tapılması üçün çox önəmli olacaqdır.








Azərbaycanda ümumi iqtisadi artımdan danışarkən, biz enerji təhlükəsizliyi məsələsinə toxunmalıyıq. Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini 100 faiz təmin edir və bir çox digər ölkələrin, o cümlədən Avropa İttifaqının üzvlərinin də enerji təhlükəsizliyini təmin edir. Biz neft, qaz, elektrik enerjisi, neft-kimya məhsulları ixrac edirik. Bizim planlarımıza qazın, elektrik enerjisinin və neft-kimya məhsullarının ixracını böyük həcmdə artırmaq daxildir. Neft ixracına gəldikdə, ixracın bugünkü profili bizi və istehlakçıları qane edir. Eyni zamanda, bugünkü geosiyasi vəziyyəti nəzərə alsaq, aydın olur ki, Azərbaycanın enerji resurslarına ehtiyac heç vaxt olmadığı qədər böyük olacaq. Bu il biz artıq Azərbaycanla Avropa İttifaqı arasında enerji dialoquna başlamışıq. O, bir çox sahələri - neft, qaz, elektrik enerjisi, hidrogen və bərpaolunan enerji mənbələrini əhatə edir.

Bizim aramızda tam anlaşma var və biz böyük həvəslə çalışırıq, çünki bu halda hər bir tərəf udur. Azərbaycana etibarlı və uzunmüddətli bazarlar, ədalətli nizamlama və qanunvericilik olan bazarlar lazımdır. Bu isə Avropa bazarıdır. Avropa istehlakçılarına isə əlavə enerji resursları mənbələri lazımdır. Bu baxımdan, əlbəttə ki, Azərbaycan Avropa İttifaqı tərəfindən töhfə verən tərəf kimi qəbul edilir. Bərpaolunan enerjinin 2030-cu ilə qədər ümumi balansımızda ən azı 30 faiz olması planlarımızı nəzərə alaraq hesab edirəm ki, həmin planlara dəyişiklik edilə bilər. Fikrimcə, biz hətta enerji balansımızda 30 və ya 40 faiz bərpaolunan enerjini nəzərdə tuta bilərik. Onda, əlbəttə ki, Avropa istehlakçıları üçün bərpaolunan enerji mənbələri hesabına istehsal edilmiş enerji daha çox cəlbedici ola bilər. Biz bunun üzərində işləyirik. Bu baxımdan, biz düzgün yoldayıq.

İqtisadi davamlılığa gəldikdə isə Azərbaycan artıq xarici yardımı və ya beynəlxalq kreditləri alan ölkə deyil. Bəli, biz kreditləri götürürük, lakin onları yalnız yüksək texnoloji layihələrə cəlb edirik. Eyni zamanda, biz donora çevrilmişik. Biz özümüz kredit ayırırıq. Ehtiyatlarımız isə xarici borcumuzu bir neçə ay ərzində sıfıra endirə bilər. Bu, yaxşı iqtisadi vəziyyətdən xəbər verir və gələcək islahatlarımızı lazımınca planlaşdırmağa imkan yaradır.

Avropa İttifaqı ilə aparılan əməkdaşlığımız haqqında bir neçə söz deyim. Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır və bu, belə də davam edəcək. Biz yeni sazişlə bağlı Avropa İttifaqı ilə aparılan danışıqların son mərhələsindəyik. Əlbəttə ki, Avropa İttifaqının üzvləri, xüsusən də Litva ilə əməkdaşlıq bizim üçün strateji əhəmiyyət kəsb edir. Şadam ki, bu əməkdaşlıq çox uğurla inkişaf edir.

İkitərəfli ticari və iqtisadi gündəliyimizə gəldikdə, fikrimcə, çox yaxşı haldır ki, iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır. İqtisadiyyatlar Avrasiyanın fərqli hissələrində yerləşir. Beləliklə, biz birgə səylərimiz və layihələrimizlə, daha çox məlumat verməklə bir növ iş birliyi qura bilərik. Hesab edirəm ki, bu gün keçirilən biznes forumun üstünlüklərindən biri imkanların, biznes mühitinin, qaydaların, vergilərin, sərmayə imkanlarının və digər məsələlərin nümayiş etdirilməsindən ibarətdir. Əminəm ki, hər iki ölkənin biznes nümayəndə heyətləri bu fürsəti əldən verməyəcəklər.

Bir daha bütün qonaqlarımızı salamlayıram və biznes foruma uğurlar arzulayıram. Sağ olun.

### Prezident Gitanas Nausedanın çıxışı

- Zati-aliləri, Prezident Əliyev.

Xanımlar və cənablar.

Bu gün burada sizin qarşınızda çıxış etməkdən şərəf hissi duyuram. Böyük məmnuniyyətlə Prezident İlham Əliyevlə Azərbaycan-Litva biznes forumunun açılışında iştirak edirəm. Bu gün əvvəlcə hər iki ölkə üçün vacib olan müxtəlif mövzular ətrafında Prezidentlə apardığım səmimi söhbətdən çox razıyam. Azərbaycanın işgüzar və siyasi dairələrini səmimi-qəlbdən salamlayıram.

Biz çox müstəsna məkanda görüşürük. Ümid edirəm ki, bu təkrarolunmaz və memarlıq baxımından xüsusi mədəniyyət mərkəzi iki dövlətin - Azərbaycanın və Litvanın işgüzar dairələrini hamının rifahı naminə bir-birinə daha yaxın edəcək. Sələfimin - Litva Prezidentinin Azərbaycana son səfərindən on il keçir. Mənim məqsədim iki ölkənin iqtisadi, mədəni, siyasi və sosial əlaqələrini yenidən canlandırmaqdan, onları daha sıx və uzunmüddətli etməkdən ibarətdir.

Mən ölkələrimiz arasında biznes əlaqələrini daha da möhkəmləndirmək üçün Azərbaycanın işgüzar dairələrini bu ilin ikinci yarısında Litvaya səfərə dəvət edirəm. İqtisadi əməkdaşlıq üçün istifadə olunmamış geniş imkanlarımız var. Görürəm ki, Azərbaycanın qlobal iqtisadiyyatda oynadığı rolu daha da artacaq və əslində, ölkə artıq çoxsaylı nailiyyətlərə imza atıb. Ukraynadakı müharibə qlobal ticarəti yenidən nizamlayır. Asiya ilə Avropanın kəsişdiyi məkanda yerləşən Azərbaycan qlobal ticarətdə ən mühüm rollardan birini oynayır və oynayacaqdır. Yaşıl iqtisadiyyat və innovasiyalarla bağlı məqsədlər sizin gələcək iqtisadi perspektivlərinizi və gücünüzü şərtləndirən əsas meyarlardır.

Mənim ölkəmin - Litvanın çoxsaylı təklifləri var. Litvada geniş maliyyə və vergi imtiyazlarına malik yeddi azad iqtisadi zona var. Rəqəmsal infrastrukturumuz sürətlidir və münasib tariflərə əsaslanır. O, Avropa İttifaqında ən yaxşılar sırasındadır. Lazımi şəkildə inkişaf etmiş şose və dəmir yolu xətləri, hava və dəniz nəqliyyatı ölkəmin digər üstünlüklərini təşkil edir.

Sizin xüsusi diqqətinizi Litvanın Klaypeda dəniz limanına cəlb etmək istərdim. Həmin zonada dəniz buz bağlamır və o, Baltik dövlətləri arasında ən böyük limandır. Bütün il ərzində, Litva strateji baxımdan güclü, şaxələndirilmiş istehsal sektorunun qurulmasına diqqət yetirirdi. İndi isə ölkəmiz innovativ və yüksək texnoloji sektorlar üzərində çalışır. Güclü istehsal sabit enerji mənbələrini tələb edir. Son on il ərzində biz artıq böyük elektrik istehsalı işlərini icra etmişik, qaz və maye qaz terminalının tikintisi layihələrini həyata keçirmişik. Həmin terminalın inşası 2014-cü ildə başa çatdırılmışdır. Hazırda enerji sektorumuz günəş və külək enerji parklarından ibarətdir. Biz bu yaxınlarda Baltik dənizində ilk dəfə olaraq külək enerji parkını yaradacağıq.

Litvanın ərzaq və kənd təsərrüfatı sahəsinin gücü müxtəlif çeşidli məhsullarda görünür. Nəticədə biz ərzaq məhsullarımızı 150-dən artıq ölkəyə ixrac edirik. Nəhayət, bütün iqtisadi sahələr ixtisaslı əmək qüvvəsi sayəsində bir-biri ilə bağlıdır. Gənclərin 56 faizi ali təhsilə malikdir və bu göstəriciyə görə Litva Avropa İttifaqında lider mövqeyindədir. İki onillik öncə Avropa İttifaqına qoşulduqdan sonra Litva iqtisadi uğur qazanmışdır. Mənim ölkəmdə adambaşına düşən ümumi daxili məhsulun payı ən sürətlə Avropa İttifaqının orta göstəricisinə yaxınlaşıb və bu reytinqdə biz yalnız İrlandiyadan sonra gəlirik.

Mən Azərbaycanın işgüzar dairələrini Litvanın ekosistemindən Avropa İttifaqı bazarına giriş nöqtə kimi istifadə etməyə çağırıram. Hər iki ölkə üçün biznes əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Litvadan gəlmiş və fərqli sektorları təmsil edən işgüzar kişi və qadınlardan ibarət müxtəlif tərkibli heyətləri bu gün görməkdən çox məmnunam.

Hörmətli Litva və Azərbaycanın işgüzar dairələri, mən sizin hamınıza maraqlı müzakirələr arzulayıram və ümid edirəm, söhbətlər zamanı ölkələrimiz - Litva və Azərbaycan üçün faydalı olacaq nəticələr əldə olunacaq.

Çox sağ olun.

❖ ❖ ❖

Sonra Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimi olub.

"Beynəlxalq yol nəqliyyatı Sazişi"ni Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Litva Respublikasının nəqliyyat və kommunikasiya nazirinin müavini Yulius Skaçkauskas imzaladılar.

"Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Litva Respublikasının Ticarət, Sənaye və Sənətkarlıq Palataları Assosiasiyası arasında Əməkdaşlıq Sazişi"ni Palatanın prezidenti Niyaz Əlizadə və Assosiasiyanın baş direktoru xanım Gedre Rajinskiene imzaladılar.

"Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Litva Respublikasının Ticarət, Sənaye və Sənətkarlıq Palataları Assosiasiyası arasında Əməkdaşlıq Memorandumu"nu KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Assosiasiyanın baş direktoru xanım Gedre Rajinskiene imzaladılar.

"Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO ilə Litva İnnovasiya Agentliyi arasında Əməkdaşlıq Memorandumu"nu AZPROMO-nun rəhbəri Yusif Abdullayev və Agentliyin baş direktoru xanım Agne Vaitkunene imzaladılar.

"Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO ilə Litva Respublikası Sənayeçilər Konfederasiyası arasında Əməkdaşlıq Memorandumu"nu AZPROMO-nun rəhbəri Yusif Abdullayev və Konfederasiyanın vitse-prezidenti Romas Austinskas imzaladılar.

"Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Litva Respublikası Sənayeçilər Konfederasiyası arasında Əməkdaşlıq Müqaviləsi"ni Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və Litva Respublikası Sənayeçilər Konfederasiyasının vitse-prezidenti Romas Austinskas imzaladılar.

❖ ❖ ❖

**Prezident Gitanas Nauseda:** Bu sənədlər həqiqətən də faydalı olmalıdır. Çünki biz Prezidentlə onların imzalanmasının şahidiyik.

**Prezident İlham Əliyev:** Uğurlar. Təşəkkür edirəm.

❖ ❖ ❖

Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimindən sonra dövlət başçıları Heydər Əliyev Mərkəzində klassik avtomobillərin sərgisi ilə tanış oldular.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov sərgi haqqında məlumat verdi. Klassik avtomobil sərgisində XIX əsrin sonlarından başlayaraq müxtəlif ölkələrdə istehsal olunmuş 60-dək nadir avtomobil nümayiş etdirilir. Ziyarətçilər sərgini izləməklə nəqliyyat vasitələrinin istehsalı tarixi barədə də məlumat əldə edirlər. Eyni zamanda, burada avtomobil sənayesinin ayrı-ayrı inkişaf mərhələləri ilə bağlı da maraqlı məlumatlar təqdim olunur.

Qeyd edək ki, Heydər Əliyev Mərkəzində 2015-ci ildən fəaliyyət göstərən klassik avtomobil sərgisində avtomobillərə aid arxiv materialları əsasında hazırlanan videoçarxlar, aksessuarlar və nəşrlər də nümayiş etdirilir.

❖ ❖ ❖

Biznes forum işini müzakirələrlə davam etdirib.

# Azərbaycan-Litva münasibətlərində yeni mərhələ

## Azərbaycanın və Litvanın birinci xanımlarının görüşü olub



Mayın 18-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Litva Respublikasının birinci xanımı Diana Nausediene ilə görüşü olub.





# Baş nazir Əli Əsədov Litva Prezidenti Gitanas Nauseda ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 18-də Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Litva münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq ifadə edildi.

İki ölkənin prezidentlərinin iştirakı ilə Bakıda keçirilən Azərbaycan-Litva biznes forumunun əhəmiyyəti vurğulandı.

Görüşdə Azərbaycan ilə Litva arasında siyasi, ticari-iqtisadi, sərmayə qoyuluşu, humanitar, turizm və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olundu.



# Şəhidlərin xatirəsinə ehtiram





Azərbaycanda rəsmi səfərdə olan Litva Respublikasının Prezidenti Gitanas Nauseda mayın 18-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Şəhidlər xiyabanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Litva Prezidenti Gitanas Nauseda Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarlarını ziyarət etdi.

Litva Prezidenti "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Litvanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

# İçərişəhərlə tanışlıq Litva Prezidentində xoş təəssürat doğurub





Azərbaycanda rəsmi səfərdə olan Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausediene mayın 18-də İçərişəhərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, əvvəlcə qonaqlara Qız qalası abidəsinin qeyri-adi memarlıq özəllikləri barədə məlumat verilib.

Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir.

Yaxınlıqdakı Sıratağlı dini-memarlıq kompleksinin ərazisindəki ekspozisiya ilə tanışlıq da onlarda böyük maraq doğurub.

Kiçik Qala küçəsi ilə gəzinti zamanı qonaqlar isti təndir çörəyinə qonaq ediliblər.

Daha sonra qonaqlar orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi ilə tanış olublar. Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin "Dastan" brendi qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.

Gəzinti zamanı qonaqlar "Brilyant əl" bədii filminin məşhur epizodlarından birinin çəkildiyi küçə ilə də tanış olublar.

Ali qonağa xatirə hədiyyələri təqdim edilib.

# Azərbaycan Dövlət İqtisad Universitetində Litva şairi və dramaturqunun adına auditoriya açılıb

Mayın 18-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Litva şairi, yazıçı və dramaturqu Vincas Kreve-Mickevicisun adına auditoriya açılıb.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Litva Respublikasının birinci xanımı Diana Nausediene iştirak edib.

Qonağa UNEC-in Ekstern Mərkəzi, "Bloomberg" Maliyyə Laboratoriyası haqqında məlumat verilib.

Diana Nausediene universitetdə şəhidlərin memorial-xatirə kompleksini ziyarət edib. Auditoriyanın açılış mərasimində UNEC-in rektoru, professor Ədalət Muradov, Litvanın birinci xanımı Diana Nausediene və mədəniyyət naziri Anar Kərimov çıxış ediblər. Bildirilib ki, Litva ədəbiyyatının ən məşhur klassik yazıçılarından biri, eyni zamanda, görkəmli ədəbiyyatşünas alim, ictimai-siyasi və mədəni xadim Vincas Krevenin həyat və yaradıcılığının on bir ilə yaxın dövrü Azərbaycanla sıx bağlı olub. O, Azərbaycan-Litva dövlətlərarası münasibətlərinin formalaşmasında mühüm rol oynayıb.





# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda "Litva karaimləri" adlı sərginin açılışı olub

Mayın 18-də Bakıda, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda "Litva karaimləri" adlı sərginin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Litva Respublikasının birinci xanımı Diana Nausediene sərginin açılışında iştirak edib.

Fondun prezidenti Günay Əfəndiyeva qonağa rəhbəri olduğu qurumun fəaliyyəti barədə məlumat verib. Fond ilə Litva arasında geniş mədəni əməkdaşlığın mövcudluğundan bəhs edən G.Əfəndiyeva 2022-ci ilin bu ölkədə "Litva Karaimləri ili" elan olunmasını türk xalqlarına verilən dəyərin nümunəsi kimi qiymətləndirib. O, Litvada yaşayan tatar və karaimlərin türk dünyasının ayrılmaz parçası olduqlarını vurğulayıb.







Litvanın birinci xanımı Diana Nausediene fondun türk dünyası mədəniyyətinin, tarixinin araşdırılması və təbliği istiqamətində fəaliyyətini yüksək qiymətləndirib. Qonaq tatar və karaimlərin mədəni irsinin mühafizəsinin ölkəsi üçün xüsusi önəm daşıdığını diqqətə çatdırıb. Diana Nausediene tatar və karaimlərin uzun illər Litvada yaşamasına baxmayaraq, öz din, dil və adət-ənənələrini qoruyub saxlamağı bacardıqlarını qeyd edib.

Sonra sərgi ilə tanışlıq olub.

Qeyd edilib ki, "Litva Karaimləri ili" münasibətilə açılan sərgi Litvada yaşayan türk milli azlıqların - karaimlərin tarixinin, mədəniyyətinin qorunması və təbliği məqsədi daşıyır. Burada nümayiş etdirilən rəsmlərdə Litva karaimlərinin adət-ənənələri, yaşayış tərzi, milli geyim nümunələri əks olunub.

# Baş nazir Əli Əsədov Belarusun Baş naziri Roman Qolovçenko ilə görüşüb







Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 18-də ölkəmizdə səfərdə olan Belarus Respublikasının Baş naziri Roman Qolovçenko ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Belarus arasında yüksəksəviyyəli dialoqun mövcud olduğu bildirildi, müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, ticarət, sənaye, kənd təsərrüfatı, nəqliyyat-tranzit və digər istiqamətlərdə əlaqələrin inkişafından məmnunluq ifadə edildi. Dövlət başçıları səviyyəsində şəxsi münasibətlər Azərbaycan-Belarus əlaqələrinin inkişafında mühüm amil kimi dəyərləndirildi.

Koronavirus pandemiyasının mənfi təsirlərinə baxmayaraq, 2021-ci ildə Azərbaycanla Belarus arasında ticarət dövriyyəsinin artdığı bildirildi. Müvəffəqiyyətlə həyata keçirilən müştərək sənaye layihələrinin əhəmiyyəti vurğulandı. Qeyd edildi ki, kənd təsərrüfatı sahəsində əməkdaşlıq yaxşı dinamikaya malikdir. Bakıda keçirilən 15-ci Yubiley Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin əhəmiyyəti vurğulanaraq Belarusun Baş nazirinin sərgi ilə şəxsən tanış olması yüksək qiymətləndirildi. Görüşdə həmçinin iqtisadi, ticari, sənaye, enerji, kənd təsərrüfatı, sərmayə qoyuluşu, turizm və digər sahələrdə ikitərəfli əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olundu. Görüşün sonunda Baş nazirlərin iştirakı ilə Azərbaycan-Belarus sənədləri imzalandı.

# Bakıda 15-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgisi keçirilir









Mayın 18-də Bakı Ekspo Mərkəzində 15-ci Yubiley Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı (Caspian Agro-2022) və 27-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi (InterFood Azerbaijan) sərgiləri işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, kənd təsərrüfatı naziri İnam Kərimov, Türkiyənin kənd təsərrüfatı və meşə naziri Vahid Kirişçi, İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forer, Gürcüstanın ətraf mühit və kənd təsərrüfatı nazirinin müavini George Xanişvili və digər ölkələrin rəsmi şəxsləri "Caspian Agro-2022" və "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar.

Baş nazirə məlumat verilib ki, "Caspian Agro" Azərbaycanda kənd təsərrüfatı sahəsində ən böyük beynəlxalq sərgidir. Rekord sayda milli və regional stendlərin nümayiş olunduğu builki sərgilərdə 101-i yerli, 348-i xarici şirkət olmaqla ümumilikdə 24 ölkədən 449 şirkət iştirak edir. Sərgi Azərbaycan Respublikasının aqrar-sənaye kompleksində mütərəqqi texnologiyaların tətbiqi, kənd təsərrüfatı sahəsinin yerli və xarici mütəxəssisləri arasında təcrübə mübadiləsi, qarşılıqlı faydalı işgüzar əlaqələrin gücləndirilməsi üçün bazarda praktiki vasitə kimi özünü doğruldub. Sərgi kənd təsərrüfatı sektorunun ən əsas iştirakçılarını, yerli və xarici mütəxəssisləri, aralarında idxalçılar, ixracatçılar, distribütorlar, topdan və pərakəndə satış təmsilçiləri, eləcə də fermerlərin yer aldığı minlərlə peşəkar ziyarətçini bir araya gətirib.

Bu il "Caspian Agro" sərgisi "Ağıllı kənd", süni intellekt, İT xidmətləri, pilotsuz uçuş aparatları (dronlar) kimi bölmələri əhatə edən "Smart Agro" istiqamətini təqdim edir. Sərgi çərçivəsində "Smart Agro: Kənd təsərrüfatında innovasiyaların təbliği" mövzusunda konfrans keçirilib. Sərgidə "Smart Agro" çərçivəsində artıq icrasına başlanan və eləcə də işğaldan azad edilmiş Qarabağda həyata keçirilməsi planlaşdırılan layihələr təqdim olunub.

Qeyd edək ki, hər il təşkilatçılar regionlardan gələn fermerlər üçün sərgi üzrə turlar təşkil edirlər. Bu tədbir çərçivəsində fermerlər ən son sənaye yenilikləri ilə tanış ola bilirlər. Bu il 40-a yaxın rayondan fermerlər üçün turlar təşkil olunub.

15-ci Yubiley Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro-2022" və 27-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan-2022" sərgilərində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri öz məhsul və xidmətlərini təqdim edirlər.

"Caspian Agro-2022" və "InterFood Azerbaijan-2022" sərgiləri Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aktiv dəstəyi və iştirakı ilə keçirilir. Sərgilər Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası tərəfindən dəstəklənir.

Sərgilər mayın 20-də başa çatacaq.

# Baş nazir Əli Əsədov Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və Beynəlxalq Qida Sənayesi sərgiləri ilə tanış olub





Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 18-də Bakı Ekspo Mərkəzində 15-ci Yubiley Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və 27-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgiləri ilə tanış olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kənd təsərrüfatı naziri İnam Kərimov sərgilərlə bağlı məlumat verdi. Bildirildi ki, belə bir beynəlxalq tədbirin keçirilməsinin başlıca məqsədi Azərbaycanda istehsal olunan kənd təsərrüfatı və qida sənayesi məhsullarının təşviqi, həmçinin bu sahələrin daha da inkişafı üçün xarici şirkət və sərmayədarların diqqətinin cəlb edilməsidir. Məlumat verildi ki, sərgilərdə dünyanın 24 ölkəsini təmsil edən 449 şirkət iştirak edir.

Burada, eyni zamanda, artıq icrasına başlanılan və eləcə də işğaldan azad edilmiş Qarabağ ərazilərində həyata keçirilməsi planlaşdırılan layihələr təqdim olunur.

Baş nazir Ə.Əsədov Azərbaycan Respublikası Kənd Təsərrüfati Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafi Agentliyinin, həmçinin müxtəlif ölkələrin pavilyonları ilə tanış oldu.

Tanışlıq zamanı Baş nazir Ə.Əsədov Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahit Kırışçı, həmçinin İsrail Dövlətinin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forer ilə söhbət etdi.

# Azərbaycanın xarici işlər naziri bir sıra görüşlər keçirib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov mayın 18-də İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, nazir Ceyhun Bayramov Azərbaycanla ICESCO arasında yüksəksəviyyəli əməkdaşlıq münasibətlərinin mövcud olduğunu qeyd edib. Baş direktorun ötən il ölkəmizə səfəri çərçivəsində keçirilmiş görüşə istinad edən nazir ICESCO-nun nümayəndələrinin ölkəmizin azad olunmuş ərazilərinə səfər edən ilk beynəlxalq təşkilatlar sırasında olduğunu məmnunluqla vurğulayıb. Nazir Azərbaycan hökuməti tərəfindən ölkə ərazisindəki tarixi, mədəni, dini abidələrin qorunmasına hər zaman yüksək diqqətin ayrıldığını qeyd edib, həmsöhbətinin diqqətini xüsusilə işğaldan azad olunmuş ərazilərdə Azərbaycan xalqının tarixi-mədəni irsinin məqsədli şəkildə dağıdılması faktına yönəldib. O, hazırda azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərindən, o cümlədən tarixi, dini və mədəni abidələrin ilkin inventarlaşdırılması və mühafizəsi tədbirlərindən danışıb. Ceyhun Bayramov həmçinin İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini hər zaman dəstəklədiyini bildirib.

Baş direktor Salim bin Məhəmməd əl-Maliki Azərbaycanın ICESCO-nun fəaliyyətini hər zaman dəstəklədiyini vurğulayıb və ölkənin təşkilatın işinə verdiyi töhfəni təqdir edib. Hazırkı səfəri çərçivəsində Şuşa şəhərində keçiriləcək konfransda iştirak edəcəyini deyən Baş direktor həmçinin yaxın günlərdə ICESCO-nun xüsusi missiyasının Azərbaycanın azad olunmuş ərazilərinə səfər edəcəyini söyləyib. ICESCO Baş direktoru bu səfər çərçivəsində Azərbaycanda təşkilatın regional ofisinin açılışı ilə bağlı müvafiq sənədin imzalanacağını məmnunluqla qeyd edib.

Görüşdə tərəflər ICESCO-Azərbaycan əməkdaşlığının perspektivləri, o cümlədən gənclərin iştirakı ilə sülh gündəliyini təşviq edən müxtəlif proqramların həyata keçirilməsi, təhsil sahəsində əməkdaşlıq, habelə tarixi-mədəni abidələrin qeydiyyatının aparılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov mayın 18-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Sultan Raev ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov Sultan Raevi TÜRKSOY-un Baş katibi seçilməsi münasibətilə təbrik edib. O, Azərbaycanın Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı ilə əməkdaşlığa verdiyi yüksək önəmi vurğulayıb. Nazir Şuşada keçiriləcək konfransda iştirakı çərçivəsində Baş katibin azad edilmiş ərazilərdəki vəziyyət, o cümlədən orada aparılan genişmiqyaslı quruculuq işləri ilə yaxından tanış olmaq imkanının olacağını bildirib.

Baş katib Sultan Raev namizədliyinə verdiyi dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə edib. Təşkilatın rəhbəri qismində fəaliyyətin yüksək məsuliyyət tələb etdiyini söyləyən Baş katib türk dünyasının mədəniyyətinə xidmət edəcəyini vurğulayıb. TÜRKSOY Daimi Şurasının Bursa şəhərində keçirilən iclasında Şuşanın 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan olunduğunu xatırladan Sultan Raev bu xüsusda qarşıdan gələn il ərzində zəngin proqramların təşkil ediləcəyini söyləyib.

Görüşdə tərəflər, həmçinin gələn il TÜRKSOY-un 30 illiyinin qeyd edilməsi, Azərbaycanın təşkilatla fəal əməkdaşlığı, türk xalqlarının ortaq mədəniyyətinin təşviqi istiqamətində işlərin görülməsi və digər qarşılıqlı maraq doğuran mövzular üzrə fikir mübadiləsi aparıblar.

*AZƏRTAC*

# Azərbaycan və Litva prokurorluqları arasında səmərəli əməkdaşlıq münasibətləri davam etdirilir

Mayın 18-də Azərbaycan Respublikası Prokurorluğunun benefisiarı olduğu "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı Tvinninq layihəsinin açılış mərasimi keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Avropa İttifaqının, BMT-nin, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Milli Məclisin və digər dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev bildirib ki, ölkə rəhbərliyinin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Baş Prokurorluğun yeni strukturunda cinayət aktivlərinin aşkarlanması və izlənilməsi sahəsində səmərəliliyin artırılması məqsədilə Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi yaradılıb. Əmlakın bərpası və idarə edilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə həyata keçirilən Tvinninq layihəsi üzrə Litva Respublikasının Xüsusi İstintaq Xidməti tərəfdaş qurum kimi seçilib.

Əmlakların bərpa olunması və idarə edilməsi sahəsində həyata keçirilməsi nəzərdə tutulan Tvinninq layihəsinin birgə fəaliyyət üçün geniş imkanlar açdığını qeyd edən Baş prokuror korrupsiyaya qarşı mübarizə sahəsində həmin layihənin ölkəmizdə uğurla reallaşdığını diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayaraq bu layihəni Azərbaycan ilə Avropa İttifaqı arasında Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində həyata keçirilən daha bir müvəffəqiyyətli addım kimi dəyərləndirib.

Litva Respublikasının Baş prokuroru Nida Qrunskiene bildirib ki, bu layihə əmlakların bərpası və idarə edilməsinə dair milli qanunvericiliyin təkmilləşdirilməsinə, bu sahədə Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsini öyrənməyə və həmin təcrübəni tətbiq etməyə xidmət edəcəkdir.

Tərəfdaş ölkənin layihə rəhbəri - Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin direktoru Jidrunas Bartkus çıxışında layihənin əsas məqsədinin aktivlərin bərpası və idarə edilməsi sisteminin modernləşdirilməsi yolu ilə cinayət təqibinin keyfiyyətinin artırılması, qanunvericilik və institusional bazanın beynəlxalq standartlara uyğunlaşdırılması olduğunu bildirib.

Benefisiar ölkənin layihə rəhbəri - Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev qeyd edib ki, Tvinninq layihəsinin dörd əsas istiqaməti üzrə tədbirləri effektiv həyata keçirmək üçün prokurorluq əməkdaşlarının tələb olunan bilik və bacarıqlarının artırılması nəzərdə tutulur.

Layihənin əhəmiyyətini vurğulayan "Konstitusiya" Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyev Azərbaycan Prokurorluğunun həmin sahə üzrə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində fəaliyyətinin cinayətkarlığa qarşı mübarizədə mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tədbirdən sonra jurnalistlərin sualları cavablandırılıb.






# Şuşada İƏT zirvəsi

**İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak edən Türkiyə, Pakistan, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan parlament nümayəndə heyətləri mayın 18-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər ediblər.**










Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisin Sədri Sahibə Qafarova və digər rəsmi şəxslər müşayiət ediblər. Şuşaya səfər çərçivəsində qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Onlara Prezident İlham Əliyevin sərəncamı ilə qısa müddətdə tikilərək istifadəyə verilmiş bu hava limanının texniki imkanları barədə məlumat verilib. Bildirilib ki, Qarabağın "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub və hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var.

Parlament nümayəndələri Füzuli Beynəlxalq Hava Limanının və tikilməkdə olan Laçın hava limanının maketləri ilə də tanış olublar.

Sonra qonaqlar Füzulidən Şuşaya yola düşüblər. Şuşada parlament nümayəndələrini Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qarşılayaraq onlara Şuşanın Qala divarları, şəhərin tarixi, işğal dövründəki vəziyyəti və bu gün Şuşada aparılan quruculuq işləri barədə danışıb. Parlament nümayəndələrinin diqqətinə çatdırılıb ki, şəhərdəki tarixi abidələr və məscidlər Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında bərpa olunur. Qonaqlara şəhərdə bərpa olunmuş tarixi abidələr, tikiləcək yeni yaşayış binaları barədə də məlumat verilib.

Səfər zamanı qonaqlar Şuşanın Qala divarlarını seyr ediblər, Şəhər Meydanı ətrafında yerləşən Prezidentin Xüsusi Nümayəndəliyinin binasında aparılan bərpa işləri ilə tanış olublar. Onlara Şəhər Meydanı, orada qoyulmuş Azərbaycanın görkəmli mədəniyyət xadimləri Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir bəy Hacıbəylinin ermənilər tərəfindən güllələnmiş heykəlləri barədə məlumat verilib. Heykəllərin önündə məşhur fotojurnalist Rza Deqati qonaqlara Şuşada, həmçinin Vətən müharibəsi dövründə çəkdiyi fotoları nümayiş etdirib. O, Azərbaycan əsgərlərinin rəşadəti, azərbaycanlıların sülhsevərliyi barədə fikirlərini bölüşüb. Burada qonaqlar onları müşayiət edən media nümayəndələrinə Şuşaya səfərləri barədə təəssüratları və Azərbaycanın böyük zəfəri haqqında danışıblar. Şuşa şəhərində gəzinti zamanı qonaqlara ermənilərin mədəniyyət abidələrimizə vurduqları ziyan, qədim artefaktlarımızı saxtalaşdırmaları barədə də məlumat verilib. Qonaqlar Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri ilə tanış olublar. Bildirilib ki, bu məscidlərdə təmir-bərpa işləri Heydər Əliyev Fondunun dəstəyi ilə aparılır. Diqqətə çatdırılıb ki, bu günlərdə Prezident İlham Əliyev Şuşa şəhərində tikiləcək yeni məscidin təməlini qoyub. Həmin məscidin minarələrinin hündürlüyü 100 metrə çatacaq.

Sonra parlament nümayəndələri Cıdır düzündə olublar. Bildirilib ki, qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxmış, canları və qanları bahasına Şuşanı işğaldan azad etmişlər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirilməsi məkanına çevrilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Gənc Parlamentarilərin Forumunda

**Mayın 18-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Gənc Parlamentarilərin Forumu çərçivəsində gənclərin iştirakçılığının müxtəlif istiqamətlərinə həsr olunmuş diskussiya panelləri keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, hibrid formatda keçirilən diskussiya panellərində Milli Məclisin deputatları Emin Hacıyev (MDB-yə üzv ölkələrin Gənclər Parlamentlərarası Assambleyasının koordinatoru), Nigar Arpadarai və Könül Nurullayeva iştirak ediblər, müzakirə olunan mövzularla bağlı fikirlərini səsləndiriblər.

❖ ❖ ❖

Forumun "Gənclik mühitində millətlərarası (etnoslararası) və konfessiyalararası həmrəyliyin artırılmasında gənclərin beynəlxalq əməkdaşlığının rolu" diskussiya panelində Milli Məclisin deputatı və MDB-yə üzv ölkələrin Gənclər Parlamentlərarası Assambleyasının koordinatoru Emin Hacıyev əyani, deputat Nigar Arpadarai isə onlayn formada qatılıb.

Diskussiya panelində müzakirə olunan millətlərarası və konfessiyalararası sülhün əldə olunmasında gənclərin rolunun əhəmiyyətini vurğulayan deputat Nigar Arpadarai Azərbaycanın bu sahədəki nümunəvi təcrübəsindən söz açıb. Həmçinin Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasəti nəticəsində Azərbaycan və erməni xalqları arasında etimadsızlıq mühitinin yaranmasından təəssüf hissi ilə danışıb. Mövcud vəziyyətə görə məsuliyyətin qonşularına qarşı ərazi iddiaları və işğalçılıq siyasəti yeridən erməni millətçilərinin üzərində olduğunu vurğulayan Nigar Arpadarai Azərbaycanın inteqrasiya mühitinin bərpa edilməsinə hazır olduğunu qeyd edib.

Mövzu ilə bağlı çıxış edən deputat Emin Hacıyev Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında əldə olunmuş razılaşmaların yerinə yetirilməsinin vacibliyini diqqətə çatdırıb. O, regionda dayanıqlı sülhün bərqərar olması və iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi üçün Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyanın keçirilməsinin, nəqliyyat dəhlizinin açılmasının və sülh müqaviləsinin bağlanmasının əhəmiyyətini vurğulayıb.

❖ ❖ ❖

Forumun "Zamanın reallıqlarında milli sağlamlıq: gəncliyin gündəliyi" mövzusunda diskussiya panelinə onlayn formatda qatılan deputat Könül Nurullayeva mövzu ilə bağlı çıxış edib.

Müasir dövrdə gənc nəslin həyatında yeni texnologiyaların böyük yer tutduğunu deyən Könül Nurullayeva Azərbaycan dövlətinin gənclərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsinə böyük əhəmiyyət verdiyini bildirib. Bundan başqa, əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsi, sağlam həyat tərzinin təbliğinin daim Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqətində olduğunu deyən Könül Nurullayeva gənclər arasında bədən tərbiyəsi və idmanın populyarlaşması üçün görülən tədbirlərdən danışıb.

Deputat Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun və onun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) sədri Leyla Əliyevanın Azərbaycanın gənclər hərəkatının inkişafına verdiyi töhfələrə diqqət çəkib, ölkəmizin gənclər siyasətinin əsas istiqamətləri barədə danışıb.

***"Azərbaycan"***



# İlham Əliyevin Qafqazda uğurlu sülh modeli

**Gərginliklərin, toqquşmaların və hətta müharibələrin pik həddə dirəndiyi müasir dünyada getdikcə güclənən və dərinləşən Azərbaycan-Türkiyə münasibətləri sözün həqiqi mənasında bütün dünyaya örnək ola biləcək ən uğurlu nümunələrdən biridir.**

Bu gün faktiki olaraq onun şahidiyik ki, bir çox dövlətlərin münasibətlərində gərginlik maksimum səviyyəyə yüksəlmişdir. Əsrlər boyu çox yaxın, az qala bir dildə danışan, eyni dindən olan ölkələr belə, hazırda anlaşılmaz və məramları qaranlıq görünən qarşıdurmanın məngənəsində boğulurlar. Qlobal beynəlxalq güclər isə ölüm-dirim savaşına atılan dövlətləri barışdırmaq, danışıqlar masasına dəvət etmək əvəzinə qütbləşmənin dərinləşməsində, ziddiyyətlərin qanlı döyüşlərə çevrilməsində maraqlı görünürlər. Faktiki olaraq reallıqlar Üçüncü Dünya müharibəsinin getdikcə daha çox nəzərəçarpan konturlarının aydın görünməsindən xəbər verir.

Belə məqamda bir tərəfdə Qafqazda sülhün bərqərar olması, digər tərəfdən isə Azərbaycan-Türkiyə münasibətlərinin dərinləşməsi, "Bir millət, iki dövlət" ənənələrinə sadiqliyin qorunması daha çox diqqət çəkir. Faktiki olaraq Bakı Qafqazda beynəlxalq münasibətlərin yeni modelini ortaya qoyur. Bakı supergüclərin görüş məkanına çevrilir, beynəlxalq əhəmiyyətli forumlara evsahibliyi edir. Azərbaycan Prezidenti İlham Əliyevin güclü iradəsi ölkəmizdə maraqları toqquşan və münaqişələrin dərinləşməsində maraqlı olan tərəfləri zərərsizləşdirir.

Son əsrlərin acı reallıqlarından biri odur ki, Qafqaz əsrlər boyu dünyanın ən gərgin nöqtələrindən biri kimi qalmaqda davam edir. Azərbaycan isə bu regionda bütün fatehləri və super gücləri sərvətləri ilə cəzb edən nadir ölkədir. Ona görə də sonuncu Qarabağ müharibəsində qlobal erməni lobbisi və onlara dəstək verən super güclər Rusiyanı israrla Qarabağ müharibəsinə cəlb etmək üçün əldən-ayaqdan gedirdilər. Lakin Azərbaycan Prezidenti misli görünməmiş siyasi çeviklik göstərdi. Həm Vətən savaşında sürətli qələbə çaldı, həm də regionda müharibənin körüklənməsinə imkan vermədi. Dövlət başçısının dünyanın aparıcı kütləvi informasiya vasitələrinə verdiyi 30-dan yuxarı müsahibə erməni ideologiyasını darmadağın etdi, düşmən üzərində tam qələbə çalmağa, sülhə və stabilliyə nail olmağa imkan yaratdı. İlham Əliyev Qarabağ müharibəsində iştirak etməyə sürüklənən və can atan tərəflərin nəinki qarşısını məharətlə ala bildi, hətta Qafqazda maraqları toqquşan qüvvələri qarşılıqlı əməkdaşlığa cəlb etdi.

Müharibə qurtarsa da, Azərbaycan Prezidentinin sülh səyləri davam edir. Bu baxımdan İlham Əliyevin Türkiyə Prezidenti ilə birlikdə Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak etməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti bu tədbirdəki çıxışında yeni limanı qardaş ölkənin iqtisadi gücünün artması, sürətli inkişafının təzahürü kimi dəyərləndirdi: "Türkiyə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olub, eyni zamanda ölkə içində də böyük layihələr icra etməyə qadirdir. Bunların arasında xüsusilə insanlara xidmət göstərən layihələri qeyd etmək istərdim. Hava limanları, su anbarları, yollar, körpülər, məktəblər, xəstəxanalar - bütün bunlar Türkiyənin inkişafını, gücünü göstərən amillərdir və bütün bu işlərin mərkəzində insan amili dayanır, dövlət siyasəti dayanır".

İlham Əliyev çıxışında daha vacib məqamlardan birinə toxunaraq qeyd etdi ki, biz hər zaman bir yerdəyik - xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də. İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi: "İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir. Otuzillik işğala son qoyduq və savaşın ilk günündə hörmətli Prezident, qardaşım Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bir çoxları üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər - Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq".

Biz 44 günlük müqəddəs savaşda qardaş Türkiyə ilə birlikdə müharibədə necə sarsılmaz qələbə çalmışdıqsa, elə bir güclə də Qarabağın bərpası işində birlikdə işğaldan azad olunmuş əraziləri bərpa edirik. Prezident İlham Əliyev çıxışında onu da vurğuladı ki, keçən il bizim qədim və tarixi şəhərimizdə - Şuşada Türkiyə ilə Azərbaycan arasında birgə bəyannamənin imzalanması əlaqələrimizi daha yüksək səviyyəyə qaldırdı: "Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik".

Azərbaycan tarixin ən mürəkkəb sınaqlarından uğurla keçir, Prezident İlham Əliyevin səbirli, müdrik və uzaqgörən diplomatiyası ən ağır təhlükələri zamanında sovuşdurmağa imkan verir. İlham Əliyevin böyüklüyü ondadır ki, o, əsrlər boyu maraqların toqquşduğu və müharibələrin səngimədiyi regionda bütün tərəfləri əməkdaşlığa və sülhə cəlb etməyi bacarır. Bu gün Azərbaycan Prezidentinin sayəsində erməni xalqına faşizmin qandallarından birdəfəlik qurtulmaq üçün tarixi şans verilib. Qalır rəsmi İrəvanın bu şansdan istifadə edib haqq-ədalət yoluna dönməyi.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Tehranda Azərbaycanla İran arasındakı iqtisadi əlaqələrin inkişafı perspektivi müzakirə olunub

İranda səfərdə olan Azərbaycanın Baş nazirinin müavini, Azərbaycan-İran iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 18-də İranın yol və şəhərsalma naziri Rüstəm Qasemi ilə görüşüb.




AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla İran arasında nəqliyyat-tranzit, logistika, energetika, sənaye, ticarət, sərmayə və digər məsələlər ətraflı müzakirə olunub. Azərbaycan Hökuməti ilə İran Hökuməti arasında İranın ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun icrası və körpülərin tikintisinin bir il ərzində başa çatdırılması, bu layihənin həyata keçirilməsinin regional inkişafın təmin edilməsində oynayacağı rol əsas müzakirə mövzusu olub. Görüşdə eyni zamanda iki ölkə arasındakı ticarət dövriyyəsinin ötən il 30 faiz, cari ildə isə 20 faiz, avtomobil daşımalarının 70 faiz artdığı nəzərə çatdırılıb və bu inkişafdan məmnunluq ifadə olunub. Bununla yanaşı, Astaraçay üzərində yeni avtomobil və piyada körpüsünün, İranın Astara şəhərində yük terminalının tikintisində aparılan işlərin mövcud icra vəziyyətinə də toxunulub və ilin sonuna kimi bu layihələrin də başa çatdırılması qərara alınıb. Eləcə də Parsabad-İmişli dəmiryolu xəttinin çəkilişi ilə də bağlı fikir mübadiləsi aparılıb.

Tərəflər həmçinin İran şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işlərinə cəlb edilməsi və bu sahədə həyata keçirilən tədbirləri də ətraflı müzakirə ediblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# Baş nazirin müavini Şahin Mustafayev İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşüb

İran İslam Respublikasında səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev mayın 18-də bu ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeri ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan ərazilərinin işğaldan azad olunması münasibətilə təbriklərini çatdıran İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqeri İranın Azərbaycanla əlaqələrinin inkişafında hər zaman maraqlı olduğunu bildirib.

Görüşdə Azərbaycanla İran arasında dostluq münasibətlərinin xeyli inkişaf etdiyi və yeni mərhələyə qədəm qoyduğu vurğulanaraq, müdafiə və hərbi-texniki sahədə əməkdaşlığın əhəmiyyəti qeyd edilib.

Görüşdə, həmçinin iki ölkə arasında ikitərəfli, regional və beynəlxalq səviyyədə də müsbət əməkdaşlıq təcrübəsi üzrə əlaqələrin daha da inkişafı istiqamətində fikir mübadiləsi aparılıb.

# Azərbaycan-Litva biznes-forumu işini müzakirələrlə davam etdirib















Mayın 18-də Bakıda Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-Litva biznes-forumu işini müzakirələrlə davam etdirib.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, hər iki ölkənin rəsmiləri ilə yanaşı, İKT, qida sənayesi, kənd təsərrüfatı, tikinti, təhsil, tibb və digər sahələri təmsil edən iş adamlarının iştirakı ilə keçirilən biznes-forumda Azərbaycan-Litva iqtisadi əməkdaşlığı barədə məlumat verən iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçılarının biznes-forumda iştirakının əlaqələrin inkişafına ən yüksək səviyyədə verilən dəstəyin və önəmin göstəricisi olduğunu vurğulayıb.

Qeyd olunub ki, iki ölkə arasında tərəfdaşlıq qarşılıqlı hörmət və dostluq üzərində qurulub, keçirilən tədbirlər, aparılan müzakirələr əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə stimul verəcək. Bununla yanaşı, "Şərq Tərəfdaşlığı" təşəbbüsü, Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya əlaqələrimizin genişlənməsində, müxtəlif sahələrdə layihələrin həyata keçirilməsində səmərəli platformalardır.

Tədbirdə, həmçinin Azərbaycanın əlverişli biznes və investisiya mühiti, güzəştlərin tətbiq edildiyi sənaye parkları, aqroparklar barədə məlumat verilib. Vurğulanıb ki, ölkəmizin 2030-cu ilədək sosial-iqtisadi inkişaf prioritetləri Litva ilə tərəfdaşlığın inkişafına şərait yaradır. Belə ki, "yaşıl" iqtisadiyyatın genişləndirilməsi və işğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətlərində əməkdaşlıq üçün böyük perspektivlər var. "Aİ Biznes Mühiti Hesabatı 2021" hesabatına əsasən, Azərbaycanda təmsil olunan Avropa İttifaqı ölkələri şirkətlərinin 80 faizinin iqtisadi fəaliyyət üçün yenidən ölkəmizi seçmək, 53 faizinin isə Azərbaycanda biznes fəaliyyətini genişləndirmək niyyətini vurğulayan iqtisadiyyat naziri Litva iş adamlarını ölkəmizdə yaradılmış biznes mühitindən yararlanaraq fəal əməkdaşlığa dəvət edib.

Litvanın iqtisadiyyat və innovasiya nazirinin müavini xanım Jovita Neliupşiene ölkəsinin Azərbaycanla tərəfdaşlığa önəm verdiyini qeyd edib, iqtisadi əlaqələrin inkişafı potensialı barədə fikirlərini bölüşüb. Azərbaycanda "yaşıl" iqtisadiyyata keçid istiqamətində görülən işləri vurğulayan nazir müavini bu sahədə əməkdaşlığın qarşılıqlı fayda verəcəyinə əminliyini ifadə edib. Qeyd olunub ki, enerji, İKT, turizm, nəqliyyat və digər sahələrdə də tərəfdaşlığın genişləndirilməsi üçün böyük imkanlar vardır.

Sonra Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun rəhbəri Yusif Abdullayev və Litva Prezidentinin müşaviri Vaidas Auqustinavicius biznes və investisiya mühiti barədə təqdimatlarla çıxış ediblər.

Biznes-forum iş adamları arasında ikitərəfli görüşlərlə davam edib.

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli və "e-KOB evi" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 9 avqust tarixli 1415 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 aprel tarixli 1644, 1645 nömrəli və 7 may tarixli 1675 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi"nin 7.5-ci bəndindən "dövlət rüsumunun və digər" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 9 avqust tarixli 1415 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 907) ilə təsdiq edilmiş "e-KOB evi" portalı haqqında Əsasnamə"nin 1.9-cu bəndindən "dövlət rüsumunun və qanunla müəyyən edilmiş digər" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2022-ci il*

---

# "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1323 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1323 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 328) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci bəndə "istifadəyə" sözündən sonra ", habelə kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyası daxilində əkin, çoxillik əkmələrin altında olan və dincə qoyulmuş kənd təsərrüfatı yerlərinin (uqodiyaların) bir-biri arasında dəyişdirilməsinə" sözləri əlavə edilsin;

1.2. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. torpaqların kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasına, həmin kateqoriya daxilində kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə aid edilməsi, habelə örüş, otlaq və ya biçənək kənd təsərrüfatı yerlərinin əkin və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı yerlərinə dəyişdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında məsələ qaldırılması.";

1.3. 2.1-ci bənddə "aid edilməsi, habelə həmin kateqoriya daxilində torpaqlarda kənd təsərrüfatı yerlərinin (uqodiyaların)" sözləri "aid edilməsinin, habelə həmin kateqoriya daxilində kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə aid edilməsinin və" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2022-ci il*

---

# Azərbaycan Ordusunun rabitə hissə və bölmələri ilə kompleks məşqlər keçirilir



Mayın 18-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Ordusunun rabitə hissə və bölmələri ilə keçirilən kompleks məşqlərdə iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səhra idarəetmə məntəqələrində məşqlərin təşkili və gedişatı ilə maraqlanan müdafiə nazirinə bölmələrin sərəncamındakı müasir rabitə avadanlıqları təqdim edilib.

Məruzə olunub ki, məşqlərdə vahid rabitə sisteminin təşkili, eləcə də radioelektron mübarizə tədbirləri üzrə tapşırıqlar uğurla icra edilir.

General-polkovnik Z.Həsənov qoşun növlərinin komanda-idarəetmə məntəqələri, həmçinin azad edilmiş ərazilərdə dislokasiya olunan birlik və birləşmələrin qərargahları ilə videokonfrans rejimində əlaqə saxlayaraq məruzələri dinləyib.

Məşqlərin gedişatını müsbət qiymətləndirən nazir rabitə hissə və bölmələrinin fəaliyyətinin təkmilləşdirilməsi, qoşunlar arasında vahid rabitə və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təşkilinin vacibliyini xüsusi qeyd edib.





---

# Prezident Administrasiyasında Müstəqil Xalq Partiyasının sədri ilə görüş keçirilib

Ölkəmizdə siyasi dialoq prosesinin inkişafı və siyasi plüralizm ənənələrinin davam etdirilməsi məqsədilə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev növbəti görüşünü mayın 18-də Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimov ilə keçirib.



Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər ölkəmizdə fəaliyyət göstərən müxtəlif siyasi partiyalara dövlət tərəfindən göstərilən dəstək tədbirləri, sağlam siyasi münasibətlərin qurulması və cəmiyyətdə siyasi partiyaların rolunun aktuallaşdırılması istiqamətində qısa müddət ərzində çox böyük işlərin görülməsi, ölkəmizdə çoxpartiyalı siyasi sistemin inkişafı üçün münbit şəraitin yaradılması, partiyaların dövlət qeydiyyatının maneəsiz aparılması və digər bu kimi mütərəqqi işlər haqqında söhbət aparıblar.

Şöbə müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin çoxşaxəli islahatlarının bütün müstəviləri əhatə etdiyini, siyasi partiyaların fəaliyyətinin dəstəklənməsi ilə bağlı atılan bütün addımların yalnız və yalnız siyasi dialoqun dərinləşməsi, sağlam münasibətlərin bərqərar olmasına yönəldiyini qeyd edib. Ümumilikdə partiyalara və siyasi sistemin digər iştirakçılarına göstərilən dəstək institusional, qanunverici, təşkilati və digər məsələləri əhatə edir. Prezident İlham Əliyevin elan etdiyi yeni siyasi konfiqurasiya ölkəmizin siyasi inkişafına, xalqımızın milli birliyinə böyük töhfə verməkdədir. Ölkədə aparılan iqtidar-müxalifət dialoqu, siyasi həmrəylik, milli dövlətçilik ideyalarının inkişafı Azərbaycanın daha da qüdrətli dövlətə çevrilməsini şərtləndirir.

2020-ci ildə dövlət qeydiyyatına alınmış Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimov ilk növbədə belə bir görüşün keçirilməsini yüksək dəyərləndirib və ölkəmizdə üzvlərinin sayından və siyasi proseslərdə təcrübəsindən asılı olmayaraq hər bir partiyaya bərabər münasibətin göstərilməsindən məmnunluğunu ifadə edib. Əflan İbrahimov sədri olduğu partiyanın Azərbaycan dövlətçiliyi, ölkənin milli maraqları müzakirə mövzusu olan zaman dövlətin və dövlətçiliyin yanında dayandığını bildirib, 30 il işğal altında qalan torpaqlarımızın Prezident İlham Əliyevin qətiyyətli sərkərdəliyi ilə hərbi yolla azad edilməsinin, xalqın mənəvi qürurunun bərpa olunmasının Azərbaycan dövlətçiliyi tarixində yeni mərhələnin başlanmasına səbəb olduğunu vurğulayıb. Bildirib ki, bu uğurlu fəaliyyətin davamlılığı və ölkəmizin dünya miqyasında mövqeyinin daha da möhkəmlənməsi üçün dövlətin milli maraqlarının müdafiəsi hər bir siyasi prosesin fövqündədir, siyasi baxışından asılı olmayaraq, ölkənin hər bir tərəqqipərvər insanı bu işdə dövlətin yanında olmalıdır.

Sonda Müstəqil Xalq Partiyasının gələcək fəaliyyəti, ölkə ərazisində partiyanın yerli təşkilatlarının formalaşdırılması və partiyanın ölkədə baş verən siyasi proseslərdə fəal iştirakı üçün münbit siyasi şəraitin mövcudluğu haqqında fikir mübadiləsi aparılıb və Əflan İbrahimov görüşə görə təşəkkürünü bildirib.

---

# Bakıda "Azərbaycan ailə modelinin inkişaf strategiyası" konfransı təşkil edilib

Mayın 18-də ailə məsələləri ilə bağlı ictimai müzakirələr çərçivəsində "Azərbaycan ailə modelinin inkişaf strategiyası" adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) təşkilatçılığı ilə keçirilən tədbirin əsas məqsədi ailə məsələləri mövzusunda ictimai müzakirələrə geniş yer verilməsi, həmçinin müasir cəmiyyətdə sağlam ailə modelinin, ailə institutunun formalaşmasına yönəlmiş işlək mexanizmlərin yeni formatlarının müəyyən edilməsinə nail olmaqdır.

AQUPDK yanında İctimai Şuranın sədri Sahib Məmmədovun moderatorluğu ilə təşkil olunan konfransda dövlət qurumlarının nümayəndələri, elm və mədəniyyət xadimləri, ziyalılar və Bakı şəhərində yaşayan fəal ailələr iştirak ediblər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova tədbiri giriş sözü ilə açaraq Azərbaycanda ailə günü ilə bağlı bayram və festivalların 2007-ci ildən keçirildiyini bildirib. Ölkəmizdə ailə dəyərlərinin qorunub saxlanılmasının və ailə institutunun təkmilləşdirilməsinin əhəmiyyətini vurğulayan komitə sədri ailə institutunun bu günü və gələcəyi, ailələrin üzləşdiyi çətinliklər, onların rifahı üçün qəbul olunan beynəlxalq sənədlərin, eləcə də milli qanunvericilik aktlarının komitənin üzərinə qoyduğu öhdəliklər barədə danışıb.

Bahar Muradova belə həssas məsələdə dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti institutlarının, deputatların, medianın, ziyalıların rolunu yüksək qiymətləndirib. Komitə sədri qeyd edib ki, ailə bir cəmiyyətdir, onu qanunlarla məhdudlaşdırmaq mümkün deyil. "Qaydaları dəyişmək əvəzinə, cəmiyyət olaraq özümüz dəyişməliyik. Hamımız birgə çalışmalıyıq. Bununla biz diqqətdən kənarda qalan və qayğıya ehtiyacı olan ailələrə kömək edə bilərik", - deyə komitə sədri qeyd edib.

Şəhər və regionlarda yaşayan ailələr arasında mövcud fərqlərə diqqət çəkən B.Muradova şəhərlərdə yaşayan ailələrə mühitə və şərtlərə uyğun olaraq mövcud tendensiyaların təsirindən bəhs edib. O, ailə dəyərlərinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsində diqqətli olmağı tövsiyə edərək bu məsələdə mənfi deyil, müsbət tendensiyaları əsas tutmağın vacibliyini vurğulayıb.

Milli Məclisin İnsan hüquqları komitəsinin və Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc bildirib ki, universal xarakterinə görə beynəlxalq institut kimi ən güclü təməl olan ailə indi qlobal məkanda tədricən milli-mənəvi dəyərlər zəncirinin zəif həlqəsinə çevrilib. Azərbaycanın möhkəm ailə institutunun əsrlər boyu müxtəlif sınaqlara qatlaşmaq, fərqli ideoloji və siyasi quruluşlarda özünü qorumaq qabiliyyətində olduğu qeyd edilib.

"Qalib Azərbaycan dünyada tanınır və təbii olaraq qalib Azərbaycan ailəsi özünə böyük nüfuz qazanıb. Ölkəmizin, Qarabağın tarixi bizim möhkəm ailə dəyərlərinə malik olduğumuzu göstərir. Gənclərin sağlam mühitdə, böyüklərə və ailə dəyərlərinə hörmət ruhunda tərbiyə olunması Azərbaycanda ailə strategiyasının əsasını təşkil edir", - deyə Z.Oruc diqqətə çatdırıb.

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri hazırda ailə dəyərlərinin radikal dəyişikliklər nəticəsində sınaq dövrü keçdiyini bildirib. Eyni zamanda, dövlətimizin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ölkəmizdə milli maraqlarımızı qoruyan sosioloji fenomen olan ailə dəyərlərinin qorunub saxlanması, ailə institutunun təkmilləşdirilməsi istiqamətində gördüyü işlərdən danışıb.

Azərbaycanın yeni tarixi mərhələyə - Qarabağın azad edilməsi ilə başlayan yeni dövrə qədəm qoyduğunu bildirən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri dövlətimizin apardığı uğurlu siyasət nəticəsində həmin ailələrin tezliklə öz doğma yurdlarına qovuşacaqlarını vurğulayıb.

AMEA Qadınlar Şurası sədrinin müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Mahrux Nəcəfli "Mövcud ailə sisteminin elmi-nəzəri əsasları", Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov "Ənənəvi və müasir mediasiya", MEDİA-nın Audiovizual media üzrə eksperti Səbinə Seyidova "Azərbaycan mediasında ailə obrazının işıqlandırılması", BMT-nin Əhali Fondunun Proqram müşaviri Bəhicə Əliyeva "Ailə institutunun formalaşmasında yeni təşəbbüslər və müasir tendensiyalar" mövzularında çıxış edərək ailə dəyərlərinin qorunub saxlanması və ailə institutunun təkmilləşdirilməsi ilə bağlı fikirlərini bildiriblər.

Konfrans müzakirələrlə davam edib.

---

# "Anatolian Phoenix-2022" təliminin ərazisinə baxış olub





**"Anatolian Phoenix-2022" beynəlxalq axtarış-xilasetmə təlimində iştirak edən müxtəlif ölkələrin nümayəndələri uçuş tapşırıqlarının yerinə yetiriləcəyi rayonlara baxış keçiriblər.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi qulluqçulara təlimin keçirilmə qaydaları, təhlükəsizlik və təşkilati məsələlərlə bağlı digər mövzularda təlimat verilib.

Həmçinin ərazi ilə tanışlıq məqsədilə praktiki uçuşlar icra edilib. Uçuş zamanı helikopterlərin qarşılıqlı fəaliyyəti və rabitə əlaqəsi yoxlanılıb.





# Tarix görmək istəyən Gəncəyə gəlsin





**Qədim Gəncə gündən-günə gözəlləşir. Özü də bu gözəllik qədimliklə müasirliyin vəhdətindən yaranmaqla Gəncənin 4000 illik şəhər mədəniyyətinə malik olduğunu önə çıxarır, Azərbaycanda dövlətçilik və mədəniyyət tarixinin qədimliyini və zənginliyini nümayiş etdirir.**

İndi Gəncə həm də regionun müasir sənaye və turizm mərkəzidir. Bir-birinin ardınca həyata keçirilən sosial-iqtisadi layihələr Gəncənin simasını tanınmaz dərəcədə dəyişdirmişdir. Mədəniyyət mərkəzləri, möhtəşəm binalar ərsəyə gəlmiş, tarixi abidələr bərpa olunmuş, yeni parklar salınmış, sənaye obyektləri istifadəyə verilmişdir. Özü də bütün bu işlər şəhərin təsdiq olunmuş Baş planı əsasında həyata keçirilmişdir. Plana əsasən, 2030-cu ilədək şəhərin ərazisi iki dəfə artaraq 17 min hektara çatır. Gəncədə yeni məhəllələr salınacaq, çoxmərtəbəli binalar inşa olunacaq, küçə və prospektlər, müəssisələr, habelə təhsil, səhiyyə, turizm, incəsənət və mədəniyyət ocaqları, eləcə də istirahət zonaları yaradılacaq. Şəhərdə mövcud olan yaşıllıq sahəsi də genişləndirilərək 2251 hektara çatdırılacaq. Ən əsası budur ki, Baş planda milli memarlığın qədim üslubu ilə yanaşı, müasir şəhərsalmanın son nailiyyətləri də özünə yer almışdır.







Bu gün isə həyata keçirilən yenidənqurma və abadlıq işləri əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlərlə paralel aparılır. İnsanların maddi-rifah halının yüksəldilməsi, onların məşğulluğunun təmin edilməsi regional inkişaf məqsədilə dövlət proqramında nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçirilir. O cümlədən müxtəlif səbəblərdən fəaliyyəti dayanmış müəssisələrin işini bərpa etmək üçün güzəştli kreditlər verilir, paralel olaraq yeni sənaye obyektləri işə salınır. Nəticədə şəhərin iqtisadiyyatı yüksəlir, əhalinin gəliri artır.

Məlum məsələdir ki, şəhərə gələn xarici turistləri ən çox maraqlandıran tarixi abidələrdir. Bu səbəbdən belə abidələrə diqqət də artır. İllərlə baxımsız qalmış tariximizin yadigarları sürətlə bərpa olunur. Yeri gəlmişkən qeyd edək ki, Gəncədə tarixin müxtəlif dövrlərini özündə yaşadan 504 tarixi abidə siyahıya alınıb. Onların 288-i dövlət tərəfindən qorunur. Təkcə son 4 ildə 150 maddi mədəniyyət abidəsi bərpa edilib.

Gəncə məscid, mədrəsə, karvansara, hamam və digər abidələrlə olduqca zəngindir. Gəncə Dövlət Tarix Mədəniyyət Qoruğunun ərazisində yerləşən Cəmərdi-Qəssab, həmçinin Cümə məscidinin həyətindəki Cavad xan türbələri Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən həyata vəsiqə almışdır. Bu yerdə Ulu Öndər Heydər Əliyevin söylədiyi: "Azərbaycana təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər" - fikrini xatırlamamaq mümkün deyil.

Bu gün Gəncədə olan hər bir turist onun tarixi və müasirliyi qarşısında heyranlığını gizlədə bilmir. Türkiyənin Atatürk Araşdırmalar Mərkəzinin başqanı Mehmet Ali Beyhan Gəncədə olarkən ürək sözlərini belə ifadə etmişdir: "Gəncə çox gözəl şəhərdir. Burada gördüklərim çox xoşuma gəldi. Gəncədə həm tarix, həm müasirlik bir vəhdət şəklindədir. Biz gözlədiyimizdən də artıq səmimiyyət və mehribanlıqla qarşılandıq. Atatürk prospektində olduq, Xan bağını gəzdik. Həm ən müasir, həm də qırmızı kərpiclə inşa olunmuş tarixi binaları seyr etdik. Azərbaycanda dəfələrlə olsam da, bu günə kimi Gəncəyə gəlmədiyimə görə təəssüfləndim. Lakin ümid edirəm ki, bundan sonra əlaqələrimiz möhkəmlənəcək, biz bu gözəl, möhtəşəm şəhərə tez-tez gələcəyik. Onu da qeyd etməyi özümə borc bilirəm ki, şəhər rəhbərliyinin olduqca yüksək təşkilatçılığı və gəncəlilərin qonaqpərvərliyi, səmimiyyəti bizi heyran etdi". Qardaş ölkənin Dövlət Arxivləri Baş İdarəsinin rəisi Uğur Ünal isə Gəncə haqqında demişdir: "Bu səfər mənim üçün həm də onunla əlamətdardır ki, zəngin türk mədəniyyətinə malik olan Gəncə kimi bir şəhərlə tanış oldum".

Yaxşı demişlər: yaşıllıq ürəyin, beynin məlhəmidir. Əgər buraya gözlərimizin doymadığı əsrarəngizliyi də əlavə etsək, onda demək olar ki, bu qədim şəhər yaşıl cənnətdir. Son 5 ildə salınan Fikrət Əmirov, İstiqlal, Nəriman Nərimanov parkları, abad xiyaban və bağçalar, Gəncəçayın sahilini bəzəyən Gəncə bulvar kompleksi, Əziz Əliyev, Vazeh parklarında görülən yenidənqurma işləri istər yerli sakinlərə, istərsə də şəhərə gələn turistlərə rahatlıq bəxş etmişdir. Onu da nəzərə çatdıraq ki, "Quru Qobu" deyilən ərazidə salınmış Heydər Əliyev park-kompleksinin isə analoqu yoxdur. 450 hektar ərazini əhatə edən, uzunluğu 2 kilometr olan bu parkda dünyanın ən nadir bitkilərinə, bəzək kollarına, gülçiçəyə rast gəlmək mümkündür. Cadar-cadar olan torpaqda süni göl yaratmağın mümkünlüyünə inanmayanlar çox oldu. Lakin qısa bir zamanda burada elə bir süni göl yaradıldı ki, indi insanlar bu gözəllikdən doya bilmirlər. Prezident İlham Əliyevin möcüzə adlandırdığı park-kompleks həmişəyaşıl ağaclarla zəngin olsa da, onun məşhur çinar xiyabanı daha baxımlıdır. Ulu Öndərin öz əlləri ilə əkdiyi çinar ağacı isə əsl ziyarətgahdır.

Muzeylərin maddi və mənəvi dəyərlərinin qorunmasında, öyrənilməsində müstəsna əhəmiyyəti vardır. Son illər Gəncədə aparılan genişmiqyaslı quruculuq işləri elm, maarif müəssisəsi sayılan yeni muzeylərin yaranması ilə müşayiət olunur. Son illər Prezident İlham Əliyevin Gəncəyə səfərlərinin hər biri möhtəşəm tikililərlə yanaşı, inşası başa çatan muzeylərin açılışı ilə yaddaşlarda qalır. Təkcə 2014-cü il yanvarın 21-də Gəncəyə növbəti səfəri zamanı dövlət başçısı 5 muzeyin qırmızı lentini kəsmişdir.

Azərbaycanın, o cümlədən Gəncənin 4 min illik tarixi ilə tanış olmaq üçün Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə-Kompleksinə getmək kifayətdir. Burada Gəncənin bütün tarixi, görkəmli şəxsiyyətləri, döyüş silahlarından tutmuş döyüş paltarlarından, eləcə də Gəncənin süfrə mədəniyyəti, məişəti, etnoqrafiyası ilə tanış olmaq mümkündür.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin yaradıcısı və memarı kimi xalqımıza çox doğma və əzizdir. Onun adı ilə bağlı olan nə varsa, gəncəlilər üçün müqəddəs sayılır. Gəncədəki Heydər Əliyev Mərkəzi vətənə məhəbbətin, xalqına sədaqətin, hətta doğma Vətən üçün canından belə keçməyə hazır olan əbədiyaşar bir insan ömrünün bütün anlarını özündə əks etdirir.

Məhsəti Gəncəvi və Nizami Gəncəvi muzeyləri də eksponatlarla zəngindir. Mir Cəlal Paşayevin xatirə muzeyi isə böyük alim və yazıçının xatirəsini yaşadır. Tarix-diyarşünaslıq muzeyi Gəncənin tarixinə bələdçilik edir. İsrafil Məmmədov muzeyi qəhrəmanlığın yolunu nişan verir.

Gəncədə bənzəri olmayan Gəncə Dövlət Filarmoniyasının binası indi şəhərə bir ayrı gözəllik verir. 1200 yerlik konsert zalı, açıq havada yay kinoteatrı, rəsm qalereyası, urban mərkəzi, baxış qülləsi olan binada iaşə obyektləri, həmçinin yeraltı qaraj və yardımçı xidmət otaqları fəaliyyət göstərir. Filarmoniyanın fasadında Azərbaycan musiqi karifeylərinin heykəlləri qoyulmuşdur.

Digər bir sənət məbədinin - Gəncə Dövlət Dram Teatrının yeni binasının da təməlini Prezident İlham Əliyev qoyub. Yeni binanın inşası üçün 1 hektar torpaq sahəsi ayrılıb. Ümumi sahəsi 13 min kvadratmetrdir. Binanın 520 nəfər tutumu olan tamaşaçı zalı var. 150 yerlik yeraltı avtomobil dayanacağı, restoran, çayxana, kafe və digər iaşə obyektləri də teatra gələnlərin ixtiyarındadır.

Bakı istiqamətindən Gəncəyə yaxınlaşarkən gözlərimiz önündə qeyri-adi mənzərə canlanır. Elə bir mənzərə ki, bu əsrarəngizliyi yaradanlara min əhsən deyirsən. Yüksəklikdə dalğalanan üçrəngli bayrağımız, Qala Qapılarının möhtəşəm görkəmi, qeyri-adi yaşıllıq və fontanlar, uzun yolun yorğunluğunu çıxara bilən müasir görkəmli, səliqə-sahmanlı kafe. İçdiyin pürrəngi çaydan, gördüyün mənzərədən elə zövq alıb canlanırsan ki, ətrafı seyr etmək həvəsi birəon qat artır. Çünki gözlərin önündə qeyri-adi gözəllik dünyası açılır. İstinad divarları sırf milli memarlığın bir nümunəsi kimi bənzərsizdir. Dünyanı fəth edib, ölümsüzlük qazanan, 8 əsrlik bir tarixin o üzündə qalan bir dünyanı canlandıran abidə-kitablar yaddaşları təzələyir. Dahi Nizaminin "Xəmsə"sinə daxil olan 5 şah əsərə qoyulmuş abidə gəncəlilərin kitaba, onun müəllifi mütəfəkkir şair Nizami Gəncəviyə sonsuz məhəbbətinin bir təntənəsidir desək, yanılmarıq. Bəlkə də dünyanın heç bir yerində kitaba belə möhtəşəm abidə qoyulmayıb.

Hündürlüyü 25, eni 12 metr olan bu kitab-abidələrin önündə şəkil çəkdirən turistlərin heyranlığını görməmək mümkün deyil. Onlardan birinin - macarıstanlı Viraq Porzsenin fikirləri maraqlıdır: "Gəncəni bu qədər gözəl təsəvvür edə bilməzdim. Burada böyük quruculuq işlərinin şahidi oldum. Maraqlandım, dedilər ki, gördükləriniz qısa bir müddətdə başa gəlib. Doğrusu söz tapa bilmirəm. Burada, deyəsən, inkişaf aylarla deyil, günlərlə hesablanır. İnsanlar çalışqan olduqları qədər həm də mehribandırlar. Ünsiyyət qurmaq asandır. Yetər ki, şəhərləri, tarixləri barədə sual ver. İstədiyin qədər məlumatlanacaqsan. Bunu yalnız torpağına, tarixinə, mədəniyyətinə bağlı olan, onunla fəxr edən insanlar bacara bilərlər". Almaniyalı Truc Tran Nqoc isə deyir ki, buraya gələnə qədər Gəncə haqqında az məlumatım olduğu üçün təəssüf edirəm: "Bir şeyin şahidi oldum: burada Nizamiyə məhəbbət tükənməzdir. Bunu hər addımda şəhərdə də, insanlarla ünsiyyətdə də, məqbərə kompleksində də aydın hiss etdim. Burada Nizami Gəncəvi böyük məhəbbət selinə bürünmüşdür. Alqış olsun!" ABŞ-dan gələn turist Amanda Rivkin isə "Gəncə bir məkan kimi gözəldir. İnsanları istiqanlı, ürəkləri açıqdır. Burada insanlar həm torpaqlarını, həm də mədəniyyətlərini çox sevirlər. Mənim Azərbaycan dilində söylədiyim bir neçə kəlməni, məhəbbət və alqışlarla qarşılayırlar. Sözün həqiqi mənasında, sizlərə qibtə edirəm", - dedi.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Aİ-Azərbaycan iqtisadi əlaqələrinin perspektivləri genişdir

**Son illər ərzində Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında münasibətlər daha da inkişaf edərək yeni mərhələyə qədəm qoyub. Enerji, investisiya, ticarət və digər sahələrdə əlaqələr getdikcə genişlənir. Aİ Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilib. Azərbaycan-Aİ əməkdaşlığı dinamik inkişaf edir.**



1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi Azərbaycan-Aİ əlaqələrinin hüquqi bazasını təşkil edir. Həmin vaxta qədər isə Aİ ilə münasibətlər TACIS, "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (INOGATE), "Humanitar yardım" (ECHO) və digər sənədlər çərçivəsində inkişaf etdirilib. Sonrakı illərdə əməkdaşlıq və tərəfdaşlıq istiqamətində yeni, daha uğurlu səhifələr açılıb.

"Cənub qaz dəhlizi"nin reallaşması ilə bu münasibətlər daha da möhkəmlənib. 2020-ci il dekabrın 31-də istifadəyə verilən TAP (Trans-Adriatik Qaz Boru Kəməri) artıq xeyli vaxtdır Avropaya Azərbaycan qazı nəql edir. Avropadakı istehlakçıların mavi yanacağa artan tələbatı bu gün TAP-ın hətta genişləndirilməsi məsələsini gündəmə gətirir.

Bu il mayın 17-də Bakıda Avropa İttifaqı-Azərbaycan biznes forumunun keçirilməsi də iqtisadi əməkdaşlığın getdikcə daha çox inkişaf etdiyini təsdiqləyir. Forumda hər iki tərəfdən rəsmi şəxslər, beynəlxalq təşkilatların nümayəndələri və sahibkarlar iştirak ediblər.

Tədbirdə Aİ-Azərbaycan əlaqələrindən geniş söhbət açılıb. Ölkəmizdə əlverişli biznes və investisiya mühitinin olduğu qeyd edilib. Tərəflər arasında ticarətin genişləndiyi, 2021-ci ildə ticarət dövriyyəsinin 15 milyard dollardan çox olduğu vurğulanıb. Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko bildirib ki, yeni layihələrin icrası tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcək. P.Mixalko Azərbaycanın əlverişli coğrafi mövqeyinin, nəqliyyat-tranzit potensialının Aİ şirkətlərini cəlb etdiyini və onların ölkəmizdə fəaliyyətdə, eləcə də işğaldan azad olunmuş ərazilərimizin bərpası və quruculuq işlərində iştirakda maraqlı olduqlarını deyib.

Xatırladaq ki, Aİ Azərbaycanın ən böyük investisiya tərəfdaşıdır. İndiyədək Avropa İttifaqı ölkələrindən Azərbaycan iqtisadiyyatına 20 milyard avrodan çox sərmayə yatırılıb. İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizin Avropa İttifaqı ilə əlaqələrə xüsusi önəm verdiyini diqqətə çatdırıb, tərəflər arasında münasibətlərin artan dinamikasında qarşılıqlı səfərlərin, yüksəksəviyyəli görüşlərin əhəmiyyətini qeyd edib. Aİ-nin ölkəmizə Tvinninq və digər mexanizmlərlə dəstəyinin yüksək qiymətləndirildiyi bildirilib.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin uğurlu nəticələr verdiyi hamıya yaxşı məlumdur. Belə ki, son illər ölkəmizin fiskal gəlirləri, vergiödəyicilərinin sayı, məşğulluq, ticarət dövriyyəsi artır, sahibkarlıq inkişaf edir. İqtisadi inkişafın davamlılığının dəstəklənməsini təmin etmək məqsədilə ölkənin sosial-iqtisadi inkişaf prioritetləri müəyyənləşdirilib. İqtisadiyyatın "yaşıl" və davamlı inkişafına, innovativ sahibkarlığın, rəqəmsallaşmanın genişləndirilməsinə, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərində "yaşıl" və "ağıllı" konsepsiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Tədbirdə bütün bunlar, həmçinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan infrastruktur və tikinti layihələri barədə məlumat verilib. Yeni reallıqların investisiya qoyuluşu üçün böyük imkanlar yaratdığı vurğulanaraq Aİ-yə üzv olan ölkələr bu layihələrdə fəal iştiraka dəvət edilib. Bildirilib ki, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları işğaldan azad edilmiş ərazilərimizin ölkə iqtisadiyyatına reinteqrasiyasını daha da sürətləndirəcək.

Məlumdur ki, sahibkarlığın ölkə iqtisadiyyatında xüsusi əhəmiyyəti var, özəl bölmənin inkişafı üçün geniş dövlət dəstəyi mexanizmləri tətbiq edilir. Bütün bunların nəticəsi olaraq, 2026-cı ilədək Azərbaycanda KOB-ların ÜDM-də payı 60 faizə, məşğulluqda 70 faizə və qeyri-neft ixracında 40 faizə çatdırılması qarşıya hədəf kimi qoyulub.

Forumda eləcə də "Aİ biznes mühiti hesabatı-2021"in təqdimatı keçirilib. Hesabata əsasən, ölkəmizdə təmsil olunan Aİ ölkələri şirkətlərinin 80 faizi iqtisadi fəaliyyət üçün Azərbaycanı seçmək, 53 faizi isə ölkəmizdə biznes fəaliyyətlərini genişləndirmək niyyətini bildiriblər. Aİ ölkələri şirkətlərinin 54 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya yatırmaqda maraqlıdır. 14 faizi isə artıq investisiya layihələrində iştirak edir.

Forum çərçivəsində həmçinin Aİ tərəfindən hazırlanmış "Azərbaycanda biznes mühiti-2021" hesabatı da təqdim edilib. Avropa şirkətlərinin davam edən yerli islahatlara və qurumların fəaliyyətinin qiymətləndirilməsi sorğusuna əsasən, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) öz mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdıraraq ilk beşlikdə yer alıb (6,04 bal). Hesabatda xarici investorlar KOBİA tərəfindən KOB-ların dəstəklənməsi məqsədilə tətbiq olunan dəstək və xidmətləri səmərəli və faydalı hesab edib. Eləcə də KOBİA-nın nəzdində fəaliyyət göstərən KOB evləri, KOB inkişaf mərkəzləri, KOB dostu şəbəkəsi və digər xidmətlərin səmərəli fəaliyyəti qeyd olunub.

"Maliyyə və digər resurslara çıxış" mövzusunda panel iclasda KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov KOB-ların maliyyə resurslarına çıxışına dair fikirlərini çatdırıb. Qeyd olunub ki, KOB-ların maliyyələşdirilməsini asanlaşdırmaq üçün qlobal, regional və milli səviyyədə səylər göstərilir. Bu sahədə KOB-ların maliyyə savadlılığının artırılması, mövcud fondlara çıxışın asanlaşdırılması, öz maliyyə alətləri çərçivəsində, eyni zamanda agentliyin 20-dən çox KOB inkişaf mərkəzi vasitəsilə maliyyə məsələləri üzrə ödənişsiz təlim və məsləhət xidmətləri göstərilir. KOBİA tərəfindən KOB-lara qrant verilir, daxili bazar araşdırmasına çəkilən xərcin bir hissəsi dövlət tərəfindən maliyyələşdirilir, KOB-ları innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətində azad edən "Startap" şəhadətnaməsi verilir. Agentliyin nəzdində fəaliyyət göstərən Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi də KOB-ların müxtəlif layihələrə cəlb edilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirir.

Şübhəsiz ki, biznes forumda səslənən rəylər, işgüzar əlaqələrin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi imkanları barədə aparılan müzakirələr Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı qarşısında yeni perspektivlərin açılmasına təkan verəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# İsraillə iqtisadi əməkdaşlığın inkişafı müzakirə edilib

İqtisadiyyat naziri Mikayıl Cabbarov İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forerlə görüşüb.



İqtisadiyyat naziri İsrail ilə diplomatik münasibətlərin qurulmasının 30 illiyini, yüksəksəviyyəli əlaqələrə malik ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində işlərin davam etdirildiyini vurğulayıb. Nazir Azərbaycanda əlverişli biznes və investisiya mühiti, işğaldan azad edilmiş ərazilərimizin iqtisadi potensialı barədə məlumat verib, əməkdaşlığın inkişafı imkanlarını diqqətə çatdırıb, İsrail şirkətlərini ölkəmizin işgüzar mühitindən yararlanmağa və fəal tərəfdaşlığa dəvət edib.

İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forer ölkəsinin Azərbaycanla iqtisadi, o cümlədən aqrar sahədə əməkdaşlığın inkişafına mühüm önəm verdiyini, İsrail şirkətlərinin Azərbaycanın azad edilmiş ərazilərinin bərpası ilə bağlı layihələrdə iştiraka maraq göstərdiyini qeyd edib, tərəfdaşlığın gücləndirilməsi barədə fikirlərini bölüşüb.

Tərəflər iqtisadiyyatın müxtəlif sferalarında, qida təhlükəsizliyi, su ehtiyatlarının idarə olunması, kənd təsərrüfatı və bu sahədə elmi-tədqiqat üzrə əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər.

# DOST mərkəzləri "Avropa İttifaqı Biznes Mühiti Hesabatı-2021"də təkmil islahat kimi dəyərləndirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Agentliyi növbəti beynəlxalq uğura imza atıb. Avropa İttifaqının (Aİ) iqtisadi əməkdaşlıq üzrə nailiyyətlər və Azərbaycanda biznes mühitinin inkişaf etdirilməsinə dair "Aİ Biznes Mühiti Hesabatı-2021" nəşrində DOST mərkəzləri ölkədə həyata keçirilmiş təkmil islahatlardan biri kimi dəyərləndirilib.

"Aİ Biznes Mühiti Hesabatı-2021" Azərbaycandakı mövcud biznes mühitinin müstəqil qiymətləndirilməsini təmin edir və trendləri müəyyən etməyə imkan verir. Təcrübəli ekspertlərin iştirakı ilə keçirilən builki sorğuların nəticəsi Azərbaycanda fəaliyyət göstərən, 24 Avropa ölkəsindən olan 139 şirkət arasında aparılmış sorğu və 27 müsahibəyə əsaslanır.

Hesabatda Azərbaycanda siyasi və sosial stabillik investorlar tərəfindən əsas qiymətləndirilən faktor kimi göstərilib. Bundan əlavə, nəşrdə biznes intizamı etikası, korrupsiyanın aradan qaldırılması üzrə tədbirlər və peşə təhsilinin keyfiyyəti inkişaf etdirilən amillər kimi göstərilib.

Sosial islahatların sırasında DOST mərkəzlərinin fəaliyyəti investorlar tərəfindən xüsusilə qiymətləndirilib. Nəşrdə 2021-ci ildə ölkəmizdə daha iki DOST mərkəzinin açıldığı, 2025-ci ilə qədər bütün ölkə ərazisini əhatə edəcək 17 DOST mərkəzinin fəaliyyətə başlayacağı qeyd olunub.

Bundan əlavə, DOST Agentliyinin BMT Əhali Fondu, BMT İnkişaf Proqramı, Beynəlxalq Əmək Təşkilatı və digər beynəlxalq qurumlarla əməkdaşlıqda müxtəlif proqramlarda iştirakı diqqətə çatdırılır. Xüsusilə də agentliyin fəaliyyətinin effektivliyinin beynəlxalq təsdiqi olaraq 2022-ci ilin aprel ayında Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətləri Mükafatına layiq görüldüyü vurğulanıb.

Qeyd edək ki, təkcə bu il DOST Agentliyi 5 beynəlxalq mükafatla - Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatı, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının (BPSFA) mükafatı və Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) 3 mükafatı ilə təltif olunub.

DOST bu gün Avropa Sosial Şəbəkəsi Şurasının Avropa İttifaqı üzvü olmayan yeganə dövlət qurumu, eyni zamanda şəbəkənin tədbir və müzakirələrinin fəal iştirakçısı olan yeganə MDB təmsilçisidir.

Bu uğurlar Prezident İlham Əliyevin sosial islahatlar proqramının nailiyyətlərinin, o cümlədən DOST konsepsiyasının beynəlxalq səviyyədə də yüksək qiymətləndirildiyini bir daha təsdiq edir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası ölkəmizin mühüm sosial uğurlarından biri olmaqla, 154 dövlət sosial xidmətinin "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş məmnunluğuna uyğun təqdim olunmasına imkan verib.

# "Peşələr festivalı"nın növbəti dayanacağı Sumqayıt olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən ölkəmizdə ilk dəfə keçirilən "Peşələr festivalı"nın növbəti dayanacağı Sumqayıt şəhəri olub.**



Festivalda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, agentliyin idarə heyətinin sədri Mustafa Abbasbəyli, Sumqayıt şəhər icra hakimiyyətinin başçısının müavini Teymur Səmədov, millət vəkili Müşfiq Məmmədli, dövlət və özəl qurumların nümayəndələri, yerli ekspertlər, işəgötürənlər, tələbə və gənclər iştirak edib.

Tədbirdə yeniyetmə və gənclərin müasir əmək bazarı barədə məlumatlılığının və peşələrə marağının artırılmasında, əmək bazarının tələblərinə uyğun peşə seçimində festivalın rolu yüksək qiymətləndirilib.

Bildirilib ki, ölkənin 10 rayon və şəhərində "Öyrən, Əylən, Peşəni seç" devizi ilə, müxtəlif peşələr üzrə ekspertlərin iştirakı ilə keçiriləcək festivalda iştirakçılar peşələr üzrə hansı bacarıqların tələb olunduğunu öyrənəcək. Daha sonra qonaqlar festivalda təqdim olunan peşələrin stendləri ilə tanış olub, ekspertlərlə söhbət ediblər.

Növbəti festival bu gün Lənkəranda keçirilir.

## Dövlət Statistika Komitəsi xəbər verir

### ÜDM istehsalında 7,2 faiz artım qeydə alınıb

Dörd ay ərzində ölkə üzrə 39 milyard 554,8 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,2 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,2 faiz, qeyri neft-qaz sektorunda isə 11,4 faiz artmışdır.

ÜDM istehsalının 54,8 faizi sənaye, 7,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,0 faizi tikinti, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,4 faizi informasiya və rabitə, 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 14,5 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 7,9 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 3938,4 manata bərabər olmuşdur.

### Əsas kapitala 3,6 milyard manat vəsait yönəldilib

Yanvar-aprel aylarında əsas kapitala 3678,0 milyon manat məbləğində, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,3 faiz az vəsait yönəldilmişdir.

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 29,9 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 17,9 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 2077,5 milyon manatı və ya 56,5 faizi məhsul istehsalı sahələrinə, 1370,3 milyon manatı (37,2 faizi) xidmət sahələrinə, 230,2 milyon manatı (6,3 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 2689,6 milyon manatını və ya 73,1 faizini daxili vəsaitlər təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 2725,4 milyon manatı və ya 74,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 52,8 faiz, büdcə vəsaitləri 34,0 faiz, əhalinin şəxsi vəsaitləri 7,4 faiz, sair vəsaitlər 4,2 faiz, bank kreditləri isə 1,6 faiz təşkil etmişdir.

### Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yük daşımaları artıb

Cari ilin yanvar-mart aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 10 milyon 858,3 min ton, yük dövriyyəsi isə 2557,7 milyon ton-km olmuşdur.

Əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 6,7 faiz və 6,3 faiz artım müşahidə olunmuşdur. Yüklərin 6115,1 min tonu və ya 56,3 faizi avtomobil nəqliyyatı, 3507,0 min tonu və ya 32,3 faizi dəmir yolu nəqliyyatı, 1236,2 min tonu və ya 11,4 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhliz vasitəsilə daşınmış yüklərin 23,8 faizini və ya 2585,3 min tonunu tranzit yüklər təşkil etmişdir.

### Ölkə üzrə 27,4 milyard manatlıq sənaye məhsulu istehsal olunub

**Yanvar-aprel aylarında ölkə üzrə 27,4 milyard manatlıq və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çox sənaye məhsulu istehsal edilmişdir.**

**Neft-qaz sektorunda məhsul istehsalı 0,3 faiz, qeyri neft-qaz sektorunda isə 15,1 faiz artmışdır.**

Sənaye məhsulunun 74,5 faizi mədənçıxarma sektorunda, 21,1 faizi emal sektorunda, 3,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 3,9 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 16,5 faiz artmışdır.

Emal sektorunda sair nəqliyyat vasitələrinin istehsalı 4,4 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,5 dəfə, əczaçılıq məhsullarının istehsalı 2,0 dəfə, tikinti materiallarının istehsalı 72,3 faiz, elektrik avadanlıqlarının istehsalı 60,8 faiz, mebel istehsalı 58,4 faiz, geyim istehsalı 55,4 faiz, kimya sənayesi məhsullarının istehsalı 52,2 faiz, hazır metal məmulatlarının istehsalı 34,3 faiz, maşın və avadanlıqların istehsalı 30,8 faiz, poliqrafiya məhsullarının istehsalı 30,3 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 27,9 faiz, kağız və karton istehsalı 26,1 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 20,0 faiz, qida məhsullarının istehsalı 8,5 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 5,8 faiz artmış, neft məhsullarının istehsalı 7,2 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 11,2 faiz, tütün məmulatlarının istehsalı 11,8 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 12,3 faiz, içkilərin istehsalı 14,3 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 24,2 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 26,1 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 2,7 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 10,1 faiz artmışdır.

# İqtisadi inkişafda qadınlar getdikcə fəallaşır

Azərbaycan Sahibkar Qadınlar Təşkilatının təşkilatçılığı ilə keçirilmiş builki Qadın Konqresi "İqtisadi inkişafda qadın sahibkarlığının rolu" mövzusuna həsr olunub.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən də dəstəklənən tədbirdəki çıxışında agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov iqtisadi və sosial inkişaf üçün qadınların mövcud potensial imkanlarından istifadə olunmasının əhəmiyyətini qeyd edib. Vurğulanıb ki, qadınların iqtisadiyyatda rolunun artırılması həmçinin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin hədəfləri sırasındadır. "Cari ilin aprelin 1-nə ölkəmizdə fərdi sahibkarların 21,5 faizini qadınlar təşkil edib. İqtisadi inkişafda qadınların aktivliyi artan dinamika ilə inkişaf edir"- deyən O.Məmmədov bildirib ki, ölkə iqtisadiyyatının inkişaf prioritetləri və milli xüsusiyyətləri nəzərə alınmaqla KOBİA qadın sahibkarlığının inkişafının təşviq edilməsi, kiçik və orta sahibkarlar arasında qadınların sayının daha da artırılması üçün müvafiq tədbirlər həyata keçirir: "Agentlik tərəfindən qadınların sahibkarlıq, bu sahədə yeniliklər, dəstək mexanizmləri barədə məlumatlandırılması, onların fikir və təkliflərinin öyrənilməsi üçün mütəmadi olaraq maarifləndirici tədbirlər, təlim və "dəyirmi masa"lar təşkil olunur".

Jurnalist araşdırması





# Can payı

## Ölkəmizdə orqan transplantasiyası prosesi ciddi problemlərlə üzləşib

*"On il öncə, 2012-ci ilin may ayında həyata yenidən qayıtdım...*

*Sanki anam 18 yaşımda məni ikinci dəfə dünyaya gətirdi. Ona görə belə deyirəm ki, məni bu əzabdan, xəstəlikdən anam qurtardı. Əgər anamın qaraciyəri uyğun gəlməsəydi, bəlkə də indi həyatda yox idim...*

*Donorum anam oldu və onun qaraciyəri mənə köçürüldükdən sonra həyatda qala bildim...*

*12 saat əməliyyat prosesində olmuşam. Birinci məni, sonra anamı əməliyyat ediblər. İndi əməliyyatın üstündən 10 il keçir. Bəzən ildə bir-iki dəfə yoxlanışa gedirəm. Elə il olur ki, heç getmirəm. Əməliyyatdan sonra bir müddət 10-15 adda dərman qəbul edirdim. Sonradan onların sayı azaldı, üç-dörd adda dərman isə uzun müddət qalır, onlardan ikisi ömürlükdür".*

28 yaşlı Pərvin Abdullazadənin qaraciyər köçürülməsi əməliyyatı Türkiyədə reallaşıb. Deyir ki, əməliyyatdan sonrakı bir ildə bəzi çətinliklər olub. Köçürülən orqanın orqanizmə uyğunlaşması xəstədən asılı olaraq dəyişir və uzun çəkə bilir. Pərvində isə elə də ciddi problemlər yaşanmayıb. Yalnız ayda bir-iki dəfə hərarəti olurmuş.

Pərvinin donoru olan anası deyir ki, əməliyyat üçün Azərbaycanda 4 mərhələdə analizlər verib qaraciyər transplantasiyasının uyğunluğunu müəyyənləşdirdikdən sonra əməliyyat üçün Türkiyəyə üz tutublar: "Yenidən 15 gün ərzində Türkiyədə analizlər verdim və uyğunluq müəyyənləşdiriləndən sonra əməliyyat üçün razılıq oldu. Eyni zamanda psixoloji vəziyyət öyrənildi, əməliyyatın həqiqətən öz razılığım əsasında olduğu aydınlaşdırıldı. Səhər saat 09:00-da əməliyyat üçün qəbul olunsaq da, Pərvinin vəziyyəti ağır olduğundan ilk olaraq onu əməliyyata aldılar. Uyğun olmayacağı halda məni əməliyyata almayacaqlarını dedilər. Saat 18:00-da əməliyyatdan çıxdım və 2-3 saat sonra narkozdan ayıldım".

Pərvin kimi anası da ötən 10 il müddətində dəfələrlə müayinələrdən keçib. İndi normal həyat fəaliyyətinə davam edir.

2010-cu ildə xaricdə böyrək köçürülməsi əməliyyatı keçirən Aydın da 3-4 il xəstəlikdən əziyyət çəkib. 31 yaşında əməliyyat olunub və bu gün heç bir problem yaşamır.

Hazırda da idmanla məşğul olur və normal həyat fəaliyyətinə davam edir. Əməliyyatdan sonrakı aylarda özünü yaxşı qoruduğunu qeyd edən Aydın bildirir ki, 8 ay maska taxıb. Aydının donoru isə atası olub.

### Cənubi Qafqazda və Yaxın Şərqdə ilk orqan köçürülməsi Azərbaycanda reallaşıb

Orqanların transplantasiyası əməliyyatları hələ eramızdan əvvəl qədim Misirdə sınaqdan keçirilib. Xəstənin həyatını başqa cür xilas etmək mümkün olmadıqda, ona digər insandan orqanın köçürülməsi təcrübəsi ilk dəfə 1933-cü ildə Ukraynada gerçəkləşib. İlk köçürülən orqan böyrək olub. Azərbaycanda isə bir insanın orqanının başqa bir şəxsə köçürülməsi faktı akademik Mirməmməd Cavadzadənin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə 1971-ci il martın 4-də nəinki Azərbaycanda, Cənubi Qafqazda və Yaxın Şərqdə ilk dəfə xəstəyə böyrək köçürülüb.

Dünya səhiyyə sisteminin getdikcə daha da modernləşməsi həm də oqran transplantasiyasının geniş şəkildə tətbiq olunmasına real zəmin yaradıb. Bir insan həyatını xilas etmək, onu yenidən dünyaya qaytarmaq böyük savabdır. Ancaq orqan transplantasiyası prosesini keçən insanların söylədikləri fikirlərə əsaslanaraq deyə bilərik ki, uzun illər ərzində transplantasiya əməliyyatı etdirənlər daha çox xarici ölkələrə üz tutub, digər ölkələrin səhiyyəsinə güvəniblər.

Ölkəmizdə orqan transplantasiyası ilə bağlı hüquqi bazanın formalaşdırılması 1999-cu ildə "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" qanunu qəbul olunub, 2000-ci ildə isə Nazirlər Kabinetinin qəbul etdiyi qərara görə, transplantasiyasına icazə verilən orqan və ya toxumaların siyahısı tutulub.

### Qanunun icrası niyə gecikir?

2022-ci il yanvarın 1-dən Azərbaycanda "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" yeni qanun qüvvəyə minsə də, sənədin faktiki olaraq icrası görünmür.

Ölkədə orqana ehtiyacı olan və illərlə növbə gözləyən xəstələr var. Qanuna əsasən, canlı donordan transplantasiya məqsədilə yalnız böyrəyin biri, ağciyərin bir payı, qaraciyərin, mədəaltı vəzinin, nazik bağırsağın, dərinin bir hissəsi, sümük iliyi, kök hüceyrələr götürülə bilər. Meyit donordan isə ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi, mədə, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası və kök hüceyrələrini köçürmək mümkündür.

Qanunda yetkinlik yaşına çatmış tam fəaliyyət qabiliyyətli şəxsin sağlığında ölümdən sonra transplantasiya məqsədilə orqanlarının götürülməsinə razılığı və ya orqanlarının götürülməsindən imtinası nəzərdə tutulub. Şəxs ölümdən sonra orqanlarının transplantasiya məqsədilə götürülməsinə razılıq və ya orqanlarının götürülməsindən imtina barədə iradə ifadəsini istənilən vaxt dəyişdirə bilər. Qanunun icrası üçün orqan donorluğu və transplantasiya sisteminə daxil olan əlaqələndirici qurum, vahid dövlət informasiya bazası, orqan donorluğu və transplantasiyası üzrə etika komissiyasının yaradılması nəzərdə tutulmuşdu. Qanunda nəzərdə tutulan mexanizmlər isə Səhiyyə Nazirliyi tərəfindən hazırlanıb Nazirlər Kabinetinə təqdim olunmalı idi.

### Transplantasiya üçün normativ hüquqi aktların layihələri hazırlanıb

Səhiyyə Nazirliyindən qəzetimizə bildirilib ki, orqan köçürülməsi ilə bağlı Koordinasiya Mərkəzinin eyni zamanda donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazasının Əsasnamələri nazirlik tərəfindən hazırlanıb, aidiyyəti qurumlarla razılaşdırıldıqdan sonra təsdiq olunması üçün Nazirlər Kabinetinə göndərilib.

Etika Komissiyasının tərkibi və Əsasnaməsinin də hazırlandığı, Koordinasiya Mərkəzinin Əsasnaməsi təsdiqləndikdən sonra fəaliyyətə başlayacağı deyilib. Qeyd olunub ki, qanunun icrası üçün dövlət başçısının tapşırığı əsasında hazırlanmalı olan bütün normativ hüquqi aktların layihələri hazırlanıb və bu zaman beynəlxalq təcrübə əsas götürülüb.

Məlumat üçün bildirək ki, Etika Komissiyası yaxın qohum olmayan canlı donorlardan donor orqanın götürülməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tərkibində psixoloq və hüquqşünas olan komissiyadır.

Orqan transplantasiyasının maliyyə yükünün yüksək olduğu hər kəsə məlumdur. Azərbaycanda ən çox həyata keçirilən böyrək köçürülməsinin qiyməti 15 min manat civarında, qaraciyər transplantasiyasının qiyməti isə 40-50 min manat arasında dəyişir.

### İcbari tibbi sığorta orqan köçürülməsini qarşılayacaqmı?

Qeyd etdiyimiz kimi, orqan transplantasiya əməliyyatları heç də ucuz başa gəlmir. Xəstələr donor gözlədiyi kimi, bəzən maliyyə çatızmazlığından xəstəxanaya müraciət edə bilmirlər. Orqan köçürülməsinin bir ildən çoxdur ölkədə tam tətbiq olunan icbari tibbi sığorta çərçivəsində qarşılanması müzakirə olunur.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən qəzetimizə bildirilib ki, xidmətlər zərfinə dəyişikliyin edilməsi barədə agentlik tərəfindən layihə hazırlanıb və aidiyyəti quruma təqdim olunub. 700 tibbi xidmətin zərfə daxil edilməsi nəzərdə tutulur.

Qeyd olunub ki, yeni tibbi xidmətlər limitli qaydada orqan transplantasiyasını da əhatə edəcək. Hansı orqan transplantasiya əməliyyatlarının icbari tibbi sığorta çərçivəsində qarşılanacağının isə Zərf təsdiq edildikdən sonra ictimaiyyətə açıqlanacağı bildirilib.

### Qanun qüvvəyə minsə də, nəticəsi görünmür

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov qəzetimizə açıqlamasında bildirib ki, qanunda yenilik beyin ölümü gerçəkləşən insanlardan alınmış orqanların köçürülməsidir.

Deputat qeyd edib ki, qanunun icraçı strukturu Səhiyyə Nazirliyidir. Qanunla bağlı hazırlıqlar gedir: "Qanunun qüvvəyə minməsindən sonra da hamı çox şey gözləyirdi, amma hələ ki, nəticəsini əldə edə bilmirik. Məncə, nəticə əldə olunmamasının iki əsas səbəbi var. Əvvəl qanunun olmaması haqqında fikirlər yürüdülürdü, halbuki bu, reallıq deyildi. Həkim kimi deyə bilərəm ki, burada birinci məsələ kütləvi informasiya vasitələrində davamlı, planlı şəkildə məlumatların, eləcə də maarifləndirici verilişlərin illərlə davam etməsidir. Ayrı-ayrı xəstəxanaların, həkimlərin reklamlarından daha çox konkret xəstəliklərlə mübarizədə dövlətin, səhiyyə siyasətinin ortaya qoya biləcəyi məlumatların KİV-də yayımlanması vacibdir".

### İcra strukturları davamlı treninqlər təşkil etməlidir

Rəşad Mahmudovun sözlərinə görə, icra strukturları tərəfindən mütləq şəkildə geniş, davamlı treninqlər keçirilməlidir.

Həmçinin reanimasiyalarda reanimatoloq və bu qərarları verə biləcək koordinasiya qrupları içərisində olan həkimlərin, bu sahə ilə əlaqəsi olmasa belə, səhiyyə işçilərinin hər birinin beyin ölümü kriteriyaları haqqında və bu işin təşkili, təhlükəsi, problemlər barədə ətraflı məlumatlandırılması vacib amildir.

Ancaq bunları davamlı etməklə, bir gün kütləvi şəkildə dünyada inkişaf etmiş ölkələrin səhiyyəsində olduğu kimi, beyin ölümü nəticəsində həyatını itirmiş şəxslərin orqanlarının ehtiyacı olan insanlara köçürülməsi və arzulanan nəticəni əldə etməyimiz mümkün olacaq.

### Ötən il nə qədər insana orqan köçürülüb?

Dövlət Statistika Komitəsindən qəzetimizə bildirilib ki, 2021-ci ildə ölkə üzrə insan orqan və toxumalarının transplantasiya əməliyyatı aparılmış resipiyentlərin sayı 152 nəfər olub.

Onlardan 54-ü qadın, 31-i isə 0-17 yaş aralığında olan uşaqlardır. Əməliyyat olunanlardan 5 nəfəri həyatını itirib. Transplantasiya əməliyyatlarından 30-u gözün buynuz qişası və kök hüceyrələri, 16-sı sümük iliyi, 43-ü qaraciyər (onun seqmentləri) və bir hissəsi, 63-ü isə böyrəklər və onun seqmentləri üzərində aparılıb.

Statistik məlumatlara əsasən, tək Azərbaycanda deyil, bütün dünyada orqan çatışmazlığından əziyyət çəkənlərin sayı artmaqdadır. Ekoloji problem, qidanın təmiz olmaması, stres, tibbin və diaqnostikanın daha irəli getməsi, yəni xəstəliklərin vaxtında aşkar olunması bu göstəricinin artmasının əsas amilləridir.

Qeyd edək ki, Azərbaycanda orqan transplantasiyası üçün növbədə olan, maddi baxımdan yüksək məbləğ tələb etdiyi üçün öz hesabına əməliyyat etdirə bilməyənlərin sayı çoxdur. Halbuki yeni orqana ehtiyacı olan pasiyentin vaxtında əməliyyat olunmadığı halda aqibətinin necə olacağı bəllidir. Ancaq pasiyent zamanında əməliyyat olunarsa, onun nəinki sağlamlığına, hətta ailəsinə və sosial həyatına qayıtmaq şansı daha çoxdur.

*Eyni zamanda müəyyən orqanların ancaq meyitdən alınması mümkün olduğu üçün bu sahədə maarifləndirici tədbirlər həyata keçirilməli, vətəndaşlarda ölkə səhiyyəsinə inam artırılmalıdır. Halbuki nə qanun layihəsinin müzakirəsi, nə də qanunun qüvvəyə minməsindən sonra maarifləndirici məlumatların verildiyi, tədbirlərin həyata keçirildiyini görürük...*

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Polis bu dəfə vitse-spikeri döydü

## İrəvandakı etiraz dalğası ölkədə xaotik vəziyyəti daha da ağırlaşdırır

Ermənistanda baş nazir Nikol Paşinyanın əleyhinə keçirilən növbəti etiraz aksiyaları siyasi gərginliyi daha da dərinləşdirməklə yanaşı, xaotik vəziyyət yaradıb. Müxalifətin "Müqavimət" hərəkatının mitinqləri, əsasən, paytaxt İrəvanda təşkil edilir. Etirazçılar küçələri bağlayır, polisin müdaxiləsi ilə yüzlərlə etirazçı saxlanılır.





Dünən aksiya iştirakçıları hökumət binasına girməyə çalışıblar. Vətəndaşları itaətsizliyə çağıran müxalifət fəalları ilə polis arasında gərginlik yaşanıb, 350-dən çox müxalifətçi saxlanılıb, 26 nəfər yaralanıb, bəzilərinin isə vəziyyəti ağırdır.

Polis parlamentin vitse-spikeri İşxan Saqatelyana qarşı güc tətbiq edib. Hüquq-mühafizə orqanlarının əməkdaşları Saqatelyanın təhqiramiz söz işlətdiyini iddia ediblər. Fransa meydanı yaxınlığında polis nalayiq ifadələr işlədən vətəndaşı bölməyə aparmaq istəyib. Deputat Artur Kazinyan onlarla danışıqlar aparmağa çalışıb. Lakin əraziyə əlavə polis qüvvələri cəlb edilib. Nəticədə onlarla fəallar arasında əlbəyaxa dava düşüb. Saqatelyan araya girib tərəfləri ayırmağa çalışsa da, polislə arasında mübahisə düşüb. Bundan sonra vitse-spikerə qarşı güc tətbiq olunub, o döyülüb.

"Daşnaksütyun" partiyası Ali Şurasının sədri Simon Simonyan da Komitas prospektində polis zorakılığı ilə üzləşib. İddia olunur ki, guya o dinc aksiya keçirirmiş və səki ilə gedərkən polis digər aksiya iştirakçıları kimi Simonyanı da maşına mindirməyə çalışıb.

Bu arada hakimiyyət ölkədaxili siyasi böhranın həlli yolu olaraq növbədənkənar parlament seçkilərini müzakirə etməyə başlayıb. Ermənistan baş naziri Nikol Paşinyan hesab edir ki, vəziyyət idarəolunmaz həddə çatarsa, növbədənkənar seçkiləri elan etməyə dəyər. Digər tərəfdən, qarşıdakı dövrdə Ermənistanın sosial-iqtisadi durumunun daha da ağırlaşması qaçılmaz sayıldığından müxalifət bu amildən də mümkün qədər öz siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstərir. Çünki iqtidarın sosial-iqtisadi siyasəti müxalifətin əsas tənqid hədəfləri sırasında yer alır. Yəni Paşinyan siyasi baxımdan mövqelərini qorusa da, iqtisadi sferadakı çətinliklər ona qarşı çıxanların sayını artırır. Ermənistan mətbuatı yazır ki, hakimiyyət ölkə iqtisadiyyatında, guya dirçəliş baş verməsi, işsizliyin getdikcə azalması, əhalinin sosial vəziyyətinin yaxşılaşması haqqında ağızdolusu danışsa da, faktlar tamamilə bunun əksini deyir.

Qeyd olunur ki, Ermənistanda rəsmən gənclərin 60 faizdən çoxu işsizdir. Ölkə rəhbərliyinin işsizliyin azaldığı barədə pafoslu məlumatına baxmayaraq, əslində, bu sahədə acınacaqlı vəziyyət mövcuddur, işsizlik azalmaq əvəzinə getdikcə artmaqdadır. Qeyri-rəsmi məlumatlara görə, ölkədəki gənclərin 80 faizi işsizdir. Ailəsini dolandırmaq naminə xarici ölkələrə üz tutan ermənilər sayəsində əhali arasında ildən-ilə azalma müşahidə olunur. Ona görə də Ermənistan əhalisi qocalmaqda olan ölkələr sırasında qalır. İnflyasiyanın və korrupsiyanın baş alıb getdiyi, iqtisadiyyatı iflic vəziyyətinə düşən Ermənistanın xarici borcları da durmadan artmaqdadır.

Demoqrafiya ilə bağlı yaranan vəziyyət Ermənistanda orduya çağırış zamanı ciddi çətinliklər yaradır. Müharibədəki məğlubiyyətdən sonra açıq şəkildə deyilir ki, Ermənistan ordusu çağırışçı problemi ilə üzləşir və hərbi hissələrin komplektləşdirilməsi mümkün olmur.

İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra yaranmış vəziyyətin təhlili göstərir ki, Ermənistan ordusu təkcə çağırışçıların sayının sürətlə azalmasına görə problem yaşamır, həm də ölkənin silahlı qüvvələrinin maddi-texniki təchizatında da əvvəlki kimi böyük çətinliklər mövcuddur. Eyni zamanda orduda nizam-intizam pozuntularının, fərariliyin, ölüm hallarının, digər bu kimi mənfi tendensiyaların miqyası durmadan genişlənməkdə davam edir.

Göründüyü kimi, müxtəlif sahələrdə yaranan problemləri gündəmə gətirməklə revanşist qüvvələr Paşinyanı devirmək planlarından əl çəkmək istəmirlər. Xalqın daha çox dəstək verdiyi baş nazir indi özü müxalifətə qarşı hücuma keçib və repressiyaları artırır. Bu fonda müxalifətdə parçalanmaların olacağı da proqnozlaşdırılır. Paşinyana vətəndaşların dəstəyi müxalifətə göstərilən etimaddan güclü olduğundan baş nazir növbədənkənar seçkilərə də getməyə hazırdır. Bütövlükdə isə yaranmış vəziyyət Ermənistanın dərin siyasi böhrana yuvarlanmasından xəbər verir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Hava zəhərə çevriləndə...



Atmosferin çirklənməsi hər il dünyada təxminən 6,7 milyon insanın həyatına son qoyur



Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri belə qənaətə gəliblər ki, müəssisələrin tullantıları və avtomobillərdən atmosferə atılan qazların yaratdığı duman, habelə havanın çirklənməsi formaları hər il dünyada təxminən 6,7 milyon insanın həyatına son qoyur.

Atmosferin çirklənməsi insan həyatının keyfiyyətinə çox güclü təsir göstərməkdə davam edir və bu, ən çox orta və aşağı gəlirli ölkələrdə özünü göstərir. Mütəxəssislərin gəldiyi qənaətə görə, havanın çirklənməsinin əhalinin sağlamlığına vurduğu böyük ziyana baxmayaraq, beynəlxalq diqqət bu problemdən yan keçib.

### Havanın çirklənməsinin nəticələri

Havanın çirklənməsi insanlar üçün ən təhlükəli sağlamlıq problemlərindən biridir. Zəhərli aerozolların, kül hissəciklərinin və tozun artan konsentrasiyası nəinki tənəffüs orqanlarında şişlərin yaranma ehtimalını artırır və xroniki obstruktiv ağciyər xəstəliyini təhrik edir, həm də ağıl kəmliyi-demensiya, eləcə də digər xroniki xəstəliklərin inkişaf ehtimalını yüksəldir.

Hesablamalar göstərib ki, qlobal COVID-19 pandemiyasına qədər dünyada havanın çirklənməsinin səviyyəsi nəinki yaxşılaşmayıb, hətta nəzərəçarpacaq dərəcədə pisləşib. Havanın çirklənməsi nəticəsində ölənlərin əksəriyyəti Asiya və Afrikadakı inkişaf etməkdə olan ölkələrin payına düşür.

Alimlər ətraf mühitin çirklənməsinin digər formaları ilə bağlı ölüm hallarının sayını da hesablayıblar. Onların hesablamaları göstərib ki, təxminən 1,4 milyon insan suyun çirklənməsi səbəbindən, daha 900 min adam isə bədənlərində qurğuşun birləşmələrinin toplanması səbəbindən vaxtından əvvəl dünyasını dəyişib. Atmosferin çirklənməsi nəticəsində yaranan xəstəliklərin müalicəsi ildə təxminən 1 trilyon dollara başa gəlir.

Havanın çirklənməsi təkcə əhalinin sağlamlığı üçün deyil, həm də ətraf mühit üçün ciddi təhlükədir. Bu, okeanlarda oksigenin miqdarını və biomüxtəlifliyi azaldır, habelə iqlim dəyişikliyinə səbəb olur.

### İnsanların 90 faizi çirklənmiş hava ilə nəfəs alır

Tədqiqatçıların qeyd etdiyi kimi, göstəricilər son illərdə nəzərəçarpacaq dərəcədə azalıb ki, bu da xüsusilə Afrikanın ən zəif inkişaf etmiş ölkələrinə təsir edib. Nəticədə, bütün çirklənmə formalarından vaxtından əvvəl ölənlərin ümumi sayı 2015-ci ildə olduğu kimi təxminən eyni səviyyədə qalıb - 9 milyon nəfər.

Bu gün bütün dünyada insanların 90 faizindən çoxu məqbul normadan çox çirklənmiş hava ilə nəfəs alır. Birləşmiş Millətlər Təşkilatı havanın çirklənməsini insanların və planetin sağlamlığı üçün əsas təhlükələrdən biri kimi qəbul edir.

Mütəxəssislərin yekun qənaətinə əsasən, bu cür trendlər havanın çirklənməsi ilə mübarizədə məqsədyönlü qlobal tədbirlərin tezliklə işlənilib həyata keçirilməsinin zəruriliyini göstərir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Türkiyədə səfərdə olan Azərbaycan nümayəndə heyəti Anıtqəbri ziyarət edib



Azərbaycanın səhiyyə naziri Teymur Musayev rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə rəsmi səfəri çərçivəsində mayın 18-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Səhiyyə Nazirliyinin adından Anıtqəbrə əklil qoyulub.

Türkiyə xalqının böyük oğlunun xatirəsinə dərin ehtiram göstərilib. Azərbaycan nümayəndə heyəti Anıtqəbir muzeyi ilə tanış olub. Nazir Teymur Musayev xatirə kitabına ürək sözlərini yazıb.

# Səhiyyə naziri qardaş Türkiyədə müalicə alan qazilərimizə baş çəkib

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nümayəndə heyətinin mayın 17-dən başlayan iki günlük Türkiyə səfəri davam edir.



AZƏRTAC xəbər verir ki, mayın 18-də səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti Vətən müharibəsi zamanı yaralanan və hazırda qardaş ölkədə müalicəsi davam edən qazilərimizi ziyarət edib.

Azərbaycan Prezidenti İlham Əliyevin vətəndaşların sağlamlığının qorunmasına hər zaman xüsusi diqqət və qayğı göstərdiyini vurğulayan nazir deyib: "Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir".

Vətən müharibəsindəki 44 gün ərzində tariximizin ən şərəfli səhifələrindən birinin yazıldığını diqqətə çatdıran Teymur Musayev əlavə edib: "Böyük qələbə şəhidlərimizin qanı bahasına, əsgər və qazilərimizin döyüşlərdə böyük fədakarlığı hesabına qazanılıb. Siz Vətən müharibəsində əsl qəhrəmanlıq göstərərək, düşmənə layiqli və unudulmaz dərs verdiniz. Müharibə başlayandan bu günə qədər qardaş Türkiyə Azərbaycanın yanındadır. Qazilərimizin yenidən sağlamlıqlarına qovuşmaları üçün türkiyəli mütəxəssislərin dəstəyi bizim üçün çox önəmlidir. İnanıram ki, tezliklə sağalıb Vətənə qayıdacaqsınız".

Görüş zamanı səhiyyə naziri qazilərə Vətənə qayıtdıqdan sonra müalicələrini Sanator-Kurort Reabilitasiya Mərkəzində davam etdirə biləcəklərini deyib.

# Kəlbəcərdə mövqelərimiz intensiv atəşə tutulub

Mayın 17-dən 18-nə keçən gecə Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri intensiv atəşə tutulub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsində yerləşən mövqelərindən müxtəlif çaplı atıcı silahlardan və pulemyotlardan istifadə edərək bölmələrimizi atəşə tutub.

Ordumuz tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Aşıq Şəmşir və Səməd Vurğunun xatirəsinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

Qazax Rayon İcra Hakimiyyətinin, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutunun, Türkiyənin Erzincan Binali Yıldırım Universitetinin, Bakı Dövlət Universiteti Qazax filialının və "Aşıq Şəmşir" Mədəniyyət Ocağının birgə təşkilatçılığı ilə Aşıq Şəmşir və Xalq şairi Səməd Vurğunun xatirəsinə həsr edilmiş "Aşıq sənəti və yazılı ədəbiyyat" mövzusunda Beynəlxaq Elmi Konfrans keçirilmişdir.



Tədbir iştirakçıları əvvəlcə Qazax şəhərinin mərkəzində yerləşən Şəhidlər xiyabanını ziyarət edərək memorial abidə önünə tər qərənfillər düzmüş, torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad etmişlər. Sonra şəhərin Heydər Əliyev prospektində Aşıq Şəmşirin və Aşıq Ələsgərin büstləri, Mədəniyyət Mərkəzinin qarşısında Xalq şairi Səməd Vurğunun heykəli ziyarət olunmuş, ustad aşığın və Xalq şairinin əziz xatirəsi ehtiramla anılmışdır.

Sonra tədbir iştirakçıları Ədəbiyyat Muzeyinin foyesində Aşıq Şəmşirlə Xalq şairi Səməd Vurğunun fotolarından, kitablarından ibarət guşə, Qazax Rayon İcra Hakimiyyətinin dəstəyi, Qazax Dövlət Rəsm Qalereyasının və Qazax Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə "Səməd Vurğun və Aşıq Şəmşir dostluğu sazın-sözün vəhdətində" adlı rəsm müsabiqəsində iştirak etmiş rəssamların çəkdikləri rəsmlərdən ibarət sərgi ilə tanış olmuşlar.

Konfransı Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açaraq konfrans iştirakçılarını salamlamış, Aşıq Şəmşir və Xalq şairi Səməd Vurğunun xatirəsinə həsr edilmiş "Aşıq sənəti və yazılı ədəbiyyat" mövzusunda keçirilən Beynəlxaq Elmi Konfransın əhəmiyyətindən danışmışdır.

AMEA-nın Folklor İnstitutunun baş direktoru, akademik Muxtar Kazımoğlu-İmanov çıxış edərək konfrans iştirakçılarını salamlamış, tədbirin yüksək səviyyədə təşkil olunmasına və evsahibliyinə görə rayon rəhbərliyinə minnətdarlığını bildirmişdir. Xalq şairi Səməd Vurğunla Aşıq Şəmşirin dostluq əlaqələrindən söz açan natiq bu dostluğun təsadüfi olmadığını qeyd etmişdir.

Sonra BDU Qazax filialının direktoru, dosent Arif Rüstəmov, filologiya üzrə fəlsəfə doktoru, dosent, Əməkdar jurnalist Adil Cəmil, "Qazax" Xeyriyyə İctimai Birliyi İdarə Heyətinin sədri, riyaziyyat üzrə fəlsəfə doktoru, professor İlham Pirməmmədov, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, "Aşıq Şəmşir" Mədəniyyət Ocağının sədr müavini Həbib Misirov, Türkiyənin Erzincan Binali Yıldırım Universitetinin professoru, dok. Ali Kafkasyalı, Kırşehir Ahi Evran Üniversitetinin professoru, dok. Kubilay Kolukırık , Ukrayna-Gürcüstan Beynəlxalq Universitetinin professoru, dok. Mahmud Kamaloğlu, Əməkdar mədəniyyət işçisi Misgər Məmmədov, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Respublikasının Xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədr müavini Ağaəli İbrahimov çıxış edərək konfransın əhəmiyyətindən söz açmışlar.

Sonda tədbirlə əlaqədar keçirilmiş "Səməd Vurğun və Aşıq Şəmşir dostluğu sazın-sözün vəhdətində" adlı şeir və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Akademik Mirməmməd Cavadzadənin 95 illiyinə həsr olunan elmi-praktik konfrans keçirilib





Urologiya sahəsində olan bir çox yeniliklər onun adı ilə bağlıdır: ölkəmizdə ilk dəfə hemodializ əməliyyatının, Cənubi Qafqazda ilk dəfə terminal böyrək köçürülməsi əməliyyatlarının aparılması, keçmiş ittifaqda ilk dəfə Bakıda uroloji xəstəxana açılması…

Məşhur uroloq-cərrah Mirməmməd Cavadzadə 60 ilə yaxın tibbi fəaliyyətinin 34 ilində gördüyü işlər onun adının Azərbaycan səhiyyəsinə əbədi olaraq həkk edib. Akademikin rəhbərliyi altında 51 nəfər elmlər doktoru və 152 nəfər isə elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib, çoxlu monoqrafiya, dərslik, metodiki tövsiyə və 700-dən artıq elmi məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, bu barədə mayın 18-də M.Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanasında dünyaşöhrətli alimin 95 illik yubileyinə həsr olunmuş elmi-praktik toplantıda danışılıb. Əvvəlcə xəstəxananın işçiləri Fəxri xiyabana gedərək dünyaşöhrətli cərrah-uroloq, keçmiş SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik, Rusiya Tibb Elmləri Akademiyasının müxbir üzvü, professor Mirməmməd Cavadzadənin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının direktoru, tibb üzrə fəlsəfə doktoru Fariz Babayev akademikin keçdiyi həyat yolundan, ölkəmizin urologiyanın inkişafı sahəsindəki xidmətlərindən, gənc tibbi kadrların hazırlığına göstərdiyi qayğıdan bəhs edərək deyib: "Görkəmli alim ötən əsrin 50-ci illərindən urologiyanın qlobal və təxirəsalınmaz problemlərinin həlli yollarının axtarışına çıxan gənc alim bu sahənin inkişafını anesteziologiya-reanimotologiya ilə əlaqələndirirdi. O, urologiya təcrübəsində ilk dəfə olaraq prostat vəzi və sidik kisəsində cərrahi əməliyyat zamanı çanaq sümükdaxili anesteziya tətbiq edib. Akademik böyrək köçürülməsi üzrə 30 cərrahiyyə əməliyyatı aparıb. Minlərlə valideyn öz övladının həyatını ona etibar edir və heç vaxt ümidsiz geri qayıtmırdı".

Elmi-praktik konfransda xəstəxananın Urologiya şöbəsinin müdiri Elçin Mustafayev "Mərcanvari daşların müalicəsində bizim təcrübə", Uşaq şöbəsinin həkimi Murad Hüseynov "Hipospadiya: müasir cərrahi metodlar" və Uşaq şöbəsinin həkimi Vüqar Fiqarov "Miniperkutan əməliyyatlar" mövzusunda təqdimatlarla çıxış ediblər.

Konfrans iştirakçıları dünyaşöhrəti alimə həsr olunan "Bir adamın akademiyası" filmini izləyiblər.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Nefrologiya kafedrasının müdiri Fuad Sərdarov akademikin ölkəmizdə uroloq və nefroloq kadrlarının yetişməsində oynadığı roldan danışıb, görkəmli alimlə əlaqədar ürək sözlərini söyləyib.

Akademikin oğlu, professor Samir Cavadzadə çıxış edərək atasına göstərilən hörmət və ehtiram üçün xəstəxananın kollektivinə minnətdarlığını bildirib, xatirələrini danışıb.

# Ombudsman İnsan Hüquqları Aylığı ilə bağlı müraciət yayıb

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) İnsan Hüquqları Aylığının elan olunması ilə bağlı dövlət və yerli özünüidarə orqanlarına, elm, təhsil və tibb müəssisələrinə, vətəndaş cəmiyyəti institutlarına müraciət ünvanlayıb.**

**AZƏRTAC müraciəti təqdim edir:**

"Məlum olduğu kimi, Azərbaycanın müxtəlif inkişaf mərhələlərində insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılmasına xidmət edən bir sıra strateji əhəmiyyətli sənədlər - dövlət proqramı, milli fəaliyyət planı və proqramı hazırlanmış və təsdiq edilərək icra olunub.

Böyük ehtiram hissi ilə qeyd etmək lazımdır ki, ölkəmizdə insan hüquqları sahəsində ilk strateji dövlət sənədi olan "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən 1998-ci il 18 iyun tarixində təsdiq edilmiş və insan hüquqlarının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Bunu nəzərə alaraq dövlət başçısı İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamı ilə hər il iyunun 18-i Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi qeyd edilir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) olaraq, həmin əlamətdar gün ərəfəsində ölkədə "İnsan Hüquqları Aylığı" (18 may - 18 iyun 2022-ci il) elan edirəm. Bununla əlaqədar dövlət və yerli özünüidarə orqanlarına, elm, təhsil və tibb müəssisələrinə, vətəndaş cəmiyyəti institutlarına, o cümlədən qeyri-hökumət təşkilatları və mediaya müraciət edərək təşəbbüsümüzə qoşulmaqla Aylıq çərçivəsində insan hüquqlarına həsr olunmuş silsilə tədbirlər təşkil etməyə çağırıram.

Hər il olduğu kimi, builki Aylığın da elan olunmasında əsas məqsəd insan hüquqlarının müdafiəsi və təbliği sahəsində həyata keçirilən fəaliyyəti gücləndirmək, qazanılmış nailiyyətlər barədə ictimaiyyəti məlumatlandırmaq, mövcud problemlərin aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən etmək, habelə əhalinin hüquq düşüncəsini və hüquq mədəniyyətini inkişaf etdirmək, ayrı-seçkiliyin yolverilməzliyinin zəruriliyini diqqətə çatdırmaqdan ibarətdir.

Təqdirəlayiq haldır ki, yeni növ koronavirus (COVID-19) infeksiyasının qarşısının alınması istiqamətində dövlət səviyyəsində həyata keçirilən profilaktik və mübarizə xarakterli təxirəsalınmaz tədbirlər öz müsbət nəticəsini vermiş və ölkədə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar xüsusi karantin rejiminin mərhələli şəkildə yumşaldılması prosesi həyata keçirilməkdədir.

Bu baxımdan artıq Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilmiş müvafiq qərara əsasən, bütün kütləvi tədbirlərin keçirilməsinə icazə verildiyini nəzərə alaraq hesab edirəm ki, hüquqi maarifləndirmə tədbirləri həm ənənəvi (oflayn), həm hibrid, həm də onlayn formalarda keçirilə bilər.

Tərəfimizdən elan olunan Aylıq çərçivəsində insan hüquqlarına həsr olunmuş müxtəlif mövzular üzrə hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsində, sosial çarxların hazırlanmasında, mediada və sosial şəbəkələrdə insan hüquqlarının təbliğ edilməsində, insanların müraciətlərinə operativ şəkildə baxılmaqla pozulmuş hüquqlarının bərpası məsələlərinə diqqətin daha da artırılmasında fəallıq nümayiş etdirməklə, hər kəsi insan hüquqlarının səmərəli müdafiəsinə, cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına töhfə verməyə dəvət edirəm".

# USAİD geri qayıdacaq azərbaycanlı məcburi köçkünlərlə bağlı layihə icra edəcək

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Sosial İştiraka Dəstək (SES) layihəsinin rəhbəri Mark Qrabın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

QAÇQINKOM-un Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov Ermənistanın Azərbaycana qarşı işğalçılıq və deportasiya siyasəti, bunun nəticəsində yaranmış qaçqınlıq və məcburi köçkünlük problemi, həmin kateqoriyadan olan insanların sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verib. Bildirilib ki, Prezident İlham Əliyevin sosial siyasətinin prioritet istiqamətlərindən biri kimi məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması sahəsində böyük işlər görülüb.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müharibədən əziyyət çəkən insanlara, o cümlədən məcburi köçkünlərə xüsusi diqqət və qayğı göstərdiyi qeyd olunub.

Diqqətə çatdırılıb ki, 44 günlük Vətən müharibəsindən sonra məcburi köçkünlərin doğma yurdlarına - işğaldan azad edilmiş ərazilərə qayıtması üçün şərait yaranıb. Hazırda ərazilərin minalardan təmizlənməsi, rabitə-kommunikasiya xətlərinin yenidən qurulması istiqamətində tədbirlər həyata keçirilir. Məcburi köçkünlərin təhlükəsiz və rahat yaşayışının, dayanıqlı məskunlaşmasının təmin olunması qarşıya qoyulan ən mühüm vəzifədir.

USAİD-in Sosial İştiraka Dəstək (SES) layihəsinin rəhbəri Mark Qrab layihə haqqında məlumat verib. Bildirib ki, layihənin məqsədi inkişaf əsaslı birgə təşəbbüslərdə hökumət ilə səmərəli qarşılıqlı fəaliyyətin təşkili üçün vətəndaşların və vətəndaş qruplarının bilik və bacarıqlarını təkmilləşdirməkdir. Məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı ərəfəsində layihə üzrə növbəti tədbirlər məcburi köçkünlərin iştirakı ilə keçiriləcək. Layihənin məlumat bazasını yeniləmək üçün məcburi köçkünlərin ehtiyacları təhlil olunacaq. Daha sonra məcburi köçkünlərin məşğulluğuna dəstək üçün dövlət qurumları və təşkilatlarla birgə təlimlər keçiriləcək.

Görüşdə "Yüksəliş" müsabiqəsinin qalibi kimi Dövlət Komitəsində mentorluq proqramına cəlb olunmuş Xamis Seyranov da iştirak edib.

# Türkiyədə "Azərbaycanı daha yaxından tanıyaq!" devizi altında yeni layihəyə start verilib

Azərbaycanın Türkiyədəki səfirliyi qardaş ölkənin təhsil müəssisələrində "Azərbaycanı daha yaxından tanıyaq!" devizi altında yeni layihəyə start verib.



Layihə əsasında Azərbaycan Xalq Cümhuriyyəti və cümhuriyyət qurucularının tarixi fədakarlığı, Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyası, Prezident İlham Əliyevin zəngin mənalı həyat və fəaliyyəti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxistiqamətli fəaliyyəti, xalqımızın qədim mədəniyyəti, həmçinin görkəmli şəxsiyyətləri və s. barədə ətraflı məlumat veriləcək.

AZƏRTAC xəbər verir ki, bu layihə çərçivəsində Türkiyədəki universitet və məktəblərdə Azərbaycan otaqlarının qurulmasına başlanılıb.

İlk Azərbaycan otağı Müstəqillik günü və Azərbaycan ilə Türkiyə arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyi münasibətilə Samsun vilayətinin Bafra rayonunun Kolay kənd orta məktəbində (Samsun Bafra Kolay Orta okulu) qurulub və otağın açılışı olub.

Məktəbin müəllim və şagirdlərinin böyük sevinclə qarşıladığı açılışda Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi Elxan Zeynalov layihə və onun ayrı-ayrı hissələri barədə müfəssəl məlumat verib.

Layihəyə Samsundan start verilməsi təsadüfi deyil. Çünki Samsun Türkiyənin milli azadlıq mübarizəsində öz yeri və rolu ilə seçilən bölgədir. Qazi Mustafa Kamal Atatürk silahdaşları ilə birlikdə 1919-cu il mayın 19-da Samsun sahillərinə çıxaraq qədim türk yurdunun qurtuluş mübarizəsinə başlayıb. Bu tarixi həqiqətlə öyünən samsunluların Qarabağ zəfərini xüsusi bir sevinclə qarşılaması olduqca təbiidir. Ən azı ona görə ki, Anadolunun bu məkanında gözünü həyata açan hər kəs vətənpərvərlik eşqi ilə tərbiyə olunur, torpaq və yurd sevdası ilə böyüyür.

Digər tərəfdən, Samsundakı Kolay kənd orta məktəbinin direktoru Faruk Akkurt Azərbaycanın Türkiyədəki səfirliyinə məktubla müraciət edərək, müəllim və şagirdlərin Azərbaycanı daha yaxından tanımaq arzusunu və istəklərini diplomatik nümayəndəliyimizə çatdırıb.

Məktəbdə yaradılan Azərbaycan otağında 11 lövhədən ibarət məlumatlandırıcı stendlər quraşdırılıb.





# Mədəniyyət





● Qarabağ Azərbaycandır!

# Heydər Əliyev Fondu Qarabağın quruculuğunda da öndədir

**Ermənistanın Azərbaycan torpaqlarını 30 ilə yaxın işğalda saxlaması, əsrlərdən bəri xalqımıza məxsus tarixi, mədəni, dini abidələrimizi məhv etməsi, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə qənim kəsilməsi, doğma yurdlarından ayrı düşmüş həmvətənlərimizin həsrəti, acı nisgili Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti sayəsində şanlı ordumuzun düşmən üzərində qələbəsi ilə başa çatdı. Azərbaycan xalqı bu misilsiz zəfəri qürur və sevinclə qarşıladı.**




Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə ilk səfəri də məhz "Zəfər yolu"nun təməlinin qoyulması ilə başladı. Dövlət başçısının siyasi iradəsinin təcəssümü olan bu yol döyüş meydanında tarixi ədaləti bərpa etdi, Qarabağa dönüşün, doğma torpağa qayıdışın başlanğıcı oldu. Yurd yerlərimizə dönüş bu əbədi-əzəli torpağa sanki ruh verdi, Qarabağın qaranlıq səmasını aydınlatdı. Zəfər qayıdışı həm də yeni yaradılışın, xoş gələcəyin, toy-büsatla dolu günlərin sorağını verdi. Prezident İlham Əliyevin "Əziz Şuşa, biz qayıtdıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözləri hər bir azərbaycanlının qəlbini riqqətə gətirdi, hamımızı sevinc göz yaşlarına qərq etdi. Beləliklə, Qarabağın bağrına basdığı daş əriyərək yox oldu. Gözəl Qarabağın dirçəlişi başladı.

Hələ müharibənin getdiyi dövrdə - oktyabrın 26-da Prezident İlham Əliyev xalqa müraciətində bildirmişdi: "Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub..."

Bəli, xalqımız tarix boyu torpağa bağlı, qurub-yaradan, öz milli dəyərlərinə sahib çıxan bir xalq olub. Erməni işğalına məruz qalan, dağıdılan yurd yerlərinə illər sonra ayaq basan, vaxtilə alın təri, min bir zəhmətlə qurub-yaratdıqlarının dağıdıldığının şahidi olan insanlara dövlətimiz dayaq durub. Dövlət başçısının tapşırığı ilə bütün sahələr, xüsusilə güclü iqtisadiyyatımız Qarabağda quruculuq işlərinə yönəldilib.

Vətən müharibəsinin başa çatmasından ötən müddətdə işğaldan azad olunmuş torpaqlarımızda aparılan bərpa və yenidənqurma işləri ölkə rəhbərinin bu məsələlərdəki qətiyyətini və məqsədyönlülüyünü bir daha nümayiş etdirdi. Qarabağ və Şərqi Zəngəzurda qısa müddətdə nəhəng infrastruktur layihələrinin həyata keçirilməsinə başlanıldı, yurd yerlərimizə qayıdış layihələrinin icrasına start verildi, quruculuq işləri daha sürətlə davam etdirildi.

Azərbaycanın tarixi-mədəni irsinin çox böyük bir hissəsi bu diyarın payına düşür. İşğaldan azad edilən Qarabağda və Şərqi Zəngəzurda minlərlə dini və mədəniyyət nümunələrimiz mövcuddur. Bu tarixi abidələrin çox böyük bir hissəsi işğal dövründə erməni vandalizminə məruz qalmış, süni yollarla erməniləşdirilməyə cəhd edilmiş, məscidlərimiz, müqəddəs inanc yerlərimiz düşmən tərəfindən dağıdılmışdır.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başlanıldığını bəyan etdi. Bu layihələrə həm yerli mütəxəssislər, həm də xarici ekspertlər dəvət olundular. Bərpa-quruculuq işləri dini mənsubiyyətindən asılı olmayaraq, bütün abidələri əhatə edirdi. Bu da bir daha Azərbaycanın tolerant ölkə nümunəsi olduğunu dünyaya göstərirdi.

Heydər Əliyev Fondu həmçinin Qarabağda yeni dini və mədəniyyət obyektlərinin inşasına diqqət ayırır, dağıdılmış tarixi abidələri əvvəlki görkəminə qaytarır. Fond artıq bir sıra mədəniyyət abidələrinin bərpasını başa çatdırıb. Ötən ilin avqust ayında Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi təmir-bərpa və yenidənqurma işlərindən sonra istifadəyə verilib. Bu işlərə Heydər Əliyev Fondu tərəfindən 2021-ci ilin mart ayından başlanılmışdı. Ötən müddətdə həmçinin Molla Pənah Vaqifin büstü, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəli fondun dəstəyi ilə Şuşa şəhərində yenidən ucaldılıb.

Prezident İlham Əliyevin Şuşanın "Mədəniyyət paytaxtı" elan edilməsi barədə sərəncam imzalaması şəhərin xüsusi əhəmiyyətə malik olduğunu, xalqımızın şəhərə ruhən bağlılığını bir daha göstərir. Buna görə də Şuşanın bərpası və yenidən qurulmasına xüsusi həssaslıqla yanaşılır. Mütəxəssislərin rəyinə görə, Şuşa şəhərində 150-dən çox tarixi abidə mövcuddur. Onların hər biri Azərbaycan, eləcə də dünya mədəni irsinə məxsus xüsusiyyətlərə malikdir. Bu abidələrin içərisində dini tarixi abidələrin, məscidlərin xüsusi çəkisi var. Heydər Əliyev Fondu bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması işini də həyata keçirir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış ibadət yerlərinin yenidən inşası artıq başa çatdırılıb. Vaxtilə ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçəlir və işğal ərazisindəki məscidlərimizdə azan səsləri eşidilir və dualar oxunur.

Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu həm də bu bölgədəki mədəni tədbirlərin keçirilməsi ənənələrini də bərpa edir. 32 ildən sonra - 12-13 may 2021-ci ildə Şuşanın Cıdır düzündə Heydər Əliyev Fondu tərəfindən "Xarıbülbül" Musiqi Festivalı təşkil olundu, görkəmli Azərbaycan şairi, ictimai xadim Molla Pənah Vaqifin büstünün açılışı oldu, muzey-məqbərə kompleksi yenidən quruldu, “Vaqif Poeziya Günləri” keçirildi, Azərbaycanın görkəmli bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəli və ev-muzeyində aparılan işlər sona çatdı. Şuşada keçirilən "Xarıbülbül" Musiqi Festivalı çərçivəsində Heydər Əliyev Fondu tərəfindən beynəlxalq incəsənət festivalının təşkil olunması, fondun təşəbbüsü ilə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar", "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunun hazırlanması Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin qorunmasına, təbliğinə, həmçinin dünyada tanıdılmasına xidmət edir. Bununla yanaşı, icra edilən layihələr adət-ənənələrimizin, mədəniyyətimizin bir parçası olan milli dəyərlərimizin gələcək nəsillərə ötürülməsinə ən qiymətli töhfələrdir.

Ötən il Heydər Əliyev Fondu tərəfindən çap edilən "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusuna ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılığı əks etdirən 5 nəşr daxildir. "Xalq sənətkarlığı" nəşrində xalqımızın zəngin yaradıcılığında mühüm yerlərdən birini tutan, onun həyat və məişət, gündəlik güzaranı ilə bağlı olan xalq sənətlərindən bəhs edilir. Qarabağ bölgəsinin çoxəsrlik tarixə malik və Azərbaycan xalqının mədəni sərvətinin mühüm hissəsini təşkil edən musiqi irsi haqqında foto və məlumatlar "Musiqi" adlı nəşrdə cəmlənib. "Ədəbiyyat" nəşrində Qarabağda xalqımızın yaratdığı, qədim və zəngin mədəniyyətin bir qolunu təşkil edən mədəni sərvətlər, söz və sənət nümunələri haqqında ətraflı bilgilər verilir. "Memarlıq" haqqında nəşrdə Azərbaycan ərazisində mövcud olan memarlıq abidələrinin forma, tipoloji və konstruktiv baxımından zənginliyi barədə məlumatlar diqqətə çatdırılır. "Qarabağın mədəni irsi" toplusunun bu bölməsində zamanın tələblərinə uyğun yaradılan memarlıq nümunələri barədə fotolar və qrafik rəsmlər təqdim edilir. "Xalçaçılıq" nəşrində isə Qarabağ xalçaçılığının yaranma tarixi, onların işlənmə texnikası, Qarabağ xalça qrupunun xarakterik xüsusiyyətləri, bu bölgədə toxunan xalçaların səs-sorağının bütün dünyaya yayıldığı qeyd olunur.

Heydər Əliyev Fondu uzun illərdir Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinin ifşası, ermənilər tərəfindən yurdlarından didərgin salınan yüz minlərlə məcburi köçkünün pozulmuş hüquqlarının beynəlxalq müstəvidə qorunması istiqamətində genişmiqyaslı fəaliyyət göstərir. Fond Vətən müharibəsində və ondan sonrakı mərhələdə də Azərbaycanın haqq səsinin dünyaya çatdırılması üçün var qüvvəsi ilə çalışır. Bu gün də Qarabağın dirçəldilməsi, məcburi köçkünlərin öz doğma yurdlarına tez bir zamanda qayıdışı üçün görülən işlərə böyük dəstək verir.

*Zeynab KAZIMOVA*

● Musiqi xəzinəmiz

# Üzeyir bəy Hacıbəyli yaradıcılığının zirvəsi

## Qəhrəmanlıq rəmzi "Koroğlu" operasının ilk tamaşasından 85 il ötür

**1937-ci il 30 aprel. O gün Azərbaycan mədəniyyət tarixinə düşən günlərdən biri idi. Azərbaycan Dövlət Opera və Balet Teatrında dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasının premyerası keçirilirdi. Sanki səhnəni, salonu ağuşuna almış musiqi sədaları qəlbləri riqqətə gətirirdi. Tamaşaçılar ovsunlanmışdı. Səhnədə xalqın haqsızlığa qarşı qəhrəmanlıq mübarizəsi canlandırılırdı.**



Gülarə İsgəndərova Nigar rolunda



Bülbül Koroğlu rolunda

Operanın baş qəhrəmanı nərə çəkir, Misri qılıncını havada oynadaraq xalqı soyub talayanlara qarşı döyüşə atılır. Koroğlu el qəhrəmanıdır. O, at belində qəhrəmancasına döyüşür. Tamaşaçı Koroğlunu həm zalım xanlara qarşı mübarizə aparan igid, həm də Nigara məhəbbətini sazı ilə dilə gətirən:

*Sevdim səni mən, ey Nigarım,*
*Rəna gözəlim, şən baharım,*

- deyə oxuyan aşıq və aşiq kimi görürlər.

Azərbaycan xalq ədəbiyyatını, musiqisini dərindən bilən, aşıq sənətimizin, muğamlarımızın incəliklərinə bələd olan Üzeyir bəy Hacıbəyli əsəri barədə yazıb: "Koroğlu" operasında, bilavasitə, xalq yaradıcılığından götürülmüş əsl xalq melodiyaları yoxdur. Mən xalqdan hazır nəğmələr almamışam, yalnız xalq yaradıcılığının əsaslarını öyrənmişəm. Operadakı ariya, duet, reçitativ ansamblları Azərbaycan musiqi ladlarında, milli musiqi folkloru əsasında qurmuşam. Koroğlunu aşıqlar tərənnüm etmiş və ona görə də operada üstün gələn stil asıq stilidir".

Koroğlunun sevgilisi Nigar vəfalı, qətiyyətli və qorxmazdır. O, xalqı istismar edən zülmkarlara qarşı mübarizədə Koroğlunun yanındadır. Operanın əsas qəhrəmanı olan xalq da haqsızlığa uğraması, məzlum vəziyyətə düşməsi ilə barışmır, öz etiraz səsini ucaldır...

Üzeyir bəy Hacıbəyli bu əsərədək 6 opera - "Leyli və Məcnun", "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm", "Harun və Leyla", 3 musiqili komediya - "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan", xalq calğı alətləri orkestri üçün 2 fantaziya, xalq mahnı işləmələri, mahnılar, kantatalar yazmışdır. Hələ ilk opera və operettalarında Azərbaycan xalq musiqisinin janrlarından - muğam, mahnı, rəqs, aşıq sənətindən bəhrələnmişdir. Həmin əsərlərdə qazandığı təcrübələri, uğurları Üzeyir bəy "Koroğlu" operasında davam və inkişaf etdirib. Bu əsəri yazmaq barədə o, uzun illər düşünüb. "Koroğlu" operasının libretto müəllifi Məmməd Səid Ordubadi xatirələrində yazıb: "Bir gün Üzeyir bəy mənim yanıma gəldi. Nədənsə o, çox tərəddüdlü görünürdü. Nəhayət, qəlbini açıb dedi:

- "Koroğlu" dastanı əsasında bir opera yazmaq xəyalındayam. Sən bilirsən ki, Koroğlunun qəhrəmanlıq siması müxtəlif variantlar içərisində itib getmişdir. Koroğlu kimi səbatlı bir üsyançını Orta əsrlərə məxsus bir çapqın və eşqbaz kimi qələmə verirlər. Buna görə də biz Koroğlu epoxasının siyasi və ictimai mündəricəsini yazdığımız operada aydınlaşdırmalıyıq. Xalqımız Koroğlunun möhkəm bir qəhrəman olduğunu, öz əsrinin məşhur üsyan təşkilatçısı kimi feodallara qarşı mübarizə apardığını səhnədə görməlidir.

Üzeyir bu sözlərdən sonra mənə bir daha müraciət etdi:

- Demək ki, biz bunu qərara alırıq! - dedikdə, mən də əlimdəki çay stəkanını yerə qoyub: - Bəli, qərarlaşdıq, - deyə cavab verdim".

Beş pərdəlik "Koroğlu" operasının libretto müəllifləri Heydər İsmayılov və Məmməd Səid Ordubadidir. Librettonun yazılmasında Üzeyir bəy də fəal iştirak edib. Üzeyir bəy Hacıbəyli "Koroğlu" operasını yazmağa 1932-ci ildə başlayıb. Müəllif "Koroğlu" operası haqqında" məqaləsində bu əsəri yazmamışdan 20 il əvvəl xalq musiqisinin əsaslarını və köklərini öyrənməyə başladığını diqqətə çatdırıb: "Bu sahədə hazırladığım bir çox məruzələr ətrafında musiqi həvəskarlarının mübahisə və müzakirələrini izləyirdim. Bu yol ilə el musiqisini nə qədər dərindən öyrəndiyimi sınayırdım, digər tərəfdən, bəstəkara məxsus sənətkarlıq texnikasındakı hiss etdiyim nöqsanların ləğvinə çalışırdım. Opera yazmaq sənətinin hər bir cəhətini ətraflı öyrənirdim. Bütün bunların yekununda 1932-ci ildə "Koroğlu" operasını yazmaq üçün özümdə hazırlıq hiss edərək cəsarətlə işə başladım. Burada qarşımda duran əsas məqsəd yazacağım operanın Azərbaycan xalqının, eyni zamanda bütün digər xalqların asanlıqla dərk edə biləcəyi bir əsər alınması idi. Başqa operalarda olduğu kimi, "Koroğlu"da da opera elementlərinin - ariyaların, duetlərin, trioların və başqa leytmotivlərin olması tələb olunurdu. Bu qaydalar formasını da Azərbaycan muğamları üzərində qurmaq lazım gəlirdi".

Öz fəaliyyətinə, yaradıcılığına hər zaman tələbkarlıqla yanaşan Üzeyir bəy yeni opera üzərində də böyük səylə, əzmlə çalışıb. Əfrasiyab Bədəlbəyli xatirələrində yazıb: "Ü.Hacıbəyov əsər üzərində dörd il çalışmışdır. Lakin əsərin bəzi musiqi parçalarının melodikasının müəllifin zehnində çox-çox əvvəllərdən nəqş bağladığı da məlumdur. Böyük bəstəkar əsərinin hər səhifəsini, hər parçasını dönə-dönə cilalayır, lazım gəldiyi halda tamamilə yenidən bəstələyirdi. Burada həm mətn, həm də musiqi büsbütün yeni şəkildə, yeni biçimdə yaradılırdı".

Üzeyir bəy Hacıbəyli "Koroğlu" operasını 1936-cı ildə yazıb qurtarıb. Növbəti əsərin tamaşaya qoyulmasına gəlib. Görkəmli müğənni Bülbülün yazdığına görə, o vaxtadək baş rolun ifaçısı bəlli imiş. Bülbülün xatirələrindən: "Koroğlu" operası barəsində uzunmüddətli söhbətimizin sonunda Üzeyir bəy zarafatcasına dedi:

- Yaxşı, indi mən elə bir opera yazacam ki, o, hamını yerindəcə donduracaq.

Mən isə ona belə cavab verdim:

- Mənsə, Koroğlu partiyasını elə ifa edəcəm ki, onu bir daha heç kim o cür oxumayacaq".

Hər iki sənətkarın söylədikləri həqiqətə çevrilib. Nə "Koroğlu" kimi opera yazılıb, nə də onun baş qəhrəmanını Bülbül kimi ifa edən olub...

"Koroğlu" operasının rejissoru İsmayıl Hidayətzadə olub. Dirijor pultu arxasına isə Üzeyir bəy özü keçib. Tamaşanın tərtibatçı-rəssamı R.Mustafayev idi. Rəqslərə Q.Almaszadə quruluş verib. Koroğlunu Bülbül, Nigarı Gülarə İsgəndərova ifa ediblər. Digər rolları - M.Bağırov (Həsən xan), Ə.Zülalov (Ehsan paşa), B.Mustafayev (İbrahim xan), K.İsgəndərov (təlxək) və başqaları oynayıblar.

Mütəxəssislər Üzeyir bəy Hacıbəylinin milli musiqi ənənələri əsasında yaratdığı "Koroğlu" operasını böyük bir mədəni hadisə, Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm mərhələ hesab edirlər. "Koroğlu" dünya klassik operaları sırasında diqqətəlayiq yer tutur.

O gün Azərbaycan mədəniyyət tarixində unudulmaz olub. "Koroğlu" operasının ilk tamaşası bayram əhvali-ruhiyyəsi yaradıb. Onun uğurları bundan sonra da çox olub. 1938 və 1959-cu illərdə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə, 1975-ci ildə isə "Zaqafqaziya musiqi baharı" festivalında opera böyük uğur qazanıb. Üzeyir bəy Hacıbəyli 1941-ci ildə "Koroğlu" operasına görə Stalin mükafatına layiq görülüb.

"Koroğlu" Aşqabad (1939, türkmən dilində), İrəvan (1942, erməni dilində) və Daşkənddə (1950, özbək dilində) tamaşaya qoyulub. Opera Azərbaycan Opera və Balet Teatrının Təbriz, Tibilisi, Kiyev (indiki Sankt-Peternurq), Peterburq və başqa şəhərlərə qastrol tamaşaları zamanı göstərilib.

"Koroğlu" operası yazılmağa başlanmasından 90 il, tamaşaya qoyulmasından 85 il ötsə də, hər dövrdə müasirdir. Operanın hər notu xalqı oyanışa, ədalətsizliklə barışmazlığa, haqsızlığa boyun əyməməyə səsləyir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● El sənətkarları

# Ürəklərdə yeri olan Aşıq Şakir

**Yaxın dostlardan biri Ağakərimlə Azadı Tovuza toya çağırmışdı. O zaman Ağakərim Ağsuda birinci katib, Azad isə sovxoz direktoru idi. Toya hazırlıq ərəfəsində fikirləşib belə qərara gəlirlər ki, toya Aşıq Şakiri də özləri ilə aparsınlar.**

Toyun vaxtı gəlib çatır. Bir yerdə maşına minib Göyçay yolu ilə Tovuza üz tuturlar. Şakir maşından ətrafları seyr edəndə uzaqdan ata-baba yurdları Xəlilli kəndini görür və fəxrlə köks ötrüb ixtiyarsız olaraq: "Mənim doğma kəndim", - deyə dillənir.

Şakirin xüsusi bir hal ilə dediyi bu sözlər yol yoldaşlarının diqqətindən yayınmır. Odur ki, Ağakərim müəllim Şakirə üz tutub təkidlə deyir: "Aşıq, deyəsən, yeri gəlib, bəlkə elə buradaca kəndinizin şəninə bir söz qoşub mahnı oxuyasan, biz də qulaq asaq". Şakir əvvəl tərəddüd içərisində qalır. Amma görür ki, yol yoldaşları əl çəkməyəcək, odur ki, istər-istəməz razılaşmalı olur.

Maşını yolun bir kənarına çəkib saxlayırlar. Təbiətin də yaxşı vaxtlarıymış. Yamyaşıl çöllər, çəmənlər, ətirli çiçəklər, kəndin gözoxşayan gözəllikləri, bir də cidd-cəhdlə ondan mahnı istəyən yol yoldaşları... Bütün bunlar Aşıq Şakiri bir anda vəcdə gətirir, ona yeni ruh verir. Mizrab simlərə toxunur. Şakir elə buradaca doğma kəndlərinə üz tutaraq bədahətən söz qoşub şirin səsi ilə oxumağa başlayır:

*Saz götürüb dastan yazım hüsnünə,*
*Bahar güllərindən təzə kəndimiz.*
*Güllü yaylaqların, meyvə bağların,*
*Hər şeydən əzizdir bizə, kəndimiz.*
*Nə gözəldi, nə göyçəkdi kəndimiz,*
*Hər bir yanı gül-çiçəkdi kəndimiz.*

Aşıq Şakir xüsusi bir şövq ilə oxuduğu mahnını bu sözlərlə bitirir:

*Qızıldır hər qarış torpağın, daşın,*
*Odur ki, dağlardan ucadır başın.*
*Şakirəm, hüsnünə min dastan qoşum,*
*Layiqsən şeirə, sözə, kəndimiz!*

Aşıq Şakirin doğma kəndi vəsf edən bu səmimi sözləri, oxuduğu gözəl mahnı yüksək əhvali-ruhiyyə oyadır. Beləliklə, Aşıq Şakirin dillər əzbəri olan həmin o "Kəndimiz" mahnısı yaranır.

Gedib Tovuza çatırlar. Aşıq Şakirin gəlişi Tovuzda yeni əhval, yeni sevinc yaradır. Həm yerli aşıqlar, həm də bu məclisə qonaq gəlmiş Aşıq Şakir birlikdə çalıb-oxuyur, məclisə xüsusi təravət bəxş edirlər.

Aşıq Şakirin o vaxtlar Tovuza həmin gəlişi sonralar "Aşıq Şakirin Tovuz səfəri" adlı bir dastana çevrilir. Qobustanlı Aşıq Mahmudun qələmə aldığı həmin dastan bu gün də maraqla dinlənilir.

Mən özüm də ağlım kəsəndən Aşıq Şakir sənətinin vurğunu olmuşam. Uşaq vaxtlarımda Aşıq Şakirin səsini ilk dəfə radiodan eşitmişəm. Sonralar - tələbəlik illərimdə Şakiri Bakıda filarmoniyada görmüşəm. Ustad Aşıq Əhməd Rüstəmov deyirdi ki, Şakir dahi Bülbülün ən çox sevdiyi sənətkarlardan olub.

Bu söz mənim yoluma bir növ işıq tutdu. Dahi Bülbülün ev-muzeyinə gedib Adilə xanımla - Bülbülün həyat yoldaşı ilə görüşdüm. Aşıq Şakirin adını çəkəndə Adilə xanım: "Siz nə danışırsınız, - dedi, - Aşıq Şakiri tanımamaqmı olar?! Onun o "Boylana-boylana"sı indi də yadımdadır".

Adilə xanım növbəti sualımın cavabında dedi: "Bülbül Aşıq Şakirin səsini, ifalarını, səhnə mədəniyyətini çox bəyənirdi və söz düşəndə bunları deyirdi. Yeri gəlmişkən, sizə bir xatirə danışım. Bir gün Bülbüllə ikimiz Tiflisdən Bakıya gəlirdik. Adətən o vaxtlar Bülbül Tiflisdən, yaxud Şuşadan Bakıya gedib-gələndə yol üstündə olan rayonların rəhbərləri Bülbülü hörmətlə qarşılayıb yola salardılar. Bir dəfə də Bülbüllə Tiflisdən Bakıya gəlirdik. Dəqiq yadımda deyil, bilmirəm Ağsu idi, yoxsa Kürdəmir. Amma dəqiq bilirəm ki, bu iki rayondan biri idi. Rayonun birinci katibi Bülbülü qarşılayıb qonaq evinə dəvət etdi. Qonaq evində bir qədər istirahət etdikdən sonra yenidən yola düşməliydik. Söhbət əsnasında birinci katib Bülbülə dedi: "Axşam konsertimiz olacaq, istəsəniz qalıb baxa bilərsiniz. Bülbül katibdən soruşdu ki, konsertdə kimlər oxuyacaq? Katib ifaçıların adını sadaladı. Aşıq Şakirin adı çəkiləndə Bülbül sevincək mənə sarı dönüb: Ada xanım, - dedi, - bu nə yaxşı oldu. Konsertdə Aşıq Şakir də oxuyacaq. Gəlsənə, bu axşam qalıb konsertə baxaq. Düzü, bu, mənim də ürəyimdən oldu. Səfərə çıxanda heç yerdə qalmayıb həmişə Bakıya tələsən Bülbül aşıq Şakirə görə həmin gün rayonda qaldı. Konsertdən çox böyük zövq aldıq".

Aşıq Şakir haqqında tanınmış şəxslər, ustad sənətkarlar ancaq yaxşı fikirlər söyləyirdilər. Xalq artisti, kaman ustadı Habil Əliyev deyirdi: "İfaçılar sırasında həmişə iki səsdən xoşum gəlib: Xan Şuşinski və Aşıq Şakir. Şakir haqqında saatlarla, günlərlə danışaram, qurtarmaz. Bir də onu bilirəm ki, xalq aşıq Şakirdən doymadı".

Xalq artisti, xanəndə Əlibaba Məmmədov deyirdi ki, Aşıq Şakirin sənətinə, sözün əsl mənasında, aşiq idim: "Onun gözəl muğam ifaçılığı da vardı. Əruzu yaxşı bilirdi. Eşidəndə ki, Şakir Bakının, Abşeronun hansısa bir kəndinə toya gəlib, başımızın dəstəsiynən gedib ona ləzzətnən qulaq asardıq. Şakir həm şair, həm də bəstəkar idi. Onu həmişə toylarda tez-tez görmək istəyirdim, həmişə ürəklə dinləmişəm. Bu, ürəyimdən gələn bir istək idi".

Akademik Vasim Məmmədəliyev: "Şakir aşıq sənəti ilə yanaşı, muğamı gözəl bilirdi. Eşidəndə adam təəccüb qalırdı: Aşıq olasan, muğamları belə mükəmməl biləsən? Əgər o, sazı yerə qoysaydı, gözəl aşıq olduğu kimi, gözəl də xanəndə olardı".

Bəstəkar, Xalq artisti Vasif Adıgözəlov: "Mən Aşıq Şakir haqqında ilk sözü atamdan - Z.Adıgözəlovdan eşitmişəm. Atam hər dəfə Şakirin mahnılarından, ifasından böyük zövq alırdı". Mən aşıq Şakirlə filarmoniyada işlədiyim vaxtlarda tanış olmuşdum. Filarmoniyanın direktoru Soltan Hacıbəyov bir gün mənə dedi ki, Vasif, filarmoniyanın yay salonu boşdur. İşçilər də əməkhaqqı ala bilmirlər. Gəl burada nəsə bir tədbir keçirək, tamaşaçı yığılsın. Dedim, aşıqları dəvət edək. Aşıq Şakiri, bir də Aşıq Pənahı. Soltan müəllim təklifimi bəyəndi. Həmin aşıqları dəvət etdik. Onlar burada 10 günə yaxın konsert verdilər. Hamısında da zal tamaşıçılarla dolu olurdu".



Əməkdar elm xadimi Qəzənfər Paşayev deyir ki, ümumxalq məhəbbəti qazanan, yoxluğu ilə ürəklərə od salan Aşıq Şakir böyük sənətkarlardan idi. Xalq rəssamı Altay Hacıyev: "Aşıq Şakirin səsini ilk dəfə radiodan eşitmişəm. Onda cavan vaxtlarım idi. Məhəlləmizdə tez-tez toylar olardı. Geniş çadırlar qurulardı. Aşıq Şakiri həmin toy məclislərində çox görmüşəm. İfalarına həmişə maraqla qulaq asmışam. Aşıq Şakirin sənəti də, şəxsiyyəti də çox cəlbedici idi. Məclislərdəki davranışı, təmkini bir sənətkar kimi onun hörmətini daha da artırırdı. O, həm də 1950-ci illərdə Azərbaycan Ali Sovetinə deputat seçilmişdi".

...Ustad Aşıq Şakir haqqında belə dəyərli fikirlər çoxdur. Çünki Şakir əsl sənət sahibi idi, necə deyərlər, sənəti ilə birgə doğulmuşdu.

*Tofiq ABDULLAYEV*

# bakcell abunəçilərinin nəzərinə

**“Bakcell” şirkəti abunə müqavilələrinə həmin müqavilələrin müvafiq maddələrinə uyğun dəyişikliklər etmişdir. Dəyişiklik redaksiyası diqqətinizə təqdim edilir. Sizinlə bağlanmış abunə müqaviləsində göstərilmiş müddətdə etirazınız daxil olmadığı təqdirdə, dəyişikliklər tərəfinizdən qəbul edilmiş hesab ediləcəkdir.**

NO. Tarix ____ ______ ______

## ABUNƏ MÜQAVİLƏSİ

Bir tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq telekommunikasiya xidmətləri göstərən "Bakcell" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - "Bakcell"), digər tərəfdən________________________ (bundan sonra - "Abunəçi") hazırkı Abunə Müqaviləsini (bundan sonra - "Müqavilə") Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən aşağıdakı şərtlərlə bağladılar.

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Müqavilə aşağıdakı termin və anlayışlar vasitəsilə "Bakcell"in şəbəkəsində telekommunikasiya xidmətlərinin göstərilməsi ilə bağlı Abunəçi və "Bakcell" arasında yaranan müvafiq münasibətləri tənzimləyir:

1.1.1. Abunəçi - bu Müqaviləni bağlayan hər hansı fiziki şəxs (Azərbaycan Respublikasının vətəndaşı, xarici vətəndaş, vətəndaşlığı olmayan şəxs);

1.1.2. Tariflər (Tarif)- "Bakcell" tərəfindən Abunəçiyə göstərilən Telekommunikasiya xidmətləri üzrə xidmət haqqını, istifadə müddəti və xidmətlərin göstərilməsinə dair digər şərtləri əks etdirən, "Bakcell"in www.bakcell.com ünvanlı rəsmi internet səhifəsində yerləşdirilən ("Bakcell" tərəfindən təklif edilən hər bir tarif paketi üzrə ayrı-ayrılıqda), Müqavilənin 3.9-cu bəndinə uyğun olaraq, "Bakcell" tərəfindən birtərəfli qaydada dəyişdirilə bilən və bu Müqavilənin ayrılmaz hissəsi hesab edilən qiymət cədvəlləri (dərəcələri);

1.1.3. Hesab-faktura - Abunəçinin istifadəsində olan mobil nömrəsində müvafiq Tarif üzrə hesablanmış xidmət, danışıq və abunə haqlarını əks etdirən müvafiq maliyyə sənədi;

1.1.4. Telekommunikasiya xidmətləri - Abunəçinin son avadanlığı "Bakcell"in telekommunikasiya şəbəkəsinin bütün son nöqtələri çərçivəsində sərbəst hərəkət edərək mobil stansiyanın məxsusiləşdirmə kodunu saxlamaqla və radiotexnologiyaları tətbiq etməklə, "Bakcell" tərəfindən göstərilən telekommunikasiya xidmətləri;

1.1.5. SİM-kart - "Bakcell"in telekommunikasiya şəbəkəsində işləməsi üçün Abunəçi tərəfindən istifadəsində olan rabitə cihazına quraşdırılan və həmin Abunəçi barədə məlumatı, rabitə cihazının təhlükəsizlik məlumatını və fərdi telefon kitabçası məlumatını daşıyan, habelə həmin rabitə cihazı və "Bakcell"in telekommunikasiya şəbəkəsinin digər komponentləri arasında rabitəni təmin edən Abunəçinin eyniləşdirmə modulu;

1.1.6. "Rəqəmsal SİM kart (e-SİM)" - fiziki SİM kartdan istifadə etmədən "Bakcell"in mobil rabitə xidmətlərini aktivləşdirməyə və onlardan istifadə etməyə imkan verən rəqəmsal SİM kart;

1.1.7. Mobil Nömrə - telekommunikasiya xidmətlərindən istifadə etmək üçün "Bakcell" tərəfindən təqdim olunan eyniləşdirmə mobil nömrəsidir. Abunəçiyə verilən Mobil Nömrə yalnız həmin Abunəçi tərəfindən istifadə oluna bilər. Mobil Nömrə "Bakcell"ə məxsusdur və Abunəçiyə yalnız müvəqqəti istifadə üçün, yəni bu Müqavilənin şərtlərinə əsasən "Bakcell"in Telekommunikasiya xidmətlərinə qoşulma vasitəsi kimi təqdim edilir;

1.1.8. Telekommunikasiya şəbəkəsi - “Bakcell” tərəfindən telekommunikasiya xidmətlərinin təmin edilməsi üçün istifadə olunan rabitə sistemləri, qəbuledici və ötürücü qurğular, tezliklər və digər vasitələrin cəmi;

1.1.9. İstifadə Siyasəti - "Bakcell" tərəfindən birtərəfli qaydada müəyyən edilən və vaxtaşırı dəyişdirilə bilən, cihazların və telekommunikasiya şəbəkəsinin istismarı ilə bağlı olan, həmçinin konkret xidmət və ya bir neçə xidmətlər məcmusunu özündə əks etdirən Abunəçiyə aid olan qaydalar;

1.1.10. Nömrə daşınması - Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilən Qaydalara uyğun olaraq, ümum istifadəli telekommunikasiya şəbəkəsi daxilində Abunəçinin istifadə etdiyi mobil nömrənin (nömrə saxlamaq şərti ilə) həmin Abunəçiyə telekommunikasiya xidməti göstərən mobil operatorun telekommunikasiya şəbəkəsindən çıxarılmaq, digər mobil operatorun telekommunikasiya şəbəkəsinə daşınması (keçirilməsi).

## 2. MÜQAVİLƏNİN MÖVZUSU

2.1. Bu Müqavilə üzrə "Bakcell" Abunəçini Mobil Nömrə ilə təmin etməklə müvafiq Telekommunikasiya xidmətlərini göstərir, Abunəçi isə bu Müqaviləyə və Tariflərə uyğun olaraq göstərilən xidmətlərə görə müvafiq ödənişləri həyata keçirir.

2.2. Bu Müqavilənin şərtləri həm fakturalı (dəyəri sonradan ödənilməli olan Telekommunikasiya xidmətləri), həm də fakturasız (dəyəri əvvəlcədən ödənilməli olan Telekommunikasiya xidmətləri) tarif paketlərinin xüsusiyyətlərinə müvafiq olaraq tətbiq edilir.

## ÖDƏNİŞ ŞƏRTLƏRİ

3.1. "Bakcell" ilə Abunəçi arasında bütün hesablaşmalar (ödənişlər) Azərbaycan Respublikasının milli valyutası - Azərbaycan manatı ilə həyata keçirilir.

3.2. Abunəçiyə təqdim edilən SİM-kartdan/e-SİM-kartdan istifadə etmək üçün "Abunəçi" "Bakcell" tərəfindən təqdim edilən müvafiq Tarifi seçməlidir.

3.3. Abunəçi seçilmiş Tarifin şərtlərinə uyğun olaraq Telekommunikasiya xidmətlərinin qiymətini və abunə haqqını əvvəlcədən və yaxud sonradan ödəyə bilər.

3.4. Abunəçi əvvəlcədən ödəməli olan Tarif üzrə Telekommunikasiya xidmətlərinin qiymətini və abunə haqqını Mobil Nömrənin balansına yükləyərək həmin Tarifdən istifadə edə bilər.

3.5. Hesab-faktura üzrə ödənişlər:

3.5.1. Abunəçi sonradan ödəməli olan Tarif üzrə "Bakcell" tərəfindən göstərilmiş telekommunikasiya xidmətlərinə dair ödənişini, "Bakcell" tərəfindən hazırlanmış hesab-faktura əsasında ödəməlidir. Hesab-fakturada göstərilən məbləğin ödənilməməsi, bu Müqavilənin müddəalarının pozulması kimi qəbul edilir.

3.5.2. Hesab-faktura "Bakcell" tərəfindən müəyyən edilən formada tərtib edilir və müvafiq hesablaşma dövrü ərzində göstərilən, lakin hesab-fakturaya daxil edilməyən xidmətlər növbəti hesablaşma dövrü üzrə təqdim edilən hesab-fakturada öz əksini tapmalıdır.

3.5.3. Göstərilən telekommunikasiya xidmətləri üçün hesab-faktura Abunəçiyə həmişə SMS vasitəsilə, həmçinin Abunəçinin və Abunəçinin səlahiyyətli nümayəndəsinin istəyinə görə, onların ünvanına və yaxud elektron poçt ünvanına göndərilir. Abunəçinin ünvanına göndərilən bütün hesab-fakturalar Abunəçinin şəxsən özünə təqdim edilmiş sayılır. "Bakcell"dən asılı olmayan səbəblərə görə hesab-fakturanın Abunəçiyə çatdırılmaması Abunəçi tərəfindən həmin hesab-fakturanın ödənilməməsinə səbəb ola bilməz və belə çatdırılmamaya görə "Bakcell" məsuliyyət daşımır.

3.6. Ödənişlər "Bakcell"in müvafiq ödəmə məntəqələrində və ödəmə vasitələri (o cümlədən bank, poçt, ATM bank avtomatları, ödəmə kartları, elektron ödəmə terminalları və sair) ilə həyata keçirilir. Ödəniş nağd pul təhvil verildiyi və ya bank köçürməsi yolu ilə ödənilən pul "Bakcell"in hesabına daxil olduğu zaman həyata keçirilmiş hesab edilir. "Bakcell" ödəməni qəbul edən üçüncü şəxslər vasitəsilə ödəmə məlumatlarının hər hansı səbəblərdən gecikdirilməsinə görə məsuliyyət daşımır.

3.7. Ödəmə kartından istifadə müddəti hər yükləmə zamanı təzələnir və yeni məbləğ qalıq məbləğə əlavə olunur. Bu bəndin şərtləri Fakturalı Paket və "Travel Sim" adlı Tarif Paketlərinə şamil olunmur.

3.8. Abunəçi bir Tarifdən başqa Tarifə keçdikdə, Abunəçi və "Bakcell" arasındakı münasibətlərə sonuncu Tarifin şərtləri şamil olunur.

3.9. Tərəflər razılaşırlar ki, "Bakcell"in Telekommunikasiya xidmətlərinin qiymətləri Tariflərə uyğun müəyyən edilir. Tariflər və ya onun şərtləri "Bakcell" tərəfindən birtərəfli qaydada, Abunəçini ən azı 10 (on) təqvim günü əvvəlcədən kütləvi informasiya vasitələri ("KİV") və (və ya) "Bakcell"in rəsmi internet saytı (www.bakcell.com) və (və ya) SMS bildiriş vasitəsilə xəbərdar etməklə mövcud qanunvericiliyə uyğun olaraq sərbəst şəkildə dəyişdirilə bilər.

3.10. Telekommunikasiya xidmətlərinin dəyərinə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən əlavə dəyər vergisi (ƏDV) daxildir.

## 4. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

4.1. "Bakcell":

4.1.1. Bu Müqavilənin 2.1-ci bəndinə uyğun olaraq Mobil Nömrə ilə Abunəçini təmin etmək və Abunəçini "Bakcell"in telekommunikasiya şəbəkəsinə qoşur.

4.1.2. Abunəçinin müraciəti əsasında ona təqdim olunan Telekommunikasiya xidmətləri, Telekommunikasiya xidmətlərinin şərtləri və tarifləri barədə və onlardan istifadə qaydaları haqqında müvafiq məlumatları verir.

4.1.3. Bu Müqavilədə və onunla bağlı Telekommunikasiya xidmətlərinin şərtlərində və Tariflərdə baş verən dəyişikliklər barəsində bu Müqavilədə müəyyən edilmiş qaydada Abunəçiyə əvvəlcədən məlumat verir.

4.1.4. Bu Müqavilədə nəzərdə tutulan hallarda Abunəçini "Bakcell"in telekommunikasiya şəbəkəsindən ayırmaqla Müqaviləyə birtərəfli qaydada xitam vermək hüququna malikdir.

4.1.5. Abunəçinin yazılı müraciətinə əsasən onun "Bakcell"in telekommunikasiya şəbəkəsindən istifadəsini dayandırır.

4.1.6. Müqavilənin 7.6.4-cü bəndində nəzərdə tutulmuş hal baş verdikdə, bu Müqaviləyə xitam verərək Mobil Nömrəni Abunəçidən geri almaq və başqa şəxsin istifadəsinə vermək hüququna malikdir. Bu zaman "Bakcell" Abunəçiyə müvafiq bildiriş göndərməli deyil. "Bakcell" və Abunəçi razılaşır ki, 7.6.4-cü bənddə müəyyən edilən müddət bu Müqavilədə nəzərdə tutulan qaydada "Bakcell" tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər. Bu bəndin şərtləri "Travel Sim" adlı Tarifə şamil olunmur.

4.1.7. İstənilən vaxt öz mülahizəsinə əsasən Abunəçinin kredit limitini artırmaq və ya azaltmaq hüququna malikdir.

4.1.8. Bu Müqavilə ilə və ya qanunvericiliklə müəyyən olunan hallarda Müqaviləyə birtərəfli qaydada xitam vermək hüququna malikdir.

4.1.9. Abunəçiyə dair müvafiq məlumatların vahid məlumat bazasına onlayn rejimdə elektron formada daxil edir və yalnız bundan sonra Abunəçiyə təqdim edilmiş Mobil Nömrənin öz telekommunikasiya şəbəkəsində aktivləşdirilməsini təmin edir.

4.1.10. "Bakcell"in telekommunikasiya şəbəkəsində rouminq xidmətindən istifadə edən əcnəbi və (və ya) vətəndaşlığı olmayan Abunəçiyə aid qeydiyyata alınmış bütün məlumatların ən azı 1 (bir) il müddətində saxlanılmasını təmin edir.

4.1.11. Abunəçi Müqavilənin 4.2.1-ci maddəsində nəzərdə tutulmuş öhdəliklərini tam və vaxtında icra etmədikdə, Müqaviləyə xitam verərək Mobil Nömrəni Abunəçidən geri almaq hüququna malikdir.

4.1.12. "Bakcell" tamamilə öz mülahizəsinə əsasən, o cümlədən lakin bununla məhdudlaşmayaraq, Abunəçi tərəfindən bu Müqavilənin 4.2.8, 4.2.9, 4.2.10 və 4.2.11-ci bəndlərində nəzərdə tutulmuş öhdəliklərin pozulmasına əsaslı şübhələr olduğu təqdirdə, Mobil Nömrənin (və ya Mobil Nömrələrin) Abunəçinin müraciəti əsasında hər hansı üçüncü şəxsin adına rəsmiləşdirilməsindən və belə üçüncü şəxsin istifadəsinə verilməsindən imtina etmək hüququna malikdir.

4.1.13. Abunəçinin "Bakcell" ilə bir neçə abunə müqaviləsi və ya bir abunə müqaviləsi üzrə istifadəsində bir neçə Mobil Nömrə olduqda və həmin müqavilələrdən və ya Mobil Nömrələrdən hər hansı biri və ya bir neçəsi üzrə "Bakcell"ə borcu yarandıqda, Abunəçi ilə bağlanmış digər abunə müqavilələri və ya bir abunə müqaviləsi üzrə Mobil Nömrələrin balans hesablarından müvafiq məbləğləri tutaraq/silərək Abunəçinin "Bakcell"ə olan borclarının ödənilməsini təmin etmək hüququna malikdir.

4.1.14. Eyni Abunəçinin "Bakcell" ilə bağlaya biləcəyi müqavilələrin və ya istifadəsinə veriləcək nömrələrin sayına məhdudiyyət tətbiq etmək hüququna malikdir.

4.1.15. Bu Müqavilənin 1.1.9-cu bəndinə uyğun olaraq həyata keçirilən "Bakcell" şəbəkəsindən nömrə daşınması halında digər operatorun şəbəkəsinə daşınan nömrə üzrə öz öhdəliklərinin icra olunmasını dərhal dayandırır.

4.1.16. Bu Müqavilənin 1.1.9-cu bəndinə uyğun olaraq həyata keçirilən "Bakcell"in şəbəkəsinə nömrə daşınması halında, lakin belə nömrə üzrə əvvəlki telekommunikasiya operatoru qarşısında öhdəliklər tam yerinə yetirilmədiyi təqdirdə, belə nömrə üzrə öz öhdəliklərinin icra olunmasını Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilmiş müvafiq qaydalara əsasən dayandırır.

4.1.17. Mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və vəzifələri yerinə yetirir.

4.2. Abunəçi:

4.2.1. Bu Müqavilənin 2.1-ci bəndinə uyğun olaraq Mobil Nömrəni qəbul etməli, Mobil Nömrənin balansına ödəniş edərək Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin vahid məlumat bazasına onlayn rejimdə elektron formada daxil edilən Mobil Nömrəni 24 saat ərzində aktivləşdirməli və bu Müqavilənin şərtlərinə uyğun olaraq istifadə etməlidir.

4.2.2. Seçilmiş Tarifə əsasən tətbiq edilən tarif planını seçə, "Bakcell" tərəfindən müəyyən edilən şərtlərə və qaydalara uyğun olaraq onu digəri ilə əvəz edə bilər. Bu Müqavilənin 4.2.2-ci bəndinin müddəaları seçilmiş tarif paketinin digəri ilə əvəz etmək hissəsində "Travel Sim" adlı Tarif paketinə şamil olunmur.

4.2.3. "Bakcell" tərəfindən göstərilən hər hansı Telekommunikasiya xidmətindən və ya Tarifdən "Bakcell" tərəfindən müəyyən edilən şərtlərə və qaydalara uyğun olaraq imtina edə və ya dəyişdirə bilər.

4.2.4. Təqdim olunmuş Mobil Nömrənin üçüncü şəxslər tərəfindən istifadəsinə görə məsuliyyət daşıyır.

4.2.5. Bu Müqavilənin şərtlərinə uyğun olaraq vaxtlı-vaxtında Telekommunikasiya xidmətlərinə görə ödənişləri həyata keçirməlidir.

4.2.6. Öz identifikasiya modulunu (SİM kart/e-SİM kart və s.) və rabitə cihazının itirilməsi və ya oğurlanması barədə dərhal (istənilən halda 6 (altı) saatdan gec olmayaraq) Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin yerli qurumuna və "Bakcell"ə yazılı bildiriş vasitəsilə rəsmi məlumat verməlidir. İstənilən halda Abunəçi "Bakcell"ə bu bildiriş təqdim olunana qədər Telekommunikasiya xidmətləri üzrə yaranmış borcları üçün məsuliyyət daşıyır. "Bakcell" itirilmiş və ya oğurlanmış SIM-kartın/e-SIM-kartın dublikatını çıxarır və həmin dublikatın çıxarılması üçün xidmət haqqı Abunəçi tərəfindən ödənilir.

4.2.7. Abunəçi bu Müqavilədə əks olunmuş və Abunəçi tərəfindən "Bakcell"ə təqdim edilmiş Abunəçiyə aid olan məlumatların doğruluğuna görə məsuliyyət daşıyır və qeydiyyat ünvanında, anket məlumatlarında, əlaqə nömrəsində və bu Müqavilə ilə əlaqədar digər məlumatlarında baş verən dəyişikliklər barədə "Bakcell"ə dərhal (istənilən halda 2 (iki) təqvim günündən gec olmayaraq) yazılı məlumat verməlidir.

4.2.8. Abunəçi Müqaviləni bağlamaqla hazırkı Müqavilənin bütün müddəalarını qeyd-şərtsiz qəbul edir. Abunəçi Telekommunikasiya xidmətlərindən, Mobil Nömrədən istifadə zamanı qanunvericiliyin və bu Müqavilənin müddəalarına və İstifadə Siyasətinə riayət etməlidir, "Bakcell"in telekommunikasiya şəbəkəsini, Telekommunikasiya xidmətlərini, SİM kartı (SİM kartları)/e-SİM kartı (e-SİM kartları) və ya ödəniş kartlarını hər hansı qeyri-qanuni və ya qeyri-etik məqsədlər, cinayət məqsədləri və ya inzibati xətalar üçün istifadə etməməlidir.

4.2.9. Mobil Nömrənin (Mobil Nömrələrin) və SİM kartın (Sim kartların) / e-SİM kartın (e-SİM kartların) yeganə istifadəçisi olaraq onların üçüncü şəxslər tərəfindən mütəmadi və ya daimi istifadəsinə, habelə mütəmadi gəlir (mənfəət) əldə etmək məqsədilə icarəyə verilməsinə yol verməməlidir və üçüncü şəxslərin hər hansı istifadəsinə görə tam məsuliyyət daşıyır.

4.2.10. SİM kartın / e-SİM kartın və ya SİM kartdakı/e-SİM kartdakı hər hansı məlumatın surətinin çıxarılmamasını, qanunsuz kommersiya məqsədilə istifadə edilməməsini təmin etməlidir.

4.2.11. Telekommunikasiya xidmətlərini, SİM kartı (SİM kartları)/e-SİM kartı (e-SİM kartları), ödəniş kartlarını və ya Mobil Nömrəni (Mobil Nömrələri) üçüncü şəxslərə ikinci əldən (təkrarən) satmamalıdır, habelə satmaq, istifadəyə, kirayəyə və ya icarəyə vermək məqsədilə, lakin bunlarla məhdudlaşmayan istənilən məqsədlə elan verməməlidir və belə məhdudiyyətləri pozduğu halda, SİM kart (SİM kartlar)/e-SİM kart (e-SİM kartlar) və (və ya) Mobil Nömrə (Mobil Nömrələr) üzərindən baş vermiş istənilən hadisələrə, "Bakcell"ə və üçüncü tərəflərə dəymiş bütün zərərə və itkiyə görə qanunvericiliyə uyğun olaraq tam məsuliyyət daşıyır.

4.2.12. "Bakcell"in yazılı razılığı olmadan Mobil Nömrədən (Mobil Nömrələrdən) üçüncü şəxslərə zəng mərkəzi (telefon məlumat mərkəzi) xidmətləri göstərməməlidir və Abunəçi tərəfindən seçilmiş Tarif üzrə Mobil Nömrə (Mobil Nömrələr) üzrə təqdim edilmiş SMS xidmətindən üçüncü şəxslərə kommersiya və ya digər məqsədlərlə toplu SMS (mesaj) göndərməməlidir.

4.2.13. Müntəzəm olaraq balansını yoxlamalı və müsbət olmasını təmin etməlidir.

4.2.14. "Bakcell"in Telekommunikasiya şəbəkəsinə müdaxilə edən və ya mənfi təsir göstərə bilən qurğulardan istifadə etməməlidir.

4.2.15. Abunəçi "Bakcell"ə təqdim etdiyi rəsmi müraciəti əsasında, istifadə etdiyi Tarifə əsasən müvafiq məbləğ tutulan fakturanı və yalnız çıxan zənglərin (SMS, MMS, DATA) açıqlamasını (siyahısını və sərfiyyatı) və beynəlxalq rouminq zamanı daxil olan zənglərin açıqlamasını (siyahısını və sərfiyyatı) əldə edə bilər.

4.2.16. Mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və vəzifələri daşıyır.

4.3. Abunəçi bu Müqavilə əsasında məlumat, əyləncə və reklam növlərinə aid SMS-lərin avtomatik rejimdə onun nömrəsinə göndərilməsinə razılığını verir və Abunəçi hər hansı növ SMS-lərin qəbulundan imtina etdikdə həmin növlü SMS-lərin müvafiq nömrəyə göndərilməsi dayandırılır.

## 5. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

5.1. Tərəflər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən bu Müqavilənin şərtlərinin tam və ya qismən yerinə yetirilməməsinə görə məsuliyyət daşıyırlar. Abunəçi bu Müqavilədə müəyyən olunan ödənişi gecikdirdiyi təqdirdə, "Bakcell" ödənişin gecikdirildiyi hər təqvim günü üçün Abunəçi tərəfindən ödənilməli olan cəmi məbləğin 0,1% (sıfır tam onda bir faizi) həcmində, lakin cəmi borc məbləğinin 30%-dən (otuz faizindən) çox olmamaq şərtilə Abunəçiyə cərimə tətbiq edə bilər. Abunəçiyə tətbiq olunan cərimələr, onun istifadə etdiyi Mobil Nömrənin/Mobil Nömrələrin hesabından (balansından) "Bakcell" tərəfindən birtərəfli qaydada tutula bilər.

5.2. Abunəçi yaranmış borcu ödəmədikdə "Bakcell" Telekommunikasiya xidmətlərinin göstərməsini dayandırmaq hüququna malikdir. Müvafiq xidmətlərin dayandırılması Abunəçini yaranmış borcun ödənilməsi öhdəliyindən azad etmir.

5.3. Abunəçinin rouminq və digər Telekommunikasiya xidmətlərinin istifadəsi ilə bağlı hesablaşmada 60 (altmış) təqvim günü gecikmə mümkündür. Abunəçi hər bir halda həmin xidmətlər üzrə ödənişlərin edilməsinə görə məsuliyyət daşıyır.

5.4. Abunəçinin "Bakcell"in telekommunikasiya şəbəkəsindən və (və ya) telekommunikasiya avadanlığından istifadə etməsindən irəli gələn hər hansı nəticəyə görə "Bakcell" məsuliyyət daşımır.

5.5. Abunəçinin identifikasiya modulunun (SİM kart/e-SİM kart və s.) üçüncü şəxslər tərəfindən istifadəsindən yaranan nəticələrə görə Abunəçi tam məsuliyyət daşıyır.

5.6. "Bakcell" tərəfindən hazırkı Müqavilə üzrə öhdəliklərin tam və ya qismən yerinə yetirilməməsi, o cümlədən Telekommunikasiya xidmətlərin qüsurlu olması nəticəsində Abunəçiyə birbaşa və ya dolayısı ilə dəyən maddi və digər ziyana görə "Bakcell"in məsuliyyəti yalnız həmin Telekommunikasiya xidmətlərinin Tarif paketi ilə nəzərdə tutulmuş dəyəri ilə məhdudlaşır. Abunəçi razılaşır ki, "Bakcell" tərəfindən bu Müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi və ya qüsurla yerinə yetirilməsi nəticəsində Abunəçiyə dəyən hər hansı ziyana görə Abunəçinin "Bakcell"ə qarşı bu maddə ilə nəzərdə tutulmuş məsuliyyətdən başqa heç bir tələbi olmayacaqdır.

## 6. FORS-MAJOR

6.1. Tərəflər bu Müqavilədə nəzərdə tutulmuş öhdəlikləri qarşısıalınmaz qüvvənin, səlahiyyətli hakimiyyət orqanlarının və vəzifəli şəxslərin aktları, habelə məhkəmə qərarları, müharibə, blokada, tətil, ictimai iğtişaşlar və başqa hərbi aktlar, yanğın, daşqın, zəlzələ və başqa təbii fəlakətlər və ya digər hər hansı səbəblərdən rabitə şəbəkəsindən istifadənin onun texniki imkanların aşması və ya tərəflərin ağlabatan şəkildə nəzərə ala bilməyəcəkləri digər öncədən görülməsi mümkün olmayan və/və ya Tərəflərin nəzarəti xaricində olan (o cümlədən lakin bununla məhdudlaşdırılmayan texniki səbəblərdən irəli gələn hallar da daxil olmaqla) hallar və ya adi şəraitdə normal qayğı və sayəsində aradan qaldırıla bilməyən hər hansı bir hal (fors-major) nəticəsində yaranan səbəblərə görə yerinə yetirməsələr, onlar (və ya Tərəflərdən biri) fors-major halın davam etdiyi müddətdə öhdəliklərin icrasından azad olur. Fors-major halı haqqında xəbərdar olan hər hansı bir Tərəf mümkün qədər tez digər Tərəfi məlumatlandırmalı və bu cür şəraiti aradan qaldırmaq üçün müvafiq tədbirlər görməlidir.

## 7. ƏLAVƏ ŞƏRTLƏR

7.1. Bu Müqavilə imzalandığı tarixdən (1.1.9-cu bəndə uyğun olaraq həyata keçirilən nömrə daşınması halında, belə daşınmanın uğurla həyata keçməsi tarixindən etibarən) qüvvəyə minir və "Travel Sim" adlı Tarif Paketi çərçivəsində göstərilən müddətli Telekommunikasiya xidmətləri istisna olmaqla, qeyri-müəyyən müddətə bağlanılmış sayılır. "Travel Sim" adlı Tarif Paketinin etibarlılıq müddəti 30 (otuz) təqvim günü təşkil edir.

7.2. Abunəçinin hesabında olan məbləğ daxilində "Bakcell"in sisteminə pul yükləndiyi vaxtdan hesablanmaqla ödəmə kartlarının etibarlıq müddəti ərzində çıxış və giriş trafiki üzrə xidmət göstərilir.

7.3. Bu Müqavilənin 7.6.4.-cü bəndində istinad edilmiş Telekommunikasiya xidmətlərindən istifadə müddəti "Bakcell"in müvafiq sisteminə pul yükləndiyi andan hesablanır.

7.4. Bu Müqaviləyə hər hansı dəyişiklik etmək məqsədilə (Tariflərə edilən dəyişikliklər də daxil olmaqla) "Bakcell" həmin dəyişiklikləri əks etdirən məlumatı Azərbaycan Respublikası ərazisində əldə oluna bilən kütləvi informasiya vasitəsilə yayımlamalı və (və ya) www.bakcell.com ünvanlı rəsmi internet səhifəsində yerləşdirməlidir. Müqaviləyə dəyişikliklərin edilməsi barədə məlumatın kütləvi informasiya vasitələri ilə yayımlanması və ya www.bakcell.com internet səhifəsində yerləşdirilməsi tarixindən etibarən 10 (on) təqvim günü ərzində Abunəçi tərəfindən "Bakcell"ə Müqaviləyə xitam verilməsi barədə rəsmi bildiriş daxil olmadığı təqdirdə, yayımlanmış və ya www.bakcell.com internet səhifəsində yerləşdirilmiş dəyişikliklər Abunəçi tərəfindən qəbul edilmiş hesab edilir və "Bakcell" tərəfindən tətbiq edilir.

7.5. Bu Müqavilədən irəli gələn mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının məhkəmələrində həll edilir. "Bakcell" məhkəməyə müraciət etməzdən əvvəl Abunəçiyə yazılı və ya şifahi bildiriş, məlumat, pretenziya təqdim etmək öhdəliyi daşımır.

7.6. "Bakcell" aşağıdakı hallarda bu Müqavilə üzrə göstərilən xidmətləri müvəqqəti olaraq birtərəfli qaydada dayandıra və ya Müqaviləyə xitam verə bilər:

7.6.1. "Bakcell" in texnoloji avadanlığına zərər dəydikdə, texnoloji avadanlığında texniki xidmət və profilaktik işlərlə əlaqədar olaraq və ya texniki səbəblərdən şəbəkədə modifikasiya və ya təmir işlərinə ehtiyac yarandıqda;

7.6.2. Bu Müqavilənin müddəalarına uyğun olaraq Abunəçi tərəfindən Telekommunikasiya xidmətləri üzrə ödəniş öhdəlikləri yerinə yetirilmədiyi halda;

7.6.3. Abunəçi telekommunikasiya xidmətlərindən kommersiya, dələduzluq və ya bu Müqavilənin şərtlərinə və ya qanunvericiliyə zidd olan digər məqsədlərlə istifadə etdiyi halda və ya bu əməllərin törədiləcəyini güman etmək üçün əsas(lar) olduqda;

7.6.4. "Travel Sim" adlı Tarif Paketi çərçivəsində göstərilən Telekommunikasiya xidmətləri istisna olmaqla, Abunəçi seçdiyi Tarifin şərtlərinə uyğun olaraq "Bakcell"in www.bakcell.com ünvanlı rəsmi internet səhifəsində yerləşdirilmiş Telekommunikasiya xidmətlərindən istifadə müddəti sona çatdıqdan sonra ardıcıl 6 (altı) ay ərzində (Mobil Nömrədə istifadə edilən Tarifdən asılı olaraq "Bakcell"in rəsmi internet saytında fərqli müddət müəyyən edilə bilər və bu halda həmin müddət şamil olunur) bu Müqavilədə göstərilən Telekommunikasiya xidmətlərindən istifadə etmədiyi halda;

7.6.5. Abunəçi vəfat etdikdə (öldükdə) və ya məhkəmə qaydasında ölmüş elan edildikdə və ya məhkəmə qaydasında itkin düşmüş hesab edildikdə və ya məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;

7.6.6. Fors-major və qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

7.7. Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi şəxslər üçün nəzərdə tutulmuş Tariflər üzrə Telekommunikasiya xidmətləri istisna olmaqla, Abunəçi Mobil Nömrənin 90 (doxsan) təqvim günündən çox olmayan müddətə ikitərəfli qaydada bağlanılması üçün "Bakcell" tərəfindən müəyyən edilmiş məntəqələrdə yazılı müraciət edə bilər. Abunəçi bu qaydada yazılı müraciət edərək Müqaviləyə xitam da verə bilər. Nömrənin Abunəçinin yazılı müraciəti ilə bağlanılması (xidmətlərin göstərilməsinin hazırkı bənddə müəyyən edilən müddətdən artıq olmayan müddətdə müvəqqəti dayandırılması) və ya Müqaviləyə xitam verilməsi Abunəçini həmin ana qədər yaranan borcun ödənilməsindən azad etmir. 90 (doxsan) təqvim günü keçdikdən sonra Abunəçi nömrəni aktivləşdirmədiyi halda, "Bakcell" bu Müqaviləyə birtərəfli qaydada xitam vermək hüququna malikdir.

7.8. Abunəçi hazırkı Müqaviləni imzalamaqla "Mənim Bakcellim" mobil tətbiqinin şərt və müddəalarının hazırkı Müqavilənin ayrılmaz tərkib hissəsi olması ilə razılaşır. Abunəçi hazırkı Müqaviləni bağlayan anda "Mənim Bakcellim" mobil tətbiqindən istifadə etmirsə, hazırkı 7.8-ci bənd Abunəçi tərəfindən həmin mobil tətbiqin şərt və qaydaları bu mobil tətbiq vasitəsilə təsdiq edildiyi anda qüvvəyə minir.

7.9. Abunəçi "Mənim Bakcellim" mobil tətbiqi və (və ya) "Bakcell"in rəsmi satış və xidmət məntəqələri və ya diler (distribütor) şəbəkəsi və ya "Bakcell"in hər hansı digər rəsmi onlayn satış kanalı (platforması) vasitəsilə əməliyyatları (Abunəçinin adına yeni Mobil Nömrə rəsmiləşdirilməsi də daxil olmaqla, lakin bununla məhdudlaşmamaqla) "Bakcell" tərəfindən bu Müqaviləyədək Abunəçinin "Bakcell"in telekommunikasiya şəbəkəsində artıq adına qeydə alınmış aktiv Mobil Nömrəsinə göndərilmiş birdəfəlik şifrəni (OTP) təsdiq etməklə icra edə bilər. Bu halda, birdəfəlik şifrənin (OTP) təsdiqi Abunəçinin şəxsi imzasının analoqu hesab edilir. Abunəçinin şəxsi imzasının analoqu Abunəçinin şəxsi imzasına bərabər hüquqi qüvvəyə malikdir. Abunəçi şəxsi imzasının analoqu vasitəsilə "Bakcell"in Telekommunikasiya xidmətlərindən, o cümlədən adına yeni Mobil Nömrənin rəsmiləşdirilməsi imkanından yalnız "Bakcell"in telekommunikasiya şəbəkəsində adına qeydə alınmış aktiv Mobil Nömrə olduğu təqdirdə istifadə edə bilər. Bu üsulla yeni Mobil Nömrə əldə edən zaman Abunəçiyə çap edilmiş yazılı abunə müqaviləsi təqdim edilmir və Abunəçi "Bakcell"in www.bakcell.com rəsmi veb səhifəsində yerləşdirilmiş və həmin anda qüvvədə olan abunə müqaviləsinin şərt və müddəaları ilə razılaşır və onu imzalamış hesab edilir. Abunəçinin şəxsi imzasının analoqundan üçüncü şəxslərin istifadəsinin hüquqi nəticələrinə görə Abunəçi tam məsuliyyət daşıyır.

7.10. Bu Müqavilə Azərbaycan dilində bağlanır və Tərəflər Müqavilənin bütün müddəaları barədə razılaşırlar.

**"Bakcell" MMC:**

**________________**
**(imza və möhür yeri)**

**"Abunəçi":**

**________________**
**(imza yeri)**

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə 18.05.2022-19.05.2022-ci il tarixlərdə nəzərdə tutulmuş təkmilləşdirmə işləri 19.05.2022-ci il tarixi saat 23:30-dan etibarən 20.05.2022-ci il tarixi gecə saatları ərzində aparılacaq.

*Təkrar*

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi *açıq tender elan edir*

**LOT-1.** Ağdam Uşaq və Ailələrə Dəstək Mərkəzinin inzibati binasının tikintisi işlərinin satın alınması.

Açıq tenderdə iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK:CTREAZ 22**
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7(səviyyə kodu)**
**Kitab nömrəsi-002306-2318501;**
**Funksional təsnifat-00113;**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**
**Əsas fəaliyyət növünün kodu - 84120**

**İştirak haqqı: 2500.00 (iki min beş yüz) manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış;*
*2) Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*3) İddiaçının son dövr göstərilməklə fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*4) Tender təklifi;*
*5) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*6) Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması və yaxud müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd- Kommersiya Məhkəməsindən və ya Dövlət Vergi Xidmətindən Yüklülük haqqında arayış;*
*7) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması haqqında arayış (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır);*
*8) İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (malgöndərən uçotda olduğu statistika orqanından alır);*
*9) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*10) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*11) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*12) Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərinin icra edilməsi üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi (və ya müvafiq dövlət orqanı) tərəfindən verilmiş lisenziya - əlavəsi ilə birlikdə;*
*13) İşin icrası üçün müqavilə imzalayacağı subpodratçılar barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə)-siyahı rəsmi blankda təqdim olunmalı;*
*14) İddiaçının peşəkar işçi heyəti haqqında məlumat - minimum 10 il təcrübəsi olan 5 təcrübəli mühəndisi (bununla bağlı işçi heyətinin diplomları, CV-ləri və portaldan əmək müqaviləsinə dair bildiriş-çıxarışı təqdim olunmalı) olmalıdır;*
*15) İddiaçının analoji işləri haqqında - iddiaçı baş podratçı kimi ən azı 5 (beş) analoji obyektdə əsaslı tikinti işlərinin icraçısı kimi təcrübəyə malik (bununla bağlı təhvil-təslim aktlarını təqdim etməlidir) olmalıdır;*
*16) İddiaçının maddi-texniki bazası haqqında - işlərin icrasını təmin etmək üçün malgöndərən bütün maddi-texniki bazaya (kran, yük maşını, beton qarışdıran və digər zəruri avadanlıqlar) malik olmalıdır;*
*17) Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

Qeyd olunan sənədlər Azərbaycan dilində düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

İddiaçının təklifi əsli və surəti eyni bir zərfə qoyulmaqla, qiymət təklifini təklifin bank təminatı ilə birlikdə əsli və surəti digər zərfə qoyulmaqla zərfləri imzalayıb möhürləməli, sonra isə texniki və qiymət təklifləri olan zərfləri başqa bir xarici zərfə qoyub, xarici zərfi imzalayıb və möhürləyib əsas şərtlər toplusunun məlumat xəritəsində göstərilmiş vaxtdan gec olmayaraq göstərilmiş ünvana göndərilməlidir.

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər. Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.06.2022-ci il saat 17:00-a,** tender təklifi və tender təklifinin bank təminatını isə **20.06.2022-ci il saat 18:00-a** qədər kağız daşıyıcıda ikiqat zərfdə (əsli və surəti) AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80,Hökumət evi, IV qapı ünvanına təqdim etməlidirlər. İddiaçıların təklifləri **21.06.2022-ci il saat 17:00-da** açılacaqdır.

**Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80,Hökumət evi, IV qapı.**
**Telefon: (+99412) 498-69-57**
**E-mail: zohrabhasanov1983@gmail.com**
**Əlaqələndirici şəxs: Zöhrab Həsənov.**

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi **açıq tender elan edir**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi İsmayıllı rayonunun Zeyvə kəndi ərazisində, Muğanlı-İsmayıllı avtomobil yolunun 16-cı km-də "DOST evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin tikintisi işlərinin satın alınması ilə əlaqədar tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova 85 (Əlaqə telefonu: (012) 596 44 09 (e.poçt: **aydin.m.mammadov@sosial.gov.az**) ünvanında yerləşən inzibati binadan ala bilərlər.

**İştirak haqqı: 1500 (bir min beş yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 29.2-ci maddəsinə əsasən, tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır

Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər məcburi ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.05.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması; (müvafiq təsdiqedici sənədlər təqdim olunmalıdır);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. 01.05.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulduğu halda, iddiaçı bu qanunun 28.1-ci maddəsində nəzərdə tutulan tender təklifinə işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatları (konkret subpodratçının adı göstərilməklə) göstərməlidir;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. (01.05.2022-ci il tarixdən sonra alınmış arayış təqdim olunmalıdır);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.06.2022-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **21.06.2022-ci il saat 17:00-a** qədər Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova 85 ünvanında yerləşən nazirliyin inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı **22.06.2022-ci il saat 17:00-da** Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova 85 ünvanında yerləşən nazirliyin inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır.

İddiaçı və ya onun notarial qaydasında təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxs tender prosedurlarının açılışında iştirak edə bilər. Müvafiq orqanlardan tələb olunan sənədlərin alınmasının cari ayı əhatə etməsi mütləqdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 06.04.2022-ci il tarixdə elan edilmiş 0.4 kV elektrik xətlərində sabit və dəyişən gərginli yi ölçən 1 fazlı elektron cihazların "Açıq tender" üsulu ilə satın alınmasına dair tenderin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 maddəsinə uyğun olaraq davamından imtina edilmişdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC-nin Tender komissiyası tərəfindən 01 aprel 2022-ci il tarixdə "Zəngilan şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Zəngilan" Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq iki dövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması" məqsədilə elan verilmiş açıq tenderə təklif təqdim etmiş iddiaçıların sayı üçdən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 maddəsinə uyğun olaraq davamından imtina olunur.

***Tender komissiyası***

# Külli miqdarda narkotik vasitənin dövlət sərhədindən keçirilməsi cəhdlərinin qarşısı alınıb

Dövlət sərhədinin etibarlı mühafizəsi, qaçaqmalçılıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində son günlər Dövlət Sərhəd Xidmətinin (DSX) "Horadiz" və "Göytəpə" sərhəd dəstələrinin əməkdaşları tərəfindən ümumi çəkisi 106 kiloqram 495 qram olan narkotik maddələrin və 4000 ədəd psixotrop tərkibli həbin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, mayın 12-də saat 00:30 radələrində "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Füzuli rayonunun Qazaxlar kəndi yaxınlığında yerləşən sərhəd zastavasının sahəsində xidmət aparan sərhəd naryadı tərəfindən dövlət sərhədinin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində pozulmasına dəlalət edən əlamətlər aşkarlanıb. Sərhəd zastavası dərhal "Silaha" komandası ilə qaldırılıb, ərazi qapadılıb.

Həyata keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində sərhədboyu ərazidə kolluqların arasında gizlədilmiş bağlamanın içərisində təxmini çəkisi 9 kiloqram 400 qram narkotik vasitə - marixuanaya bənzər maddələr aşkarlanaraq götürülüb.

Mayın 15-də saat 02:20 radələrində "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Abasallı kəndi yaxınlığında yerləşən sərhəd zastavasının sahəsində xidmət aparan sərhəd naryadı 4 nəfər naməlum şəxs tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədinin pozulduğunu müəyyənləşdiriblər.

Sərhəd zastavası dərhal "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb, sərhəd pozucularının təqibinə başlanılıb. Sərhəd naryadı tərəfindən "Dayan!" əmri verilərək havaya xəbərdarlıq atəşi açıldıqdan sonra qaçaqmalçılar əllərindəki bağlamaları yerə ataraq relyefin mürəkkəb, ərazinin sıx kolluq olmasından istifadə edərək geriyə - İran İslam Respublikası istiqamətinə qaçıblar.

Ərazidə aparılmış axtarış tədbirləri nəticəsində 4 ədəd bağlamanın içərisində ümumi çəkisi 79 kiloqram 595 qram olan narkotik vasitə (45 kq 580 qram heroin, 27 kiloqram 940 qram marixuana, 3 kiloqram 665 qram metamfetamin, 2 kiloqram 410 qram tiryək) və psixotrop tərkibli 4000 ədəd "metadon-40" həbi aşkarlanaraq götürülüb.

Mayın 17-də saat 01:40 radələrində "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Alçabulaq kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində 2 nəfər naməlum şəxs tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkarlanıb.

Sərhəd zastavası dərhal "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb, xidməti itlər cəlb edilməklə sərhəd pozucularının axtarışı həyata keçirilib. Həmçinin hadisə yeri və yaxın ərazilər nəzarətə götürülüb.

Sərhəd naryadı tərəfindən "Dayan!" əmrinin verilməsinə və havaya xəbərdarlıq atəşi açılmasına baxmayaraq, cinayətkarlar əmrə tabe olmayaraq silahlı müqavimət göstərib və avtomat silahdan atəş açaraq sərhədçilərin həyatına qəsdə cəhd ediblər.

Sərhəd pozucularının təqibi zamanı sərhəd naryadı tərəfindən "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" qanunun tələblərinə uyğun olaraq, silah tətbiq edilib. Qaçaqmalçılar əllərindəki bağlamaları yerə ataraq ərazinin sıx meşəlik, dağlıq və hava şəraitinin qaranlıq olmasından istifadə edərək geri İran ərazisinə qaçıblar.

Ərazidə aparılmış axtarış tədbirləri zamanı qaçaqmalçılar tərəfindən atılmış 3 bağlamanın içərisində ümumi çəkisi 17 kiloqram 500 qram olan narkotik vasitə, atışa hazır vəziyyətdə olan AKM-74 markalı silah, 20 patron, gecəgörmə cihazı və 40 qutu "KENT" markalı siqaret aşkarlanaraq götürülüb.

Həyata keçirilmiş əməliyyat-qoşun tədbirləri nəticəsində hadisə yerinə yaxın ərazidə bir nəfər Azərbaycan vətəndaşı şübhəli şəxs qismində saxlanılıb. Hazırda həmin şəxsin şəxsiyyəti müəyyənləşdirilir.

Faktlarla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin İntizam komissiyasının sədri, Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin sədri Eldar İbrahimov və cəmiyyətin üzvləri cəmiyyətin sədr müavini, texnika elmləri doktoru, professor

**ARİF ZÜLFÜQAR OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

İxtiyar Hüseynli Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının rəhbəri Ayaz İmaməliyevə atası

**AĞALAR İMAMƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Bakı Şəhəri üzrə Baş Maliyyə İdarəsinin kollektivi Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin sədri Rəfail Mehralıyevə əmisi

**İSRAFİL MEHRALIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi MSN-in "Şərq" İstehsalat Birliyinin baş direktoru İlqar Nəzərova bacısı

**VALİDƏ NOVRUZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının əməkdaşları - Alış Qasımov, Mayis Əliyev, Zahid Cəfərov, Lalə Ələsgərova, Əbülfəz Hüseynov, Mahir Əliyev, Ülkər Əkbərli, Fəridə Əliyeva, Nərmin Təhməzli və Fəridə Aslanova Cinayət prosesi kafedrasının dosenti Mədinə Qasımovaya həyat yoldaşı

**OQTAY QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5952
Sifariş 1369
Qiyməti 40 qəpik